ƏZİZƏ CƏFƏRZADƏ

# *BİR SƏSİN*

# *FACİƏSİ*

ƏZİZƏ CƏFƏRZADƏ

# BİR SƏSİN FACİƏSİ

Bakı — 2016

Ə. Cəfərzadə, «Bir səsin faciəsi» Roman.
Bakı, Azərbaycan Korlar Cəmiyyətinin
Mətbəəsi, 1997. səh.

Otuzdan ziyadə kitablar, tarixi romanlar, elmi-populyar əsərlər müəllifi Əzizə Cəfərzadənin bu romanında Azərbaycanın keçmiş Cavad — Qaradonlu — Şirvan ərazisində baş verən hadisələrdən, ailə-məişət məsələlərindən, əski adət və ənənələrdən bəhs olunur. Romanda səsi vala yazılmış Azərbaycanın ilk qadın xanəndəsi Mirzə Güllərin də həyatına nəzər salınır.

# I HİSSƏ

Çayın qırağında bir gəlin paltar yuyurdu. Şirvanın, Şəkinin ağ ipəyindən tikilmiş incə, gözəl uzunluqları, müxtəlif, əlvan üst geyimlərini, qadın və kişi paltarlarını Kürün suyundan bir qədər də durultduğu, qazan asıb isti su hazırladığı bu yerdə paltarları suya çəkdikdən sonra, yanındakı ondörd-onbeş yaşlı qız həmin sıxılmış paltarları alıb aparır, kolların, təzə, yaşıl otların, üstünə sərirdi. Qız özü paltar yumasa da, anasından aldığı yaş paltarlar sinəsini, qollarını islatmışdı. Əynindəki nazik geyim bədəninə yapışmış, cavan qız bədəninin müxtəlif qabarmış yerlərini büruzə verirdi. Beləcə anayla balanın başı paltar yumağa, sərməyə elə qarışmışdı ki, bəlkə də uzaqdan gələn at ayağının tappıltılarını eşitməmişdilər də. Eşitsələr də əhəmiyyət verməmişdilər. Başları ana-bala söhbətlərinə qarışmışdı. Gülüşürdülər, danışırdılar. Nədənsə, deyəsən, qarşıdakı yaz bayramından, gələn Novruzdan danışırdılar. At ayağının tappıltıları lap yaxında eşidiləndə hər ikisi işindən ayrılıb, döndü, baxdı, Gələn Salman ağanın oğluydu. Lap o təzəcə çıxan mahnılardakı kimi, altında boz at, çiynində tüfəng, əlində tatarı, altında boz at, əlində tüfəng,belində qatarı... Qəribə, gözəl, minici heykəli kimi, atın başını çəkib, yanlarında dayananda, qız başını aşağı saldı. Amma ananın ürəyi qopmacaya düşdü. Bir xeyli vaxt idi ki, ağa oğlunun onun qızına göz qoymasından dalağı sancmışdı. Hiss eləyirdi ki, ağa oğlu onun bircəsinə, onun nazikinə, incəsinə göz dikib. Qorxuluydu bu. Elə indi bu qorxu onui bütün vücudunu elə sardı ki, bütün hüceyrələrini elə üşütdü ki, bayaqdan paltar yuduqca, canının, geyiminin islandığını duymayan, bundan sərinlikdən başqa heç bir şey hiss etməyən qadın, indi əsim-

əsim əsdi. Elə bil əyin-başı buza döndü. Günün, o qızmar Günəşbn altında bədənindəki bu gizilti, bu soyuq üşərti onu taqətdən saldı. Diz üstə çay daşlarının üstünə düşdü... Oğlan atdan düşmədi. Qamçısının ucuyla qızın yaş bədəninə yapışmış köynəyin büküşlərini tərpətdi. Qızın köksündə xırdaca-xırdaca çıxıntılar bəlirdi. Oğlan gülümsədi. İnci kimi cərgə dişləri göründü. Lap zərif qız dişi kimi incəydi. Mavi məxmər çuxasının yaxası dar gəldi ona, bu qabarıq sinə nəfəsini daraltdı. Amma yenə də atdan düşmədi. Eləcə dayanıb baxdı. Ananı görmürdü elə bil. Amma bu ondörd-onbeş yaşlı qızın bütün vücudu ona «gəl, gəl» deyirdi. «Al, al — deyirdi — al məni, sev məni götür məni, tərkinə al! Apar böyük dünyamızın o başına. Eşqin, məhəbbətin nə olduğunu dad»...

Dadmamışdı bu cavan hələ, məhəbbətin dadını bilmirdi, Ağa oğlu olsa da, qaravaşa, qulluqçuya, kənizə baş çevirən, nəzər salan deyildi. Amma bu qız... Amma bu qız onun amanını kəsmişdi, bir neçə vaxtıydı. Qızın qara kipriklərn enmiş, al yanaqlarına kölkə salmışdı. Dodaqları titrəyir, ara- sıra da ağa oğlu kimi narın-narın gülümsəyir və o gülümsəyən zaman inci düzümlü dişlər hər biri bir bahalı mirvari olub oğlanın boynundan asılır, qəlbinə axırdı, tökülürdü. Oğlana «bizləri həşləyən o al dodaqlardan öp!» deyirdi. Oğlan hələ qız üzündən öpməmişdi, qız dodaqlarından öpməmişdi. Amma indi... Amma indi yanırdı... Amma indi özü bilmədən, duymadan, bədənini bürüyən bu ehtiras, ürəyini dolduran bu arzu hardan doğurdu, nə idi, nədən yaranırdı?.. Bilmədən, dərinliklərinə sualla varmadan arzulayırdı, istəyirdi. Oğlan bu hisslər selinin qabağında duruş gətirə, davam eləyə bilmirdi. Qızın anasının, qaravaş da olsa, burada olduğunu unutmuşdu.

Birdən atın döşü tərəfindən kiminsə, hansısa yaş əllər qalxdı. Yüyəndən yapışdı. İlan çıxardıb yalvarmağa, yovuncamağa başladı:

— Ağa, başına dolanım, ağa, başına dolanım, ağa başına dolanım ağa!..

Deyəsən danışmağa, deməyə başqa söz tapmırdı. Axı nə deyəydi? Oğlan onun qızına əl vurmamışdı, oğlan onun qızını tərkinə alıb gen dünyamızdakı uzaqlara, uzaq-uzaq ölkələrə aparmamışdı. Oğlan heç əyilib qızın nəm, Günəş altında ŞƏVƏ kimi par-par parıldayan saçlarına da toxunmamışdı. Oğlan heç o xırdaca qız köküslərinə də əlini uzatmamışdı. Nə deməliydi ona? Nə deməliydi ağa balasına? Ağadı, yoldan keçir, onları görüb dayanıb? Qara vaşdı, kənizdi, qulluqçu qızıdı, xanım ha deyil?! Nəyinə yaraşırdı ağa belasıynan söhbət? Axı nə deyəydi ana?

— Ağa, qurbanın olum. Sadağa gəlim sənə, ağa! Ağa yalvarıram sənə...

Amma neyçün yalvarırdı? Deyə bilmirdi! Səbəb yox idi. Gözlə görünən... hələ heç bir səbəb yox idi. Səbəb, olmasa da, and verir, qurban-sadağa gedirdi,

— Səni and verirəm ağam Əbülfəzlül-Abbasın qələm olan qollarına. Səni and verirəm yetmiş iki şühədanın tökülən qanına! Səni and verirəm atanın ananın əziz canlarına.

Niyə and verirdi? Genə də məlum deyildi. Axı oğlan o yaqut dodaqlara toxunmamışdı. Oğlan yumru, xırdaca zənəxdanlı çənəyə əl vurmamışdı, durna boğazından öpməmişdi. Neynəmişdi axı? Durmuşdu, baxmışdı. Bircə dəfə qamçının ucuyla qızın köynəyinin üstündən harasa, nəyəsə, zarafat eləmişdi, toxunmuşdu. Qamçının ucuyla. Oğlan bir qədər... Bir qədər də baxdı. İndi artıq ana yalvarışları onu xəyaldan,

gözəllik seyrindən ayırdı. İçərisində kiməsə, nə isə etiraz etmək, nəyəsə lənət oxumaq istədi. Bayaq o zərif nəyə toxunan qamçını atın sağrısına endirdi və at əvvəlcə şahə qalxdı. Qadın diksinib gerilədi, gerilədi, müvazinətini saxlaya bilməyib yerə yıxıldı.

Oğlan şahə qalxmış atı döndərdi və dördamə çapıb uzaqlaşdı. Hara getdi? Bilmirik. Amma biləcəyik.

Anayla qız paltarları necə yuyub qurutdular, nə vaxt yığışdılar, evə necə döndülər? Bilmirik. Amma biləcəyik. Ana yol boyu bircə balasına bir söz dedimi, demədimi? Nələr dedi? Bilmirik. Amma biləcəyik. Darıxmaq lazım deyil. Axı biz hadisələrin, axı biz hekayətimizin ilk addımlarında, başlanğıcındayıq.

Bəs Hacı Salman ağa kim idi? Cavad qəzasının ən tanınmış, ən məşhur şəxslərindəndi. Allah dövləti onun təpəsindən leysan kimi, dolu kimi tökiüşdü. Sürülərlə qoyunu, dənizdə balıq tutan gəmiləri, kallahda dəvələri, ilxıda atları, naxırda inəkləri, camışları. Bir sözlə Allah ona dünyada hər nə varsa vermişdi. Bir evladdan başqa. Allah ona var-yox bircə oğul vermişdi. Qız evladını evlad hesab eleməyənlər dünyasında, bu bircə oğul onun yeganə sevinciydi, fərəhiydi. Salman ağa, boynuna həcc gəlsə də, səhhətinə görə, hələ ki Məkkə zəyarətinə gedə bilmirdi. Arvadı Şahnisə xanım elatda xanımlar xanımı sayılırdı. Gözəldi, yaşına görə xeyli cavan görünürdü. Ərinin fərəhinə, sevincinə, olmayan dərdinə şərik arvaddı. Eyni zamanda Salman ağanın dövlətinin artmasında Şahnisə xanımın çox böyük əməyi, zəhməti vardı. Həm çalışqanlığı, həm təsərrüfatçılığı, həm də yığıcılığıyla. Xüsusən gətirdiyi cehizlə: Atasından sonra ona qalan irslə. Zəmanənin qəribə dövrünə yaşayırdı. Daha doğrusu. qəribə zəmanədə yaşayırdılar. Bu

zəmanədə arvad sözü o qədər də ötən, həlledici olmurdu. Amma Şahnisə xanımın sözü Salman ağanın yanında ötgün idi. Ötkəm arvaddı özü də. Bircə oğulları, bircə balaları hər ikisinin ümidi, gələcək varisləriydi. İnsafən, oğlan da yaxşı oğlandı. Balacalığından həm at minən, həm tüfəng bacaran, ovda ovçuların önündə, çapışmada yarışanların qabağında, rəqs edənlərin ortasında, mollaxanada ən yaxşı şagirdlərdəndi. Adını həm islamca ağır hesab olan Səfər ayında doğulduğundan, həm də bu adın Salman ağanın dədəsinin adı olduğundan Səfər qoymuşdular. Səfər ağa. Körpəliyindən hamı ona Səfərağa deyirdi. Gözəl idi. Surətdə Salman ağa demişkən anası Şahnisə xanıma çəkiişdi. İgiddi «Xas igid dayısına oxşar» demişlər. İgidlikdə də anasının böyük qardaşına bənzəmişdi. O böyük dayısına ki, vaxtında qan davasının qurbanı olmuşdu. Hərdən-hərdən Şahnisə xanım matdım-matdım oğluna baxar, dərindən ah çəkər, gözləri dolar, deyərdi: «İrağ-irağ elə bil bədbəxtin özüdü durub. Allah saxlamışım. Torpağı sanı yaşayasan bala!» sözlərini ürəyindən keçirirdi.

Böyük təsərrüfat böyük qayğı və çoxlu xidmətçi |istər. Qul, qaravaş, nökər-nayıb, qulluqçu-günəmuzd, Salman ağanın həyətində qaynaşırdı. Çobanlar, naxırçılar, dəvəçilər, balıqçılar, ilxıçılar. Aləmdi... Bunların hamısını idarə eləyənlər var idi. Şahnisə xanıma evdə bir neçə kəniz, qaravaş xidmət edirdi. O cümlədən bir az əvvəl çay qırağında gördüyümüz Gülsənəm... Gülsənəm qonşu Arbatan kəndindəndi. Əri öləndən sonra qucağındakı körpə qız uşağıynan birlikdə Salman ağa onu kattalarına gətirtdirmişdi. Katdalar arayıb, axtarıb çarəsiz, ərindən sonra ərə getməyən, dul qadınları, iş-güc bacaran, ehtiyacı olan ları arvadları tapırdılar, buraya işə gətirirdilər. Özü gələnlər də olurdu. Gülsənəmin də var-yoxu, gözünün ağı-

qarası birca qızıydı. Bircə qızdı Reyhan, Reyhan! Reyhan kimi ətirli, reyhan kimi göz oxşayan, reyhan kimi otların, çiçəklərin gözəli. Gülsənəm dul idi dedik. İlki qucağında heç qırxı çıxmamış, cavan, cəsur ərini itirmişdi. İtirmişdi deyəndə ki, kişi dənizdə tufana düşmüşdü. O məşum gecə Xəzərə balıqçıların bir neçə qayığı batmışdı. O qayıqların da birində Gülsənəmin əri Baxtıkəm batmışdı. Baxtıkəm. Əslində Bəxtiyar idi adı. Amma indi heç kəs ona Bəxtiyar demirdi. Baxtıkəm deyirdi hamı. Öləndən sonra Bəxtiyardan Baxtıkəmə çevrilmişdi. Gülsənəm öz Bəxtiyarından sonra gəlin bəxtiyarlığını itirmiş, bütün həyatını qızına, sevgili ərinin bircə yadigarına həsr etməyi qərara almışdı. Heç olmasa o görmədiyini qızı görsün düşünmüşdü. O çəkənləri qızı çəkiəsin. Ərinin qırxı çıxan kimi «el ağzı, çuval ağzı» açılmış, istəyənlərin, qapının dabanını çıxardanların hamısı rədd cavabı almışdı. Cavan gəlinin, qucağı bir körpəli qadının bu «yox» cavabı zəmanəsinə görə qeyri-adiydi. Neynən dolanacaq, necə yaşayacaq, gecənin birində evinə «baş çəkiək» istəyən bir harının, bir qanmazın qabağını necə alacaqdı? Düşünmüşdülər. Bax elə bu kimi səbəblərə görə də gəlib çıxmışdılar Salman ağanın evinə. Elə gətirmişdi ki, Salman ağanın evində Gülsənəmnn bircəsi, balaca Reyhan Şahnisə xanımın sevimli «pişik balası» kimi böyümüşdü, evin pişik balası kimi. Xanımın oyuncağı kimi. Çox vaxt südünü də, çox vaxt başqa yeməklərini də Şahnisə xanım özü əylənə-əylənə verərdi. Uşağı anasına yaxın qoymazdı, deyərdi:

— Aaaz sən get öz işinə, işüvü-gücüvü gör. Nöyşün var bu küçüknən? Qoysanam bu at belində getmiş qalıb bizdə.

Ürəyi əssə də, balasından ayrı dözmək mümkün olmasa da, Reyhandan ayrı dura bilməsə də Gülsənəm məcbur idi. Xanımın sözündən çıxa bilməzdi. Özü qulluqçuların arasında haradasa,

imarətdən xanımın otaqlarından aralı yatıb-dururdu. Ona qulluqçulardan bəxtəvərlik verən də vardı: «Sağ əli Reyhanın mənim yetimçələrimmn başına» deyən də vardı. «Bəxtəvər xanımın yediyindən yeyir, geydiyindən geyir, qucağında yatır Şahnisə xanımın. Böyüyəcək, səni də bəyənməyəcək, bizi də»... «Hə, elədi. Xanım ondan doyub yanbızına bir təpik vurub, nökər-nayıb içinə qovandadı tamaşa»... Gülsənəm bu sözləri cavabsız qoyurdu. Amma ürəyi orada qalırdı. Orada qalırdı... Orada... O görünon binada. İş-güc başından aşsa da, bilirdi ki, yeməyi də var, bilirdi ki, büzüşüb Şahnisə xanımın dizləri dibində başını xanımın doqquz dənə üstdən-üst geydiyi gen tumanın bir balağına söykəyib yatıb. Şirin-şirin, mışıl-mışıl yatıb. Amma genə də canı orada qalırdı. Tzkçə gecələr... Reyhanı götürüb aparar, qucaqlar, cavan gəlin məməsinin üstünə basar, Bəxtiyarın, talesiz Baxtıkəmiin iyini, ətrini ondan alardı. Nə qədər ağır idi bu. Çox ağır idi. Gülsənəm Baxtıkəmin dərdini, ancaq Reyhanın gözlərini görəndə, şəvə saçlı başını sinəsinə sıxanda unudurdu. Yox!!! Unutmurdu. Onda da unutmurdu. Amma təsəlli tapırdı. Bnr azacıq təskinlik tapırdı ki, heç olmasa bircə yadigar qalıb onu qarsalayan o sevgidən.

Salman ağa oğlu Səfərin bütün arzularını yerinə yetirirdi. Onun heyvanatda at qisminə olan maraq və həvəsini bilirdi. Odur ki, Qarabağdan sorağını aldığı məşhur «xanlıq» atlardan birini oğlu üçün almaq istədi. Amma Salman ağaya dedilər ki, «Xanlıq atları» satılmır, onları ancaq qohum-əqrabaya, xanların qohumlarına, yaxud məşhur şəxslərə hədiyyə verirlər. Ona görə də Salman ağa çox böyük bir çətinliklə də olsa, Qarabağa gedib xan evladlarına qonaq oldu. Neynədi, neynəmədi, bilmirik, amma oradan «Göyərçin» adlı boz, mavi, qara xallı gözəl bir atla qayıtdı. İki göz də gərək satın alaydın bu ata tamaşa

eləməyə. Oğlan atın həvəsinə o qədər çalışırdı ki! Özü yedirir, özü çimdirir, özü qaşovlayır, özü tumarlayır, başlıcası üstünə bir an da olsa heç kimin MINMƏSINƏ razı olmayır, suya da özü aparır, özü sürürdü... Nökərlərə etibar eləmirdi. Cibinə tökdüyü kişmişdən, bəzən ləbləbiynən... Ata az qala gözünün yağını yedizdirirdi. O zaman cavan oğlanlar dəbdə olan əl, yaşıl, abı məxmərdən çuxalar geyərdilər. İllah da dövlətli balaları, çuxaların dövrəsinə, kənarlarına, ətəyinə, qolağzına, yaxasına, belinə bafta tikdirərdilər. Cavanlar at üstündə par-par yanardılar. Amma boz, qara xallı «Göyərçin» gələndən sonra Səfər, özünə boz mahuddan çuxa tikdirdi. Çuxanın ətəyini, yaxasını, qollarının qolçaqlarını gümüşü baftayla bəzətirdi. Boz gümüşü Buxara dərisindən papaq tikdirdi. Atın yəhər-yüyəninə bas deyincə gümüş nəsb elətdirdi. Bu libasda, bu yəhər-əsbabla atı minib uzaqdan görünəndə elə bil gümüş heykəl gəlirdi. Günəş altında gümüş kimi parıldayan heykəl. Günəş altında gümüş yanırdı, minbir rəng çalırdı, göz qamaşdırırdı... Amma ürək oxşayırdı, eynş zamanda, qəlb yandırıb yaxırdı. Bu ərimiş gümüşdən tökülmüş boz heykəl Cavad mahalının gah bu, gah başqa yerində görünür, görənləri sevindirir, qəlbləri fərəhləndirirdi. Salman ağanın, Şahnisə ananın ona baxmaqdan doymaq bilməyən ürəkləri əsirdi. «Allah əsirgəsin, yaman gözlərə şiş batsın, bəd nəzərdən uzaq olsun» deyə üzərlik üzərlik dalıycan yandırırdı. Səfər boz atdan enəndə təkcə «Göyərçin» ağasının — Səfərin deyil, «Göyərçinnn» özünün də başına üzərlik dolandırırdılar. Qurban sadağa gedirdilər. Nəzər duası yazdırıb boynundan asırdılar. Bununla da ürəkləri soyumurdu. Gümüş işləməli yəhərin tapqıqına da Mirmahmud ağaya dua yazdırıb bağlamışdılar. Bir sözlə Səfər də, «Göyərçin» də dildən düşmürdü, ağızlarda nağıla dönmüşdü,

göz qabağından getmirdi. Çox cavan ürəkləri titrədirdi. Qızların ürəyi əsirdi. Tanınmış ailələrin qızları bəlkə də, pərdə dalından, pencərə qapısı arasından Səfəri izləyir, bir zaman həmin bu gümüşdən tögülmüş heykələ bənzəyən atlının atına minib, gəlin gedəcəyini gözləyirdi. Bu indi beləydi. Amma o zaman, o zaman Səfər hələ uşaqdı. Amma uşaq da olsa kişi sayılırdı. Necə deyərlər «tərəkəmənin uşağı əli tupruğ tutan gündən kişidi». Səfəri də elə kişi kimi böyüdürdülər. Gələcək ağa, mülk-madar sahibi kimi.

Onu bir az mollaxanada oxutmuşdular. Bir az tüfəng təlimi almışdı. Bütün bu tə'limlərdən bircə at — minici təlimi ürəyinə yatırdı. Balacalığından at belində böyüyürdü. Şahnisə xanımın əvvəllər həyəcanı, narahatlığı sonralar, Səfərin, at belində gəlişini, gedişini görəndən sonra azaldı. Oğlanın günləri cıdırda, dostları ilə çapış yarışlarında, ovda keçirdi. Amma hər halda hərdən hərdan evdə, ana dizinin dibində oturduğu dəqiqələr, nağıllı. tapmacalı saatlar da olurdu. Belə saatlardan biri də, hə... Elə məsələ burdan başlayır. Şahnisə xanımın ilk gündən «pişik balası» adlandırdığı Reyhan, Şahnisənin qayğılarıyla, yaxşı yemək-içməklə tazlik lə koppuş bir qıza çevrildi. Ağ maya, balaca gündə, pişik balasının oynatdığı ağ iplik yumağı... Nökər-nayıb da qulluqçular da Şahnisə xanımın diliylə ona «pişik balası» deyirdilər. Reyhan adı unudulmuşdu. Bircə Gülsənəm gəlinin ürəyində Baxtıkəmii diliylə qız, Reyhan çağrılırdı. Yalnız ana Gülsənəmnn ürəyində. Qulluqçu ürəyini eşidən kimdi? Kim eşidib ana ürəyini? Ana ürəyindən keçənləri, arzuları, alxışları kim eşidib? Harda eşidib? Ananın bütün ümidləri balanın boya-başa çatmasına bağlıdır. Ana deyir bunu:

**Başına mən dolanım,**

**Mən dönüm, mən dolanım**
**Böyü, boya-başa çat,**
**Kölgəndə mən dolanım.**

Əlbəttə, Gülsənəm yaxşı bilirdi ki, qız uşağının nə kölgəsi olacaq? Oğlan deyildi ki... Qız uşağının kölgəsində dolana bilməyəcək Gülsənəm. Düşmən çəpəri deyildi qız, baş qaxıncı, dərd-sər ocağı, duz yüküydü. Amma yenə də buna baxmayaraq, yenə də bu kölgənin böyüyüb boya-başa çatması, bəlkə də Allah gətirdi, xoşbəxt olması ümidiylə yaşayırdı ana. Ürəyinin bütün arzuları bununla bağlıydı. Qıza «pişik balası» deyənləri içində qınayırdı da: «Gül kimi adı var, amma»... daha «ammadan» o yana gedə bilmirdi. Heç kəsə də etiraz edə bilmirdi. Çünki bu adı, bu ləqəbi Şahnisə xanım özü taxmışdı qıza. Gülsənəm qulluqçulardan bircəsinə etiraz etsəydi, qorxurdu ki, xanıma çatdırarlar. «Anası xanımın xoşu gəlmir pişik balası deməyimizdən» deyərdilər. Xanım da hirslənər, həm uşaqı gözdən salar, həm də ananın öz günü qaralardı.

Qulluqçular qızın koppuş yanaqlarından öpür, arada xəlvətə salıb çimdikləyirdilər. Qız cikkə çəkirdi. Reyhanın səsini eşidən Şahnisə xanım otağın qapısına çıxırdı:

— Aaaaz, o pişik balası niyə miyoldayır?

— Nə bilim, ay xnım?! Pişik dili bilmirəm axı...

— Nəbilər sanə qənim olsun, necə yanı nə bilim? Uşaq durduğu yerdə ağlamaz ki?

Şahnisə xanımın istəkli qulluqçusu pıqqıldayırdı:

— Baaaşuva dönüm, dərdin mənnm bu sağ gözümə gəlsin, xanım, pişik balası uşaq nöş oldu? Özün soruşursan nöşun miyolduyur, mən də deyirəm ki, pişik dili bilmirəm dayna...

Şahnisə xanım da gülürdü, amma yenə də qızı yanında

gətizdirib əlinə şirindən-zaddan bir şey verir, çimdikdən qızaarmış yanağını sığallayıb ovundururdu.

Baaax, elə bu zamandan Səfər, bir də gözünü açıb gördü ki, anası bşr «pişik balası»ynan oynayır... Və özünün də bu qızla, bu koppuş, güləş qızla oynamaq həvəsi artdı. Oynamaq həvəsi oyandığını duydu özündə Səfər at minməkdan, tüfəng məşqi keçirməkdən yorulub evə dönəndə, kişi əyləncələrindən qayıdanda «pişik balası»yla oynamağa başladı. Əvvəllər Şahnisə xanım bu əyləncəyə heç fikir vermirdi. Oğlunun öz gözü qabağında daha çox olmağına həvəsiyir, sevinirdi də. Lakin aylar, illər keçdikcə «pişik balası» Reyhan, Baxtıkəmin bircə yadigarı Reyhan, Gülsənəmin bütün ümidlərinin əvvəli və axırı Reyhan böyüdükcə, səkkiz-doqquz yaşına çata-çatmaya artıq yetişmiş qız həddinə can atan, Günəşə ucalan sərv kimi boy atmağa başladıqca Şahnisə xanımın daxilində hansısa, hələ ad verə bilmədiyi bir hiss baş qaldırdı. Qızdan cəmi üçdörd yaş böyük olmasına baxmayaraq, Səfər özü də boya verdikcə, onların ikisini bir yerdə görən Şahnisə xanımın içində nəysə çevrilirdi. Odur ki, günlərin birində Şahnisə xanım Reyhanı birdəfəlik anası yaşayan qulluqçular otağına göndərdi, taxtdan saldı! Artıq Şahnisə xanımın pişiyi yox, Gülsənəm ananın Reyhanıydı.

Səfər mə’nasını dərindən dərk etməsə də, bu hissin nə olduğunu anlamasa da, qız üçün darıxırdı.

Hərdən-hərdən dal həyətdə qıza rast gələndə ona sataşırdı:

— Ay pişik balası, niyə day gəlmirsən xanımuvun yanına?

Qız qıp-qırmızı kəsilirdi. Başını aşağı dikib başındakı yaylığın ucunu didişdirə-didişdirə mızıldanırdı:

— Anam qoymur...

— Neyşə? Neynəmişik anova?

— Heç bir şey.

— A..aa..a .. Onda gəl də.

—Xanım da razı olmur.

— Mənim anam?

Sual cavabsız qalırdı. Əlbəttə Reyhan Şahnisə xanımın dalınca danışa bilməzdi. Susurdu... Və... Dərhal da qaçırdı. Nökərlərin, qulluqçuların olduğu otağa qaçırdı. Ürəyi çırpına-çırpına. Quş kimi... Quş kimi... Sərçə balası kimi çırpınırdı. Yadına gəlirdi ki, balaca olanda, qışda, Səfər qarın üstündə cələ qurardı. Ac sərçələr Səfərnn cələ qabağına tökdüyü dənə cumardılar, Səfər onlardan, cələyə düşən sərçələrdən birini tutub Reyhana verərdi:

— Aaaaz, pişik sərçə yeyər dənə... hazır tutub gətirmişəm səninçün. Ala, ye... Ye! Ye!..

Burnuna tərəf dürtərdi. Reyhan Sərçəni əlinə alırdı. Ürəyinin necə çırpındığını görürdü. Görmüşdü o balaca ürəyin necə çırpındığını, hiss eləmişdi. İndi özünün ürəyi də cələyə düşmüş o sərçənin ürəkciyi kimi çırpınırdı. Bu dəfə qulluqçulardan biri içəri girdi:

— Aaaaz, na soxulmusan küncə? Çıxıb işüvü görsənəm.

— İndi gəlirəm.

— Y.o.x... Niyə pörtmüsən? Üstünə qaynar su atıblar? Qovublar?

— Yoox...

— Azar ox! Çıx iş-gücüvü gör. Genə pişik balası döyülsən ki, kim isə səni nazlandıra? Elə bilirdin elə belə, keçəcək? Elə bilirdin yuxa arasında halva var? Həmişə günün toy-bayramda, xanımın balağı dibində, artığıynan yağ içində böyrək olacaqsan?

Başqa bir qulluqçu söhbətə müdaxilə edirdi:

— Bəsdi! Nə istəynrsən qızdan? O neynəsin ki, xanım...

— Çor xanım, dərd xanım! Sən nə mına tərəf tutursan? Ataın, qızı, bacundııı?

— Allahın fağır bəndəsidi.

— Allah da qənim olsun ona, bəndə də.

— Niyə qarğıyırsan a dili yanmış?

— Dilin də yansın, canın da.

— Anası elə üç adamcan işləyir. Bəsdi də. Onun əvəzinə də işləyir, öz əvəzinə də. Qızı gözümçıxdıya salma!

— Bəs onda bu gərək bizim üstümüzdə xanım ola? İşləməyə? İş-güc görməyə? Qoy indidən yaxşı-yaxşı bilsin ki, o xanımın heç ayağının tozu da deyil ki, xanımlıq iddiasına düşə. O xanım deyil! İndi heç pişik balası da deynl. Qulluqçudu. Qulluqçu qızıdı!

— Mən onu bilirəm.

Deyə Reyhan qapı arasından baxıb, Səfərin artıq həyətdə olmadığını gördükdə otaqdan bayıra qaçdı. Həmişə belə mübahisələrdən, bu təhqirlərdən uzaqlaşır, gedir, anasının böyrünə cumur, tapşırıqlardan yerinə yetirməyə çalışırdı. Üzülmürdü, gücləndikcə, öyrəşdikcə, alışdıqca, anasının ağır işlərini öz üzərinə götürür, Gülsənəmin zəhmətini yüngülləşdirməyə can atırdı. Amma əlbəttə Gülsənəm də qızını qoruyurdu. Ən ağır işlərdə onun indidən üzülməsinn, sınmasını istəmirdi.

— Ay bədbaxt bala, ay bədbaxtın balası bala, hələ bir ömrün qabaqdadı. Kimə irast olacaqsan? Kimə? Kimə gedəçəksən? Kimə verəcəklər səni? Nə iş gördürəcəklər? Ömrün necə keçəcək, bala? Bilinmir ki! İndidən yük altına girmə bu qədər...

Nökər və qulluqçuların pisi də vardı, yaxşısı da. Yaxşının biri yaxşılara, üzüyolalara ürək-dirək verirdi. Anaya da, balaya da. Yetim qızın, Baxtıkəmin yetim balasının körpəlikdən, çox da ağır işə cəlb olunmasına razı olmurdular. Qoruyurdular. Amma kənizlərin içində eləsi də vardı ki, qıza göz verirdi, işıq vermirdi. Elə anaya da:

— Aaaaz, bu xanızadanı genə nə qorğalayırsan?

— Şahzadaya ərə verəcək. Ona görə. İstəmir ki, əlləri indidən eybəcərləşsin. Vallah o əllərin də bizimki kimi islahatı qalmayacaq iş-küc əlindən.

— Bizimki kimi bir az bərkiyəndən sonra...

— İnsafınız olsun. Onun əlləri hələ uşaq əlidi...

— Sən Allah bəsdi... Özüvüzdən hoqqa çıxartmayın. Nə uşaq əli, nə böyük əli?.. var: iş görən əl, görməyən əl...

— Bir də can yandıran görür-eləyir, can yandırmayan görmür-eləmir...

— Xanımın pişik balasıynan işüvüz olmasın. Ağlayar, gözünün sürməsi gedər.

— Ha... ha... ha-.

— Sürməyə bax! Reyhan gözünə bax! Pişik balasının xanımlığı getdi. Taxtdan düşdü. Oldu bizim birimiz. Anası indi güldü, sənəmdi, qızı Reyhan...

— Bəsdi. Bəsdürün! Ağzuvuza qadağa vernin. Başınızın üstündə Allah var. Dövrənizdə adamlar. Ayıbdı, günahdı axı...

— Kimdən ayıbdı, aaaz? Xanımın özünün ağlı başına gəldi. Başa düşdü ki, bu qız orda qalası döyül. Günün birində ağa balası təcrübə keçər...

— Bəsdürün dedim... Qızın... Uşağın yanında abırsız-abırsız danışmayın.

— Mən nə deyirəm ki?.. Nə abırsız söz dedim? Dedim ki, ağanın oğlu...

— Dedim sənə bəsdi!

— Aaaz, nə bəsdi-bəsdi salmısan? Sən də bizimçün xanım olmusan? Başımızın ağasısan? Nə dedim mən o köpək qızına? Atasın söymədim, anasın söymədim. Neynədim mən o canı yanmışa? Deymədim, qarğımadım. Mən o ciyəri çıxmışa öl demədim, it demədim, alışıb yanasan demədim. Mən o qarabaxtın, kəmbaxtın balasına, balaon qabağıva döşənsin demədim, qapılardan qovulasan, əl açasan demədim... Nə dedim...

— Usan axı... sicilləmə sözləri düzmə bir-birinin dalıycan, mıncıq düzən kimi. Nə istəyirsən camaatdan?

— Qızlar! Düz deyir, bəsdi, dağılışın işinizə. İndi xanım xəbər tutar ki, yeyib-içəndən soora bir saat da naqqallıq eləyirsiz, deyər yalları artıq düşüb, qudurublar.

— Hə, vallah düz deyirsən.

Belə hallarda ən əvvəl durub bayıra cuman, işinə gücünə girişən Gülsənəm olurdu. Elə Reyhan da ondan geri qalmırdı. Beləcə böyüyürdü. Hərdən-hərdən həyət-bacada bir iş tutanda, xanım görəndə:

— Necəsən, pişik balası? — deyəndə başını aşağı salıb dillənə bilmirdi.

Xanım əlini ona tərəf uzadanda, tez bu əli tutub öpür və qaçırdı, hərdən-hərdən əlində bir şey, xanımın otağına göndəriləndə bundan betər olurdu. Qız bu otaqda elə günlər keçirmişdi ki! Onun ürəyində elə arzular doğmuşdu ki! Elə bilmişdi ki, dövran belə keçəcək. Xanım özü onu böyüdəcək. Amma... Amması yoxdu ki,.. Sonralar düşmüşdü ki, o xanım üçün, xanımın sevimli balası üçün oyuncaqdan, elə ad

qoyduqları kimi pişik balasından başqa bir şey deyilmiş. Bir şey deyilmiş. O zaman uşaqlıq illərində xanımın yanında böyüyəndə çox şey öyrənmişdi. Xanımın kitabları var idi. Hərdən-hərdən keyfi xüsusilə duru olanda, xanım ona qara tanıtmışdı. Xanım onun həvəsini görüb bəzi-bəzi sözlərin necə yazılmağı, necə oxunmağını öyrətmişdi ona. Qara tanıyırdı qız. Təkdən bir yazmaq da bilirdi Reyhan. Amma nə olsun ki? Onun yazıpozu bilməsi də, qara tanıyıb oxuması da, bəzən qulluqçu və nökərlərdən birinin, əlində kağız gəlib: «ay bala, ay İreyhan, gör bura nə yazıb göndəriblər, baaşuva dönüm?» deyə müraciət eləməsi də... Bütün bunlar hamısı, xanımın köhnə-küləsindən geyim-kecimi, ən vecsiz paltarın belə ona yaraşması, söz deyəndə yanaqlarının dağ laləsi kimi qızarması hər şey. Hər şey... bəzi kənizlərin paxıllığına səbəb olurdu. İş-gücə əvvəllər əlinin yatmamasını «xanımlıq öyrəşib» deyə ələ salanların dillərinin əzbəriydi. Alışandan sonra da ona öcəşir, sanki keçən xoş günlərinin acığını çıxırdılar ondan. Xüsusilə Çəmən adlı birisi vardı. Qıza göz verib işıq vermir, gününü qara eləyirdi, hər saatda. Elə ki, qulluqçular bir yerə yığıldı, başlayırdı:

— Hə... Nə var genə özünə belə sığal vermisən?

Reyhan da ixtiyarsız əlini alnına atıb qıvrım cığalarını şalının altına çəkəndə Çəmən hırıldayırdı:

— Hə... Hə... Telləndir cığalaruvu! Bu gün sabah... Daha az qalıb Ağa Səfər...

— Ay qız bəsdi axı...

— Hə nə bəsdi? Bu gün sabah ağa Səfər... Bir az «oğlanlar bulağından» su içəndən soora nələr olacaq? Bilmirsiz deyim: Xan öpəcək, xanım olacaq pişik balası... Hi. hi, hi... Pişik balası xanım olacaq...

— Ay qız... Çəmən...

— Nə ay qız, ay arvad!? Yalan deyirəm? Salman ağa cavanlığında azuvuzu üçgünlük xanım eləyib, Şahnisə xanım xəbər tutanacan? Az görmüşük? Az eşitmişik, belələrini, bir az qoqalası babat olanı? Ağaların...

— Bəsdi... usan. yorul axı!

— Genə deyir bəsdi... Neynək, mısmırığızı sallamayın. Məni də heç yerə danlamayın. Qarnı dombalanda deyərəm sizə...

— Aaaaz hayıfdı, qızın üzün açma!

— Mən nöş açıram? Açan açacaq.

Həmişə də etiraz eləyən Balaxanım, kənizlərin ən yaşlısıydı. O olardı. Çəmən Balaxanım arvada o qədər də söz qaytara bilməsə də, Balaxanımdan çəkinsə də yenə özünü o yerə qoymurdu:

— Yalan deyirəm? Görərsiz. Amma qarına gələndə... Hi... hi... hi... Elə şeylər mənim əlimdən gəlməz. Ağa Səfər bacarar.

— Ay urvatsız, ayıbdı. Ayıbdı deyirəm sənə... Dilüvə qadağa ver!..

— Buuuuy... Nə dedik xanımların damağına dəydi, keyfin pozdu? Çör demədik, çor demədik. Soğan yeməmisiz, içiviz niyə göynəyir? Hə? Göydən Göy İmam gələ ha, ağa Səfər belə malı ötürməz dedik dənə... Day nə dedik xanımlara? Dərd demədik, ölüm demədik, kefinə soğan doğramadıq... Açsın gözün, açsın qulağın, sərvaxt olsun analı-balalı hər ikisi dedik dənə...

Çəmən, dili uzun olsa da, elə bil qızın talehini yuxuda görmüşdü. Elə bil Reyhanın başına gələnlər qabaqcadan ayan olmuşdu arvada. Elə bil falçıydı Çəmən. Fala baxmışdı. Neynəmişdi? Nə hadisələr baş vermişdi? Reyhana nə olmuşdu?

Səfər ağa nə iş tutmuşdu? Tələsmə, əziz oxucum, tələsmə! Biləcəyik vaxtında.

* * *

«Göyərçin» adlandırdıqları qara xallı boz at gələndən sonra Səfər ağa hər şeyi unutmuşdu. Yaşı onaltını adlamışdı. Buğ yerləri təzəcə tərləmişdi. Gözəlliyinə gözəllik qatmışdı dünya elə bil. At minəndən sonra necə deyərlər, qız da, qızıl da yadından çıxmışdı. Heç nə görmürdü. Hardan yerləşmişdi ağlına heç özü də bilmirdi. Amma atın rənginə uyğun əşyalar: yəhər, yügən, üzəngi, özü üçün də xüsusi geyim sifariş eləməyə başladı. Yəhəri bir çox yerdən gümüş və kaşı ilə bəzətdirdi. Üzəngləri qıraqdan baxanda ildırım kimi şox verirdi. Par-par yanırdı. Atın yüyənində, yəhərin qaşında qancığasında yer-yer gümüş parçaları, gümüş bəzəkləri min rəng çalırdı. Oğlan özünə də gümüşü mahuddan çuxa sifariş vermişdi. Çuxanın qollarının ağzını, yaxasını, ətəyini gümüş rəngli baftaynan bəzətdirmişdi. Boz rəngli Buxara papaq qoyurdu. Oğlan bu geyimdə ata minəndə elə bil gümüşdən yaranmış heykəldi durub. Təzə həvəsnən minib çapırdı. Gəzintilərdən geri qayıtdığını görəndə nökərlər tamaşaya dururdu. Qulluqçular, kənizlər tamaşaya dururdu. Qəribəydi. Oğlan səhər çayını içirdi. Yerindən duran kimi qapıda kişnəyə-kişnəyə ləbləbi-kişmiş gözləyən, səkil ayağını torpağa çırpa-çırpa bala-bala kişnərtiylə sanki ağasını çağıran ata sıçrayır, bir də axşamüstü ac, lələvün qayıdırdı evə. Çox vaxt düzünə qalsa ac olmurdu. Haradasa gümüş bəzəkli aynalı tüfəngiylə Muğan düzündə gəşt eləyən ceyranlardan vurduğu ovu çöldəcə kabab eləyib yeyirdi. Çox yerlərdə keçirdi günü, hələ lazımınca cavanlıq həddinə çatmamış Səfər ağanın.

Qız da çıxmışdı yadından, qızıl da, qızdırma da. Bir az əvvəl təzə boy atan qızlara, cavan kənizlərə, qaravaşlara yol vermir, yeriməyə qoymurdu. Bulaq üstündən qayıdanda, su tələb eləyəndə bir içim su verməsələr, sənəklərini daşa basan oğlan «idi daha belə xırdaca oyunlardan əl çəkiişdi. İndi daha özünü kişiləşmiş bilən, özünü kişi hesab eləyən oğlançun bu oyunlar uşaq işiydi. İşi yoxuydu belə şeylərdə daha. Belə əyləncələrdə daha. İndi o, boz atdı, gümüş-bəzək aynalı ovçuydu. Özünü gah-gap Ovçu Pirim, gah Qaçaq Adıgözəl bilirdi. Özünü o zamanlar elin ən tanınmış, ən adlı-sanlı, sayılan adamlarından hesab eləyirdi. Gah ona elə gəlirdi ki, dağlardan enəndə dağ seli, düzlərdən enəndə sübhün dumanı, təpələrdə, şiş uclu qayalar başında çaxan ildırımdı. Qəribə dünyası var idi oğlanın. At gələndən sonra bir ayacan belə keçdi. Ancaq atı, geyimini düşündü. Amma o çaparaq keçəndə oğlanların, qızların tamaşaya durduğunu duyduqca, arxadan baxan yüzlərlə gözü hiss etdikcə, evə qayıdanda dayəsi, anası başı üstündə duz-üzərlik və atil-batil yandırıb tüstüsünü ona verdikcə ürəyində başqa bir hiss də canlanmağa başladı. Boylanırdı. Daha çox cavan qız-gəlinin onu seyr etməsi ürəyinn hərarətlə doldururdu. Sevinclə doldururdu. İstəyirdi ki, tamaşaçıların bu qismi daha çox olsun. İstəyirdi ki, onların ön cərgəsində Reyhan dayansın. Reyhan! O, hərdən bir xəyallarında arzu edirdi kl, Reyhanı quş kimi, qartal cücə qapan kimi caynaqlarına keçirib, atın tərkinə alsın. Dünyanı, gəzib gördüyü çəmləri, çəmənləri, dağları, dərələri göstərsin. Bulaq başında otursun onunla. Vurduğu ovlardan kabab çəksin onunçun. Kür bulaqlardan su içirsin ona, kabab yedirsin ona. Birlikdə yesinlər, içsinlər. Xəyallarında bircə o qız qalmışdı. O birilər hamısı kənara çəkilmişdi. Ancaq Reyhan! Ancaq Reyhanın gözlərini, yalnız Reyhanın

təbəssümünü, təkcə Reyhanın baxışlarını axtarırdı. O tamaşaçılar içndə ona bircə Reyhan gərəkdi. Bircə reyhan ətri burnundan əskik olmurdu. Bağça-bağa girənlə qızıl güllərdən də öncə reyhan ətri duyur, reyhanın o yaşıl, badımcanı qarışıq yarpaqlarını görürdü. Ən əvvəl reyhandan bircə, xırdaca budaq dərirdi. Bir qanad götürüb burnuna tərəf aparırdı: Qoxlayır, gözünün qabağında Reyhan qız canlanırdı. Ətrini ciyərlərinə çəkirdi. Elə bilirdi ki, Reyhanıı nəfəsidir. Reyhanın dodağlarıdı. Gözünün önündə Reyhanın dodaqlarına dəyən körpə, amma kişi, körpə — ancaq yetişməyə başlayan qız canlanırdı. Reyhan canlanırdı. O nə özünün, nə də Reyhanın gələcəyini düşünəcək halda deyildi. Evlənmək haqqında da düşünmürdü. Bilirdi ki, atası, anası onu Reyhanla evləndirməz. Çünki çox yerdə belə şeylər görünmüşdü. Ağalar kənd qızlarına evlənib «xanım» eləmişdilər. Xən öpüb xanım olmuşdu, Çəmən demişkən belə qızlar. Təkcə bu — Şahnisə xanım ola bilməzdi, izin verməzdi. Onsuz də Səfər indi heç evlənmək haqqında düşünmürdü də. Sadəcə bütün qəlbi, bütün varlığı bu məhəbbətlə, bu istəklə dolmuşdu. Yavaş-yavaş ən böyük məhəbbətə çevrildi bu istək, bu arzu, bu dilək. Bu eşq onun bütün hüceyrələrinin, bütün vücudunu doldururdu. Bütün arzularının başıydı bu məhəbbət, bu dilək. Reyhanlı dilək. Sirrini heç kəsə, ən yaxın dostlarından birinə də, ona güləcəyindən qorxub, söz deməmişdi. Ona elə gəlirdi ki, Reyhan məhəbbəti ürəyinə elə gizlənib ki, nə görən var, nə duyan. Amma görən də vardı, duyan da. Təcrübəsiz gəncin daxilində ən günahsız səhvi hərəkəti, təbəssümü, baxışı, reyhan ətirli, reyhan budağcığıyla rəftarı ürəklərə axırdı. Şübhəli ürəklərə. Bəzi içi qara ürəklərə yer eləyirdi. Bəzən yuxa ürəklərin birinin qıza yazığı gələrdi. Bilirdilər ki, lüzumsuzdur

bu. Nə atası, nə anası belə məhəbbətə məhəl qoymaz. Məhəl nədi heç eşitmək istəməzlər. Heç biri Safər ağanı Reyhana yaxın getməyə qoymaz. Reyhanı xanım eləyib bu evə, bu alışan imarətlərə qoymazlar. Şahnisə xanım pişik balasını özünə gəlin eləməz. Gəlin gözüylə baxmaz qulluqçudan doğulan qıza. Kənizin qızı kənizə. Dünya gözəli olsa da. Oğlunun ilk məhəbbəti olsa da. Oğlunun ürəyində yer eləyib, dərin yara açsa da razı olmaz bu eşqə, bu məhəbbətə. Heç qoymaz ki, bu məhəbbət cücərə. Çiçək aça, bar verə, meyvə gətirə. Yox!!! Mümkün olmayan işlərdi. Mümkün olmayan diləklərdi. Bəzi qıza acıyanlar, Gülsənəmə hayıfsılananlar, Baxtıkəmin talesiz qızını qorumağa çalışırdı bu bəladan. Ürəyində deyirdi: «Kaş qızınsa gözü bu oğlana düşməyəydi. Qızınsa ürəyinə bu məhəbbətin toxumu düşməyəydi, cücərməyəydi». Amma mümkündü? Mümkünmidi bu? Atəş içində, od alov içində düşüb yanmamaq mümkünmidi? Bilmirdi. Heç kəs bilmirdi bunu. Bir Allah bilirdi ki, insanların talehini «qalü bəla»da alınlarına yazırdı. Bu da elə. Baxtıkəmin talehsiz qızı — pişik balası xanım olmayacaqdı. Ola bilməyəcəkdi. Heç vaxt! Mümkün deyildi. Kaş heç ürəyindədə olmayaydı bu məhəbbət! Yoxsa özü də Reyhandan Bəxtikəmin talehsiz qızı Bədbaxta çevriləcək. Dünya!.. Dünya!.. Harda sənin o gəzəl nemətindən, o şirin, o dadlı nemətindən, əzəli, əbədi ismətindən qisməti olmayanlara nəsib olur. «hayıf səndən»—deyib hayıfsılanma, əziz oxucum, biləcəyik axırını. Bir az səbir elə! Bir az da mənə yol yoldaşı ol. Biləcəyik axırını.

* * *

Meşə yox idi — meşəyə getsinlər. Dağlıq yox idi dağlara çıxsınlar. Dərələrdə, yarğanlarda, kahalarda gizlənsinlər. Görüşsünlər. Amma sevənlər üçün, özü də bu yaşda—görüş yeri, dalda yeri tapmaq çətin olmur. Heç axtarmırlar da. Belə yerlər öz-özünə gəlib çıxır qabaqlarına. Köhnə samanlıqlar, qədim zağalar, atılıb qalmış, yiyəsiz balıstanlar... Bu zağaların birində necə, nə təhər, haçan sözləşdilərsə, haçan görüşdülərsə, haçan ürəklari bir-birinə xəbər verdisə... Bir o gözə görünməz, o qadir Allah bilir! Bəlkə heç, növzənbillah, ONUN da xəbəri yoxdu. Məhəbbət deyilən o əzəli, o bəşərin davamiyyəti olan bir duyğu onların, o iki gözəl cavanın əlindən tutub apardı o zağaların birinə... Zağaların birində bir-iki dəfə ela belə görüşdülər. Bir-iki dəfə əl-ələ tutuşdular. Nəfəs nəfəsə dayandılar. Təmiz saman iyi verən, qızıl kimi parpar parıldayan samanların üstünə, gözərlərin üstünə nə zaman yan-yana oturduqlarını, nə zaman qol-qola olduqlarını özləri də bilmədi. Heç birisi. Nə Səfər Reyhanı rusvay eləmək haqqında düşünmüşdü, nə də Reyhan Səfərdən ona bəlalar gələcəyini düşünmüşdü. Beləcə günlərin birində qolboyun, bu zağalardan birində iki sevgili o əbədi, o əzəli, o İNSAN davamiyyətini amili olan hissin tə’siriylə bir-birinə qovuşdular. Bir-birinə qovuşdular. Qovuşdular!!! Amma bir zaman özlərinə gəldilər ki, yyyoooo!!! Heç özlərinə gəlmədilər! Həmin hiss ürəkciklərinə əbədi hakim kəsildi. Xudavəndi-aləm kimi hakim kəsildi! Pərvərdigari-aləm kimi hakim kəsildi! Heç biri yaman bir şey düşünmədi. Nə əvvəlini, nə axırını! Heç biri yaman bir şey düşünmədən bu şirin, bu dadlı hissin ardınca bir-iki gün, bir neçə dəfə dalbadal həmin zağada görüşdülər. Talehin hazırladığı gərdək otağı kimi. Zülmün, sitəmin hazırladığı qınaq, danlaq, sərgərdanlıq başlanğıcı kimi!

Gülsənəm qızındakı dəyişikliyi əvvəldən hiss eləmişdi. Ara-bir pıçıltıyla, «Bala, gözümin işığı, a bir dənəm, amandı, ağa Səfərdən uzağ ol!» demişdi. Amma deməkdən fayda nəydi? O qızını deyə bilmirdi, söyə bilmirdi. Baxtıkəmin adını dilinə gətirməliydi söyəndə Baxtıkəmin ruhu inciyərdi döyəndə! Amma hər halda ara-bir qızı bərk çimdikləyir, çiyinlərini tutub sıxır: «Özünə də, mənə də qara gün ağlama, bala!» deyirdi. Axır günlərdəysə lap ayrı cür olmuşdu, qız. Nə gördüyü işi bilirdi, nə danışdığı sözü. Əlinə nə götürürdü düşürdü. Gözlər atəşlər saçır, bəxtiyarlıqdan par-par yanırdı. Fikriysə, yuxulu kimi xəyaldaydı. Kimin xəyalında olduğu Gülsənəmə də, elə kənizlərin, qaravaşların hamısına bəlliydi.

Arabar Balaxanım arvad da Gülsənəmi yanlayır, pıçıldayırdı:

— Qızdan muğayat ol! Deyəsən ömbərini bada verib.

— Nə danışırsan, ay xala?

— Xala neynəsin, bala? Gördüyümü deyirəm. Görmürsən qız özündə sözündə deyil? Qorxuram səhv eləməyəm, verib ömbərinn bada yazıq...

Belə söhbətlər yandırırdı Gülsənəmi. Onu da deyim ki, Şahnisə xanım özü də oğlundakı dəyişikliyi duymuşdu. Çörək yeyəndə də hərdən xəyala gedirdi. Dindirəndə də gözlərikdə bir seviic, bir coşğunluq elə parıldayırdı ki!.. «Hə» deyəsi yerdə «yox» deyirdi. Səadətinə qovuşmuş kimiydi.

Amma Şahnisə xanım Gülsənəm kimi narahat deyildi balasıyçın. Kişi xaylağına belə şeylər ayıb hesab olunmurdu. Dəcəllikdi — vəssalam. «Canı çıxsın, saxlasın özünü». Bəla qızın bəlasıydı. «Canı çıxsın gözünün içindən. Kor deyil, kar deyil. Eşitmir böyüklər deyəni? Ölsün— saxlasın adını». Bəli, qızın bəlasıydı. Oğlana nə var ki?! Oğlan belə şeylərdə sudan

quru çıxırdı. Günah bilmirdilər. Nadinclik kimi baxırdılar onun günahına. Qız üçünsə!.. Özü də qulluqçu qızı üçün... Özü də kəniz qızı üçün! Bu, böyük bir bər bəlaydı. Gülsənəmi qapıdan qova bilərdilər. Gülsənəm çörəksiz qala bilərdi.

Yavaş-yavaş qızdakı dəyişiklik artdı. Qızdakı dəyişiklik artdıqca, ananın da dünyası dəyişirdi. Qızın ürəyi bulananda yerikləDiyi anaya aydın oldu. İki əlilə öz başına qapaz saldı:

—Qoruya bplmədim bircə balamı, Baxtıkom! Qoruya bilmədim. Nə bəlaydı düşdüm. Allah!? Nə bəlaydı düşdüm, Allah?! Özün qutar bizi...

Anayçın çətin olsa da, Gülsənəm ən ağır işləri, gündən kölgələdiyi, yağışdan daldaladığı, ana ürəyində qoruduğu balasına gördürürdü. Ağır satıllar, ağır güyümlər doldurtdurur, ağır taylar verirdi arxasına. Gədələr dəyirmana dən daşıyanda ən ağır tayları qızın belinə qoyurdu. «Qızıl ipə bağlı deyil ki! Allah kərimdi, düşər, canımız qurtarar. Düşər canı qurtarar, bədbaxt balamın». Çəmən demiş: «elə bicin ömrü qızıl ipə bağlıymış». Məhəbbət meyvəsi möhkəm oturubmuş yerində. Heç bir şey kömək eləmədi.

— Aaaaz, xanımın pişik balasını niyə belə incidirsən? O ağır tayları nöş verirsən dalına? Qorxmursaaaan? Ağazadəyə zəfər toxunar, toxunmaz? Bilmirsən ki, belə ağacın meyvəsi möhkəm bağlanır budağına?

— Çəmən!...

— Nə Çəmən, aaaz? Vaxtında demədim sizə? Sımsığuvuza dəyirdi. Öl demirdim, it demirdim. Qarnı dombalar deyirdim dənə. Qaç demirdim, qov demirdim — gəlin olmamışa gözün açılsın deyirdim...

Çəmən deyirdi bu sözləri, ucarlayırdı, çox söz deyirdi və hamı da ürəyində onun sözünü hax hesab eləyirdi. Amma

deyəsən elə xanımın da qulağına Çəmən çatdırdı, ya başqası dedi. Elə çatdığı kimi də Şahnisə xanımı od götürdü. Otağına keçdi. Gülsənəmi yanına çağırtdırdı. Qalan kənizləri evdən uzaqlaşdırdı.

— Rədd ol burdan! — dedi.

Sonra incə, mötərzəyə bənzəyən çatma qaşlarını bir qədər də çatıb, hirsli-hirsli Gülsənəmin üstünə fısıldadı:

— A köpək qızı, bura qız ərə verməyə gəlmisən? Pişiyuvi xanım eləməyə gətirmisən? Ya çörək yeməyə gəlmisən? Çörəyim səni tutsun! Nöş qorumadın qancığuvu? İtdən törəmövü? Mən sənə nə demişdim, hə? Kürsəyə gəlirdi qancığun? Koriydi gözün? Nöşün demədin mənə əvvəlindən? Yoxsa başıkı da özün tutmuşdun? Xanımlığı iddahıynan? Ağa qayınanası olmaq həvəsiynən? Həəə?

Gülsənəm əllərini sinəsində çarpazlayıb bu söyüş-qarğış şarıltısı altında durmuş, bir kəlmə də danışa bilmirdi. Gözlərindən yaz leysan yağışı kimi tökülüb axan yaşları silə də bilmirdi. Başını tərpədə, kirpiklərini qaldırıb xanımın üzünə baxa bilmirdi.

— Sənnən döyüləm, ay itin qarnından çıxan? Ay it küçükləyqən? Qancığı nöş qorumadın? Nöş qorğalamadın? Yükdən, ağır iş-gücdən necə qoruyub qorğalaykarsan? Bəs bunnan nöş çəkindirmədin? Səfərə nə var, cavan oğlandı. «İnək göz eləməsə, kələ sıçramaz». Küçüyün göz eləyib, buğaya gələn düyə kimi, o da eləyib. Bax bir gör nökərlərdən ondan o yana kim əl uzadıb sənin haramzadana?

— O haram deyil, xanım.

— Haram döyüldi? haram deyildisə, nöş haram yeyirdi? Nəcisdən mundar qələt eləyib.

Gülsənəm nə cavab verəcəkdi? Gülsənəm inləyirdi. İnildəyirdi. İniltisini də bir özü, bir də Allahı eşidirdi. Göylərdə başının üstündə uçan Baxtıkəmin ruhuydu. Başının üstündə qanad çalan Baxtıkəmin ruhuydu. Haradasa getdikcə göy gur-gur guruldayır, kikrəyirdi. Deyəsən guruldayan Şahnisə xanımdı axı:

— Bilərsən nə var, mənim öyüm haram görməyib. Mənim evim bəd əməl görməyib. Mənim evim pakdı. Yığışdır şələ-şülövü, götür çəngivi də rədd ol mənim qapımdan. Dizləri əsdi Gülsənəmin. Taqəti qalmadı ayaq üstə durmağa. Diz çökdü, əllərini aman istər kimi uzatdı:

— Xanım, qurban olum, hara gedə bilərəm? Hara üz tutum?

— Onun day mənə daxlı yoxdu. Özün bilərsən hansı cəhənnəmə gedirsən, get! Gün axşama gedir, dəymirəm sənə. Nə qədər, əlim-ayağım dəyməyib heç birinizə, nə qədər nökər qabağında rüsvay eləməmişəm, sabaynan-obaşdan, gün çıxmamış üzüqaranı da götür itilin qapımdan. Bir də buralarda görünmə!

Gülsənəmin də, Reyhanın da bundan əvvəl illərlə yaşadıqları o evdə, o imarətin həyətində keçirdikləri son gecə ömürləri uzunu yadlarından çıxmadı sonralar.

Çəmən öyrənmişdi ki, bilirdi ki, xanım artıq qovub Gülsənəmi də, qızını da. Elə bil ki, bədbəxt Gülsənəmdən, talehsiz Reyhandan nəyinsə, kiminsə intiqamını alırdı Çəmən. Əslində heç bir şeyin intiqamını almırdı. Sadəcə Çəmənin təbiətində zarafat həddini ötürdü. O zarafatın, şuxluğun qədərini, dərəcəsini bilmirdi.

Kimdisə axşamdan bəri Reyhana sataşmaqda olan Çəmənə dedi:

— Sən özün guya ağa Səfər kimi novcavanın qabağında duruş gətirərdin? Sən özün duruş gətirərdin ağa Səfərin qabağında?

Balaxanım dedi:

— İnsafın olsun, aaaz, oğlu yerindədi ki Çəmənin ağa Səfər?! :

Bu sözə ən çox hırıldayan, hamıdan əvvəl Çəmən özü oldu, dedi:

— Noolsun? Vallah, heççə yerə «yox» deməzdim. Bilirsən neynərdim? Çoban döl vaxtı birinci doğulan quzunu qucağına alan kimi çəkərdim onu qoynuma. Başını qoyardım sinəmə. Yaylaq quzusu duz yalayan kimi yalardım onu. Deyərdim: «əm bu ağ dələmələrimi. Dərdin mənə gəlsin. Mənim çün elə, özinçün öyrən. Ərsəyə çatanda, dişlərin çıxanda gərəyin olar, məni onda yada salarsan».

Hami qaqqıltıyla gülürdü. Təkça küncə qısılmış Gülsənəmlə Reyhandan başqa. Kimsə dilləndi:

− Buuuy... Allah ətüvü töksün.

Ha, ha, ha səsləri otağı başına götürmüşdü. Kəniz lərdən biri gülə-gülə Çəməndən bir çimdik qopardı:

— Azzz arvadda iştaha bax ha...

— İştah vaxtında mələ.

Çəmən ufuldadı, amma özü də zarafatyana gülə-gülə cavab verdi:

— İştahıma korluq verən deyiləm mən.

Balaxanım arvad bayırdan gələn nökərlərdən birinin sifarişini kənizlərə yetirdi:

— Xanım xəbər göndərib ki, az qaqqıldasınlar. Səhər kim işləməli olacaq? Kəsün səsüvüzü. Baş-beynim dəng oldu. Qulağım getdi. Evdə həyətdə heç kimi yatmağa qoymursuz.

Elə bil qurbağa gölünə daş atdın. Hamının səsi kəsildi. Gülsənəm və Reyhan bir-birinə qısılıb, guya özünü yuxuya getmiş kimi göstərirdi. Amma yuxuya getməmişdilər. O gecə «Karvanqıran»la birlikdə darvazadan çıxanda ara-bir itlər hürürdü. Kəndin qırağına çatanda çaqqalların, kaftarların səsini eşidəndə canlarına qorxu doldu. Gülsənəmin də, qızın da bağrı yarıldı. Amma neyləmək olardı? Getməliydilər....

Xanımla axırıncı görüşü Gülsənəmin qəlbində, gözlərinin önündə təkrarlanırdı, axşamdan bəri Şahnisə xanım yatağının baş ucundan nəysə götürdü. Bükülü bir kağazdı. Deyəsən manatlıqdı. Arvad pulu hikkəylə Gülsənəmin qucağına tulladı:

— Ala... Başuvu bir yerə soxanacan gərəyin olar.

Gülsənəm sinəsinə tullanan pulun nə qədər olduğunu heç bilmədi. Əyilmədi, götürmədi. Göz yaşlarını yumruğunun dalıyla. silə-silə otağı tərk etdi. Divarlardan tuturdu ki, yıxılmasın. Qabağına birinci çıxan Çəmən oldu:

— Həəəə... Nə sımsığuvu sallamısan? Nooldu? Nə dedi xanım sənə?

Balaxanım özünü yetirdi: —

— Aaaaz rədd ol! Qoy xalx öz dərdini çəksin.

Çəmən yenə fınxırdı, pıqqıldaya-pıqqıldaya xoruzlandı:

— Başımıza xeyir, bilməmişik. Day heç ağzımızı da açmayacağıq. Başımızın üstünə təzəlikcən böyük xanım yetişib. Təzə xanımlar tikiblər başımızın üstündə.

Gülsənəm otağa çəkilmədi. Birbaşa tövlələrə tərəf getdi. Bu gün nökərlər kərmə kəsirdilər. Kərmə kəsənlərə yardım eləmək onun borcuydu. Gülsənəm gözünün yaşını yaylığının ucuyla silə-silə nökərlərə kömək etməyə başladı. Heç kəs heç nə deməsə də, heç bir şey elan olunmasa da artıq bütün həyət adamları hadisənin nə yerdə olduğunu bilirdi.

«Karvanqıran» ulduzu doğanda Gülsənəm yerindən qalxdı. Hələ dan ulduzuna xeyli vardı. O isə «Karvanqıran»ı dan ulduzu saymışdı. Yavaşca balasanı tərpətdi. Deyəsən o da yatmamışdı. Birlikdə, heç kəs duymasın deyə pəncələri üstündə otaqdan çıxdılar. Həyətə endilər. Axşamdan Gülsənəmin gizlətdiyi boxçanı götürdülər. Boxçanın yanında bir-iki dənə kisə vardı. Gülsənəm bunları yola götürmüşdü. Neçə ildən bəri çalışdığı, əmək sərf elədiyi bu yerdən, bu dolu evdən, bu kaşanədən nəydi qazancı? Bu iki boş kisəydi qazancı. Kisələrin dibini deşib oyuq açmışdı. Birini qızın, birini də özünün başına keçirtdi. Səhər ayazından qorunmaqçun. Əyinlərində nə vardı ki? Yavaş-yavaş, daldalarla evdən aralandılar. Hara gedirdilər, kimə üz tutacaqdılar? Kimi tanıyırdılar bu göy çadır altında? Bu göy qübbə altında yaşayan minlər, milyonlarla insan içində? Hələ ki, heç biri bir şey bilmirdi. Xüsusilə ana qayğılıydı. Gülsənəm bircə onu bilirdi ki, bir sığınacaq yeri tapmalıdı. Balasının, özünün başını soxmaqçun. «Bir yandan bağlayan, bir yandan açar» deyiblər. Dünya yaxşı insanlardan xali deyil. Elə rast gəldikləri birinci adam, onlara daldalanacaq verən birinci insan elatda «el anası» sayılan Anaqız oldu.

Anaqız bu kəndlər arasında falçılıq, öbəçilik, türkəçarəçilik eləyən tanınmış, hörmətli bir qadındı. Yaşının neçə olduğunu bilən yoxdu. Özü söz düşəndə yaşdan, deyərdi ki, «tay-tuşlarımdan, həmyaşlarımdan qalan bircə mənəm. Mən də ancaq ona görə qalmışam ki doğan arvadların, çətinliyə düşən zahıların fəryadına çatım. Azarlıların kürəyinə bardaq qoyum, əmləyim. Ot ələfdən, tanıdıqlarımdan, bildiklərimdən dərman dava düzəldim verim. Ona görə qalmışam Allahın köməkliyilə bu dünyada yəqin ki».

Əslində Anaqız Gülsənəmi uzaq-yaxın tanıyırdı. Qapılar gəzən arvad idi. Hansı evdə olmamışdı ki? Bütün elobanın içində, bütün qonşu, yaxın-uzaq kəndlərdə demək olar ki, hamını tanıyırdı. Elə vaxtında Reyhanı da o tutmuşdu. Vaxtıyla Baxtıkəm onun qapısını döymüşdü:

— Nənə. ay nənə!

— Can nənə! Qurbanın olum, niyə gəlmisən demirəm. Azarrın var?

— Yox, ay nənə, üzüm ayağının altında. Bizim öy əhlinin vaxtı çatıb deyəsən.

— Bıy baaşuva dönüm. Tez ol götür kursünu cınağuva gedək. — demişdi Bəxtiyara.

Dunyaya ətirli bir Reyhan gətirmişdi. İndi həmin Reyhan özü ana olmağa halırlaşırdı. Daldalanacağı ona «nənə» deməyə başladığı Anaqız verimişdi. Ona da, anasına da. Anaqız Gülsənəmin dərdini, iki əl bir təpə qamağını başa düşdü.

— Ad deyirəm, ay bala, ad deyirəm de. Bu dar dünyada kimim kimsənəm yoxdu. Başqaları kimi Baxtiyar da balamdı. Sizi çox tez qoydu getdi. Heç yarı yol eləməmişdi. Çox tez qoydu getdi. Deyir:

**Fələyi dindirəydim,**
**Bilməzin bildirəydim.**
**Sənə yazı yazanda**
**Qələmin sındıreydım.**

Qızım! Qal burda. Mənə nökər-qulluqçu lazım deyil. Bir parça çörəyimi bir təhər qazanıram. El-camahat sağ olsun. Əlindən gələni sən də elərsən. Baxaq görək, başımıza nə gəlir. Allah kərim Allahdı.

Azdan-çoxdan kəndin kattasına, onun arvadına əl yetirə-yetirə Gülsənəm özünün, qızının bütün ağılığını Anaqızın çiyinlərinə düşməyinə razı olmadı. Ola da bilməzdi. Arzad özü nü qazanırdı ki? Qərəz ki, üçlükdə başbaşa verdilər, baş bir yaxadan çıxardılar. Bir təhər evdan çölə ayaq qoymayan Reyhanı qorudular, yad narahat nəzərlərdən uzaqlşdırdılar. Söz-sova yer qoymadılar. Üzüqara saysalar da canına qıymadılar. Bir də ki, əslində Reyhan özünü üzüqara hesab eləmirdi. Bu elə bir məhəbbət idi ki, bu bir dünya idi ki, bu elə bir hiss idi ki, Reyhan bu hissə candan təslim olmuşdu. Bəhrəsinn görəcəkdi. Bu yaxınlarda... Səfərin yadigarını sinəsniə sıxacaqdı. qalmışdı. Hərdən-hərdan sinəsindən bir az aşağı əlini qarnının üstünə qoyur, çır-çır çabalayan balasını dinləyirdi. Balasını. Səfərin balasını! Hələ bala dadını bilmirdi. Amma bilirdi ki, o, bu dadlı günlərin, o dadlı günlarnn yadigarıdı. Həm balıdı, həm balası, həm bəlasıdı.

Arabir Gülsənəmlə Anaqız arasında xısıltılı söhbət gedirdi. Reyhanın bundan nə xəbəri. O öz aləmindəydi. Səfərdən ayrı düşsə də onunla özü arasında incə bir tel vardı, bətnindəydi, çabalayırdı. O öz aləmində, qadınlar da öz aləmlərindəydilər.

— Səni deyib gəlirdim, yolu Allahım mənə salığ verdi, eləbil Baxtıkəmin ruhuydu bizə yol göstərən o gözə görünməzin izniylə, nənəcan... — deyirdi Gülsənəm.

— Nanən qurban.

— Göydə Allah...

— Növzənbillah... Allah umudunu kəsməsin.

—Göydə Allah, yerdə sən umudluydum. Bədbaxtdan sən sarıdan o qədər xoş söz eşitmişdim ki...

Baxtıkəmi nəzərdə tuturdu. Hər ikisinin gözləri yaşardı.

— Allah rəhmət eləsin, varsa günahından keçsin. Özü canlara dəyən igidiydi. Nə günahı vardı? Yanı Allah ona da rəhmət eləyib cənnətlik eləməsə, kimə elər bilmirəm. Özü bilən məsləhətdi...

— Özü bilən məsləhətdi... — gözünün yaşını yaylığının ucuyla silən Gülsənəm əks-səda kimi səsləndi.

— Rəhmətlik, balam, Reyhan qız doğulandan sonra hər qış qabağı Əsgərəyə[1] gedəndə Allahdan gün oğurlayıb gəlrədi: «Nənə, odununu gətirim?» deyərdi. Deyərdim: «Ay gözümün görəri, qoca arvadam. Günüm onun-bunun ocağının qırağında keçir. Öydə də olanda təzəknən-kərməynən keçinirəm. Mənə nə odun? Deyərdi: «Yox, ay nənə! Sən bütün elin nənəsisən. Qoca sümüklərin evdə də yaxşıca qızına gərək ki, azarrının, zahının, dünyaya gələnin imdadına yetəsən».
Cənnətlik, malağan furğunu dolusu odunu hardan alıb gətirirdi, neçəyə alırdı? Bilməzdim. Bir günün içində yarardı, doğrardı, öz əliynən qurduğu çardağın altına səliqə-sahmannan elə yığardı ki, qışda, qar-girvədə, şaxtada-sazaqda odunu hasand götürə bilim. Çox zəhmət çəkiəyim. Əynində köynək elə islanırdııı... Sıx-sər. «Ver qurudum, ay bada, deyirdim. Utanardı. Verməzdi. Zorunan üstünə qurama yorğançanı atardım». Çıxart-çıxart deyərdim, irağ irağ sətəlcəm olarsan. Soora gərək sənə özüm türkə-çarə eləyəm, bardağ qoyam. Arvad uşağının yanında xəcalət ollam». Çıxardım dəhlizə, mən gələnəcən soyunardı. Qurama yorğançaya bürünərdi, oturub

---

[1] Әскәрә — искәлә сөзүнүн Күр саһили мәнтәгәләрдә, Сәлјан вә б. јерләрдә тәһриф олунмушдур.

kəklikotudan, qantəpərdən dəmlədiyim çaydan içərdi. O içənəcən mən də köynəyini ocağın üstündə qurudub verərdim... Dünyanın işi belədi, biri yeyir yağlansın, biri çəkir gödən ağrısın.

Anaqız arvad ildə bircə gün baş verən hadisəni, xatirəni elə canlı, elə yerli yatağlı təsvir edirdi ki, bütün o sadə, sadə olduğu qədər də anlaşıqlı, doğma hallar, sözlər Gülsənəmin qəlbini titrədir, gah gülümsünür, gah da gözlərindən gilələnən yaşları silirdi. Bütün varlığıyla sevdiyi əri haqqındakı ən sadə hekayəti can-başla dinləyirdi. İnanırdı. Bilirdi. Baxtıkəm elə beləydi. Başqa cür ola da bilməzdi. Kimi dindirsən, kimdən soruşsan, kimlə qohumluğu, iş əlaqəsi olmuşdusa, Şirvan mahalında, Şamaxı qohumlarından üzü bəri hamısı Bəxtiyar— Baxtıkəm haqqında belə danışar, belə vaysınar, onun cavan ərinə beləcə cənnət arzular, Allahdan rəhmət diləldilər. Bu dost və tanışların, qohumların bir çoxu barəsində vaxtilə, uzun qış gecələrində Baxtıkəm ona şirin nağıl kimi danışmışdı. Elə buna kerə də Gülsənəm «hara üz tutum, Allah?» deyə ürəyində fəryad edəndə yadına hamıdan əvvəl Anaqız düşmüşdü.

— Mənə gəlməmiş kimə gələcəkdin? Hara gedəcəkdin? Allah da elə məsləhət bilib salıb ürəyüvə. Qızçun da bu silahdı. Vaxtında. Vədəsində.

— Kaş o vədə heç gəlməyəydi. İçində boğulaydı...

— Asi danışma, qızım, asi danışma. Necə olsa Məhəmməd hümmətidi. Atası bəlli, anası bəlli. Neynəyəsən ki, yiyələri namərd çıxdı. Bilmək olmaz. Bəlkə Allah ürəklərinə rəhm saldı... Aparram. Məhəbbət gözdədi. Şahnisə xanım nəvəsin görər...

Gülsənəm bütün varlığıyla etiraz elədi:

— Yox..Yooox... Özünü urvatdan salmağa qoymaram səni. Onlar elə adam döyüllər. İllah da ki,... xanım...

— Bəlkə Şamaxı qohumları əl yetirə...

— Nə bilim vallah. Əvvəli orda qoca anası qalmışdı. Düzdü: ev-eşiyi filanı olub, qalıbmış. İndi bu bir neçə ildə kişi rəhmətə gedəndən sonra əlaqəmiz tamam üzülüb. Genə özü sağlığında xəbər tuturdu. Heç day bilmirəm o qoca anası sağdımı? Nə əl yetirə bilər? Soora da Şamaxıdan qannılıq üstündə çıxıb axı. Anası bədbaxt qızı heç bircə günlüyə görüşə getməyinə də razı olmurdu. Deməyinə görə günahsızmış, qorxurmuş, o qannılıqla heç bir alağa-salağası olmayan balasına xata bala toxunmasın. Qannıları çox güclüymüş. Nəsillərində kişi qısmından bir başı papaqlı qalıbmış, o da bizimki...

— Nə deyirəm, ay bala! Onda başqa bir fənd quram gərək.

Anaqızın düşüncələriylə Gülsənəmin düşüncələri arasında fərq vardı. Əgər Gülsənəm bu çətin vəziyyətdən nə olursa-olsun fikri təkcə qızını xilas etməkdisə, Anaqızı duşündürən həm Reyhanını... Və həm də, ən başlıcası və bəlkə də daha çox, onun həyat verəcəyi körpənin taleyi idi. Anaqız istəyirdi ki, doğulan uşağı... Hələ nə olacaq? Dünyaya kim gələcək? Hansı bəxtikəm oğlan, ya hansı talehsiz qız qədəm basacaq bu misilsiz, gözəl dünyamıza? İndidən nə bilmək olar, əziz oxucum? Azca da səbir elə.

* * *

Qonçabəyim təzəcə otuzunu doldurmuşdu. İndiki anlayışla cavan gəlin, o zamankı anlayışla artıq oturuşmağa başlayan arvaddı. Yaşıdları üç-beş, bəlkə daha çox uşaq sahibi anaydı. Amma Qonçabəyimin övladı olmamışdı. Bədəni gənc qız

təravətini saxlamışdı. Qəddü qamətliydi. Çox zərif, incə vücudu zərxara, kimxa tuman, qanovuz köynək içində alışıb-yanırdı.

Hərdən Murad ağa, Tovuz quşu kimi otaqlarda qanad gərən Qonçabəyimi məhəbbət gözilə seyr etdikcə düşünürdü: «Evlad vermədi böyük Allah bizə. Amma sənə baxanda fikrimə gəlir ki, o böyük, o qadir Allah bəlkə də sənə elə təkcə məhəbbətçün yaradıb!? Mənim qismətimə gözəllərin gözəli, incələrin qönçəsi düşüb. Bu da bir böyük xoşbəxtlikdir duyan, gözəlliyin qiymətini bilən ər kişiyçün. Madyan, inək cinsindən deyilsən, mələk soylusan Tanrım yaradan. Doğmayan, doğulmayan mələyimsən». Vücudunda gərkinlik duyulurdu. Bu gərginlik şirindi, dadlıydı, çağırırdı

— İnşaallah xeyir olar...

— Nə yuxudu, canım? Danışsana...

— Yuxumda başdan ayağa yam-yaşıl paltar geymiş, yaşıl şal örtmüş arvad xeylağı sağ əlini sənə tərəf uzatdı, dedi: «Qonçanı pirə — peyğəmbər qəbrinə[1] apar».

— Amin! Göz üstə. Hardadı o pir?

— Bilmirəm.

— Yanı genə pir qalıb? Xıdır Zində[2].

— Aparmısan. -

— Sofu Həmid[3]...

— Getmişik.

---

1 Пир — гәбри пејғәмбәр, Бејләганда.

2 Хыдыр Зиндә -Дәвәчә рајонундадыр.

3 Софу Һәмид пири Гобустандадыр.

— Pir Abdulkərim[1]...
— Keçən yaz.
— Şeyx Əyyub baba[2].
— Ötən yay.
— Pir Xanəgah[3].
— O payız.
— Qara Sofu[4].
— Görmüşəm, nəzrini də vermişəm.
— Şıx Dursun[5].
— Görmüşəm, ziyarət eləmişik.
— Sarı Seydan[6].
— Olmuşuq.
— Baba Samit[7].
— Qurbanı-olduğumun iki dəfə ziyarətinə getmişik.
— Bibi Heybət[8]
— Bəs hansı qalıb?
— Nənəmə danışdım yuxumu dedi: «Həzrət Fatimeyi-Zəhranı görmüsən yuxuda. Xanımlar xanımı, Peyğəmbər salavatullahın qızı. O pir də haradasa bu yaxın tərəflərdədə...

---

1 Пир Абдулкәрим — Гобустанда, Набыр кәнди јахынлығындадыр.

2 Шејх Әјјуб Гобустандадыр.

3 Пир Ханәкаһ Һачыгабул рајонундадыр.

4 Гара Софу Шамахы рајону, Көјләр кәнди.

5 Шых Дурсун Ағсудадыр.

6 Сары Сејдан Салјан рајону. Гарачала.

7 Баба Самит Сабирабад рајону Галагајын гәсәбәсиндә.

8 Биби Һејбәт Бакыдадыр.

Apararsan? Qonçabəyimi. Hil-mixəkdən ətir almış tər Qoca içəri girəndə ərindəki haləti daxili bir hisslə duyan, anlayan, anlaqlı qadın, nazla, qıyğacı-qıyqacı, ərkyana bir təbəssümlə Murad ağaya baxır, sonra da onun açıq qolları arasına şığıyır, gözəl başını kişisinin məğrur, amma ürəkdən bütün vücuduyla sevən sinəsinə söykəyirdi.

— Murad ağa...

— Nədü, canım?

— Bir yuxu görmüşəm...

— Xeyir olsun.

Əlbəttə ki, canım. Lap dünyanın o biri başında olsa da. Qoy bir soraqlaşım, yerin yurdun öyrənim...

— Tez öyrən pirin yerini ha...

— Gözüm üstə, canım.

— Gözün ağrı görməsin.

İki bədən bir canda birləşdi...

Səhərn gün obaşdan, hələ gün çırtdamamış faytopçu Sadıq faytonunu darvazanın önündə hazır saxlamışdı. Dal həyətdə çıraq işığına ərzaq tədarükü görülür, kəsiləcək heyvan, təndir çörəyi, orada yuxa bişirmək üçün un, sac, çay üçün samovar, dəm çaydanı, qab-qacaq, palaz-paltar, gecələmzkçün yatacaq və s. tədarük edilir, seçilib furquna yığılırdı.

Qoşa at qoşulmuş faytondan çox da geri qalmamaqçun yükü ağır olan furğuna dörd at qoşulmuşdu. Pir üstündə kişi işini faytonçu Sadıqla furğunçu Qasım görəcəkdi. Arvad iş-gücündən ötəri bircə diribaş Gülnigar kənizi götürmüşdülər. Çöldə-bayırda olanda, Murad ağanın etirazına məhəl qoymayan Qonçabəyim özü də iş gücə əl-ayaq verirdi.

Gün çıxmamış, üfüqdə onun yalnız xəfif qızartısı bəlirəndə, dan yeri təzəcə-təzəcə qızaranda Murad ağayla Qonçaboyim

gəlib faytona əyləşdilər. Sadıq kişi dal həyətdəki furqunçu da hərəkət əmrini eşitsin deyə ucadan səsləndi:

— ALLAH!. Məhəmməd, ya Əli... Ağamı Allah saxlasın. Hay... Gözünə döndüyüm... — deyə qamçısını atların üstündə havada oynatdı. Qamçı enmədən onu duyan atlar tərpəndi. Hər tərəf hələ qaranlıqdı. Qonçabəyim qaranlıqda sübhün sərin havasını köksünə çəkib əsnədi, bəzəkli başını ərinin çiyninə dayadı. Ürəyinə ümid dolu bir sükunət çökdü. Arxalarınca qoca Nisə qarının «qırxhaçar camı» dolusu su atıb dediyi sözləri eşitməsə də duyurdu:

— Allah muradını versin, gəlin! Kaş bu yoldan əliboş qayıtmayasan. Rəbbim, bu rəbbi-qiblə ikinizi də, muradınıza qovuşdursun. Amin ya rəbbil-aləmin!

...Göz işlədikcə uzanan sap-sarı, qumlu-torpaqlı çöldə əvvəlcə tünd kölgəli xəyal kimi görünən məscid, əlavə tikililər, xüsusilə uca çinar, tut ağacları görünəndə, Qonçabəyim gözlərini növbəti mürküdən açıb gülümsədi, Murad ağa onun çutqudan ucları çıxmış cığalarını sığalladı:

— Ay yatdın ha...

— Çox yatmışam?

— Çiynimdən soruş. Deyəsən o da «yatıb».

Qonçabəyim «can-can» deyə-deyə ərinin çiynini ovuşdurdu.

— Bəsdi, əlini yorma. Zarafat eləyirəm.

— Murad ağa...

— Nədi, canım?

— Canın ağrımasın. Bu hansı pirdi dedün? Adı belə bir təhərdi ey... Dilimə yatmayıb hələ.

— Cərcis peyğəmbərin mübarək qəbridi. Deyilənə görə yüz igirmi dörd min peyğəmbərdən dördü. İdris, Yunis, Asif, bir də bizim burdakı Cərcis peyğəmbər dörd dəfə kafirlər

tərəfindən öldürülüb. Amma böyük Allahın əmrilə yenidən dirilib. Dörd dəfə ölüb dirilənlərdən biridi bu, məzarda yatan müqəddəs.

— Can... can... Murad ağa, yanı bizim torpağda da peyğəmbər olub?

—Nöş olmasın? Bizim torpağa nə gəlib ki?

— Heç nə. Elə...

— Qıza, yanı deyirsən 124 min peyğəmbərdən birinin qəbri bizim torpaqdadısa, şübhə eləyirsən?

— Buy Allah sən saxla! Şübhə-zad eləmirəm. Nəkarəyəm? Qəbrinə qurban olduğumu indiyəcən yaxşı tanımamışam. Yoxsa nəzir-niyaz, sadağa göndərərdim qulluğuna. Özü də yaxın... Qulağımızın dibindəymiş. Bir günlük yol...

— O uzaq pirlərki şöhrəti çox yayılıb, odu ki, biz də əvvəl oralara getmişik.

— Neynək, nəynək. Səhvimizi canım qurban olduğu yuxumda xəbər verdi mənə.

— Allahdandı o da...

— Allahın özü irasta salsın, nəzrimiz qəbul olsun.

— Olar. Fikir eləmə, canım.

— Daha eləmirəm... Ürəyimə bir umud dəlub ki, Murad!

Fayton, bir qədər aralı gələn furğun məscidə yaxınlaşdıqca, tikililər daha aydın görünürdü. Bu, mərkəzdə dördkünc, qübbəli məscid binasıydı, ondan sağ tərəfdə bir neçə kiçik tikili görünürdü. On-onbeş kvadrat metr sahəni tutan binaların ətrafını uca çinarlar, bir neçə tut və qarağac əhatə etmiş, sanki səhranın quru küləklərindən, günəşin yandırıcı şüalarından həm burda yaşayanları, həm də gələn zəvvarları qoruyurdu. Həyətin lap aşağı başında qoyun-qurbanlar kəslimәkçün xüsusi yer ayrılmışdı. Qurban qanları xüsusi novla yeraltı quyuya axır,

çəmdəklər burada, hasara bənd edilmiş, arxasına tənəkə vurulmuş qənarələrə asılıb soyulurdu.

Uzaqdan ziyarətçilər gəldiyini duyan pir xidmətçiləri-mücəvürlər hazırlıq görməyə başladılar. Samovarları, ocaqları alışdırmağa cumdular. Zəngin fayton və furğunun fərqinə varmışdılar. Az keçmiş həyəti səs başına götürdü:

— Ya Allah!..

— Ya allah, ziyarətimiz qəbul...

— Allah qəbul eləsin.

— Xoş gəlib, səfa gətirmisiz, ağam!

— Çox sağ olun.

— Ağa mətləbüzü versin.

Aralıdan iki qadın göründü. Yaşmaqlanıb, şalının ucunu alnına çəkiiş Qonçabəyimi aralarına alıb yanındakı tikililərdən birinə tərəf apardılar. Murad ağa kişilərin əhatəsində qaldı. Az sonra furğun da gəlib çıxdı. Pirin baş xidmətçisi Molla İsa ilk baxışdan zəvvarlarıi gecələcəyini anladı. Ən təmiz və səliqəli hücrələrdən birini göz işarəsilə xidmətçilərdən birinə bildirdi. Murad ağanın əşyaları həmin hücrəyə yerləşdirildi. Az sonra əl-üzünü yuyub bir az özünə gəlmiş Qonçabəyim həmin hücrəyə gətirildi. Arvadlar ondan artıq hər şeyi öyrənmişdilər: Yuxu məsələsinə də, nə dilə yə gəldiklərini də. Heç oin dəqiqə keçməmişdi ki, Gülnigar kəniz hazır samovarı gətirdi. Ərlə arvad qabaq-qənşər əyləşib çay içməyə başladı:

— Qopça!

— Can.

— Canın ağrımasıi. Molla məsləhət görür ki, əgər çox incığsızsa bu gün dincəlsin, sabah səhərdən ayini icra edək. O birisi gün qayıdarsız. Yox, əgər yorulmamışsızsa, indi başlayaq.

Qonçabəyim tələsdiyindən çeçədi və dərhal yerindən qalxdı, Murad ağanın içindən bir sızıltı keçsə də gülümsədi:

— Tələsmə, ay dəli qız, hələ bir çayını iç.

— Ömrümdə o qədər çay içmişəm ki! Biri bir az kəm olsun.

— Yaxşı. Deməli onda mollaya deyim ki, indi istəyirik.

— Hə!.. Nə qədər tez olsa o qədər yaxşıdı. Yuxum çin olacaq.

— Olacaq inşaallah: dərd eləmə, canım!

Qadınlar Qançabəyimi Gülnigarla birlikdə «Suaxan» dedikləri tikiliyə gətirdilər. Xırda, dördkünc otaqçaydı. Ortada, sal daş döşəmənnn üstünə iri, Lahıc işi mis teşt qoyulmuşdu. Yüksək sənət əsəriydi: teştin dilik-dilik kənarlarının alt tərəfi gözəl xətt və nəbati ornamentlər, butalarla bəzədilmiş, ayələr yazılmışdı. Xidmətçi arvadlardan birinin əlində «Qırxhaçar camı» vardı. Cama da ornament şəklinə salınmış ayələr yazılmışdı.

Divar boyu ılıq su doldurulmuş üç böyük satıl və sərnic dururdu. Bunlar da Lahıcda ornament və münasib yazılarla bəzədilmiş, kiminsə nəzri, vəqfi olaraq məscidə ehsan verilmişdi.

Qapıya yaxın yerdə qoyulmuş taxtın üstündə Gülnigar, xanımın zərxara boğçasını açmış, al sərqətvə, qələmkar qətfəsini və şəmsi-qəmər köynəyini qoymuş, gözləyirdi. Qadınların göstərişiylə Qonçabəyim üst paltarlarını bir-bir çıxarıb Gülnigara verir, o da büküb, boğçanın açıq qanadı üstünə yığırdı. Nəhayət Qonçabəyim tək bircə ağ inək «uzunluq»da qaldı. Arvadlar onun qolundan tutub bismillah çəkə-çəkə teştin içinə saldılar. Qonçabəyim içini doldurulmuş bir həyəcan, dərin bir etiqad və sonsuz bir ümidlə teştin içərisində diz çökdü. Üzü qibləyə durmuşdu.

Arvadlardan biri birinci satılı irəli çəkdi. Əlindəki camı doldurdu:

— Qızım hörüklərini aç!

— Baş üstə.

Qonçabəyim az əvvəl məxmər çutqudan çıxardığı və başının ətrafına doladığı hamar, parlaq hörüklərini açdı, ağ «uzuluğ»un üzərinə hər iki tərəfdən iki qara qalın hörük sallandı.

— Sidqini dürüst elə!

— Ürəyini qəbrinə qurban olduğuma bağla!

— De ki, cənabət qüslü eləyirəm paklığım, təmizliyimçün vacib-qürbətən illallah.

Qonçabayim deyilənləri ürəkdən, sidq ilə təkrar edirdi. Sonra arvadın verdiyi camın birini başına, o birilərini sol və sağ çiyinlərinə tökdü. Əllərilə acışan gözlərini sildi. Ayinin birinci pilləsi başa çatdı. Arvadlar ikinci satılı irəli çəkdilər.

— Deyinən: ziyarətə gəlmişəm, ziyarətim qəbul olmaqçun ziyarətdilək qüslü eləyirəm...

— Mənimçün vacib, qürbətən illəllah.

Yenə də Qonçabəyim ayağa qalxıb camlardakı suyun birini başına, digər ikisini sol və sağ çiyinlərinə tökdü. İkinci mərhələ də bitdi.

Qadınlar ayinin üçüncü mərhələsini yerinə yetirməkçün üçüncü sərnici irəli çəkdilər. Qonçabəyimə elə gəlirdi ki, içində oturduğu teşt aşağıdan altı qızdırılan tava daşlar vasitəsilə qızır. Amma ürəyindəki ümid, etiqad, arzu o qədər güclüydü ki, bütün bunların fərqinə varacaq halda deyildi. Azacıq aralıda durub xanımının yaş ipək içindəki mütənasib vücudunu seyr edən Gülnigarın duakar pıçıltılarından xəbərsizdi: «İlahi, özün kömək ol xanıma! O cuvanəzənə qıyma, muradını ver, ilahi!

Naümid qaytarma bu qapıdan, Allahım!—deyirdi o titrək dodaqlar.

— Hə, xanım qızım, day axır ayindi.

— Sidqini Allaha bağla.

— Ürəyini, sidqini bu bargahın, bu oçağın sahibinə bağla! De ki, dərgahına gəlmişəm, ya nəbiyyi-xuda! De ki, ya Cərcis! Ya nəbi! Ya Allahımın istəklilərindən istəklisi! Məni qapından, məni dərgahından əlboş, naümid qaytarma!

— De ki, Məhəmməd salavatullahın istəkli qızı, xanımlar xanımı, imam Həsən-Hüseyn anası, həzrəti-Fatimə özü göndərib məni bu dərgaha.

İndi də mətləbüvü aydın-açıq tut ürəyündə. De ki, mətləb qüslü eləyirəm, ya Allah...

Qonçabəyimin bütün o sözləri titrək dodaqları, çırpınan ürəyilə təkrarlayırdı. Ayağı altında teşt də istiydi, camlarda verilən su da soyuq deyildi, qədərincə istiydi. Amma nə hikiətdisə, yanaqları yandığı halda dodaqları göm-göy kəsilmişdi.

— Mətləb istəyirəm, ya Allah!

Yenə də üç dəfə tunc «qırxhaçar» camı ilə suyu əvvəlcə başına, sonra da sol və sağ çiyinlərinə endirdi.

— Şükür Allahın böyüklüyünə. Ayin bitdi, bala.

— Allah qəbul eləsin.

— Ağalar ağası, nəbilər nəbisi mətləbüvü versin.

— Verər inşaallah.

— Hələ bu dərgahdan, bu qapıdan, bu ocaqdan naümid qayıdan olmayıb.

— Doqquz aydan soora qucağındakı çağayla gəlib ağanın qurbanını kəsərsən.

Gülnigar qətifəni gətirib xanımının çiyninə saldı. Uzun hörüklərini qurulayıb, adəti üzrə alnına, ətəyinə mirvari və əşrəfi düzülmüş kimxa çutqunun içinə saldı... Xanımın yaş «uzunluğunu» dəyişib, geyindirməyə başladı. Adətən özü geyinən Qonçabəyim ayiilərin, deyilən sözlərin, xoş arzuların sehrinə elə dalmışdı ki, nə etdiyini, necə etdiyini-düşünmədən Gülnigarın hərəkətlərinə tabe olurdu.

Kişilərə məxsus olan «suaxan» və hücrələrdə ayinin Murad ağaya aid olan hissəsi icra olunurdu. Əsas məsələ doğum və qadınla bağlı olduğundai Molla İsa Murad ağanı başqa üsulla pakladı. Onun üçün də Qonçabəyimçün olduğu kimi, üç satıl su, tunc qırxaçar camı hazırlanmışdı. Amma Murad ağa suaxanda soyunmalı olmadı. Sadəcə onu alçaq bir kətil üstündə oturtdular. Üstünə başıqarışıq bədənini bütünlüklə örtən qalın bir örtük saldılar. Ayini anladıb icrasına girişdilər.

— Cənabət qüslü edirəm, vacib qürbətən illəllah...

Murad ağa Molla İsanın sözlərini təkrar etdikcə, mollanın köməkçisi cam dolu suyu onun başı və çiyinləri bəlirən yerlərə tökürdü. Su, Murad ağanın başını, sol və sağ çiynini örtən örtüyün üstündən axıb gedirdi.

— Peyğəmbər ziyarətinə gəlmişəm, ziyarət qüslu eləyirəm...

— Ziyarət qüslü eləyirəm...

Bu dəfə ikinci satıldan götürülən üç cam su Molla İsanın göstərişiylə Murad ağanın başı, sol və sağ çiyni üzərindən əlbəttə örtük üstündən axdı...

— İlahi, peyğəmbərimiz xatəmül-ənbiya qızı həzrət Fatimeyi-Zəhra tələbiylə gəldiyim bu dərgaha mətləbim var. Mətləb qüslü eləyirəm. Xudaya, qəbul eylə! Məni bu dərgahdan naümid qaytarma!

Murad, ağanın qəlbində sanki nəysə qırıldı:

— Məni bu dərgahdan naümid qaytarma!

Ayinin üçüncü hissəsi də icra olundu. Azacıq islanmış qalın örtüyü Murad ağanın üstündən götürdülər. Murad ağa əməllicə pörtmüşdü örtüyün altında. Qalxdı. Kisəsindən pul çıxarıb ayin icraçılarına payladı.

— Ağa mətləbüvü versin.

— Allah nəzrini qəbul eləsin.

— Bu nəzir deyil. O ayrı, bu ayrı.

Gecə düşdü. Onlarçün ayrılmış hücrəyə çəkildilər. Gülnigarın xususi səliqəylə sahmanladığı yataq bu gün onları həmişəki kimi naz-məhəbbətli, qəmzəli eşq oyununa çağırmırdı. Bir döyünən iki ürəkdə gündüzkü ayinin dilək, ümid dolu sözləri, ayələri dillənirdi. Kəlməyi şəhadətlərini dedilər. Demək olar ki, eyni anda yuxuya daldılar. Qəribə mö'cüzəsi olur insan xəyalının, insan təbiətinin. Hər ikisi eyni anda, eyni yuxu gördü. Murad ağanın yuxusu daha fəal olduğundan ondan başlayıram, əziz oxucum! Murad ağa gedirdi. Haradasa səhranın işıqlı dərinliyiiə doğru gedirdi. Qonçabəyim ondan bir qədər arxada gəlirdi. Murad ağa gəlib müqəddəs pir qəbri nə — gündüz hacət namazı qılarkən, məscidin ortasında görüb öpdüyü iri, qara daş məzara çatdı. Məzardan elə bir işıq, elə nurlu şüalar qalxırdı ki, Murad ağanın gözləri qamaşdı. Qıydı gözlərini, amma yummadı... Və... Və bu nur içindən iki ağ, zərif olduğu qədər də güclü görünən əl qalxdı. Balaca bir qundağı Murad ağaya uzatdı. Murad ağa ilk anda nə olduğunu anlaya bilmədi. Amma haradansa fəzanın dərinliyindən bir səs ucaldı: «Al, qismətindi, al!»

Murad ağa qundağı aldı. Qonçabəyimə verməkçün geri qanrılanda işıq yox oldu. Qonçabəyim artıq ona çatmışdı.

Murad ağa sağ əlinin baş barmağını ağzına soxmuş olan körpəni Qonçabəyimə uzatdı: «Al, dedi, qismətimizi verdilər. Qonçabəyim bircə kərə «Allah, sənə min şükür» deyib körpəni bağrına basdı.

Bir-birini sıx bağrına basmış, qan-tərə batmış iki sevən insan yuxudan oyandı. Hər ikisi eyni anda hıçıldadı:

— Yuxu görmüşəm...

— Mən də...

— Bizə...

— Qismət...

— Allah, sənə min şükür!

* * *

Doqquz ayın tamamına az qalmışdı. O şirin, o böyük, o dərin ümidlə peyğəmbər Cərcis qəbrindən dönən Qonçabəyim özündə heç bir dəyişiklik, heç bir əlamət görməyir, narahatlığı, həyəcanı gündən-günə artırdı. Xasiyyəti dəyişib tündləşir, az qala «can» deyənə də «çor» deyirdi. «Yanı peyğəmbər qızının da dediyi, növzənbillah, yalana çıxır?»

— Niyə belə tündləşirsən, canım?

— Neynim bəs? Çalım-oynayım? Doqquz ayın tamamına...

— Az qalıb?

— Bəs çox qalıb?

— Sən də ümidini itirib asiləşirsən?

O hekayətimizin əvvəlində gördüyümüz gözəlin yaraşıqlı sifəti elə dəyişmişdi ki... O gözlər gülmürdü. «Dindirmə, qan

ağlaram» deyən kirpiklərin hər birinin ucunda bircə gilə yaş yumurlanmışdı. Dəmə-dəmdi. Haya bənddi. Leysan yağacaqdı.

Murad ağa Günəşə çevrildi, buludları qovdu. Sevimli başı iki əlləri arasına alıb, bulaqlardan damaq «suları» içdi sanki:

— Canım! Amma mən doqquz ay yox ey. doqquz il də, gərək olsa, gözlərəm. Mən o möcüzəyə inanmışam.

— Möcüzə hardaydı?

— Bir gecədə, bir vaxtda ikimiz də gördüyümüz yuxu. O müqəddəs məzardan qalxan nurlu əllər... Mö'cüzə deyildi, nəydi!

— Bilmirəm. Bilmirəm! Ürəyim...

Qonçabəyim üzünü ərinin odlu dodaqlarından yayındıra-yayındıra pıçıldadı:

— Səbir kasam dolub, Murad.

— Allah eləməsin. Peyğəmbərlərimizdən Şis adlı birisi varmış. Qoçalanacan evladı olmur. Onun da səbri tükənir. Allahınsa səbri...

— Görürsənmi, peyğəmbərin də səbri tükənir. Mənsə heç peyğəmbərin qulu da deyiləm.

— Qulaq as! Şis peyğəmbər çox qoca yaşında yuxuda görür ki, ona deyirlər: get, filan dağda haça qaya var. Onun üstündə sənin qismətin olan qundağ yatır. Get götür. Şis gedib görür ki, bu bir daş bələkdir. Hövsələdən lap çıxır, «İlahi! Qoca yaşımda ələ salınmağımmı qalıbmış?» — deyib deyinir. Amma daş qundağı da haça qayanın üstündə qoymur. Qoltuğuna vurub gətirir, gizlicə boş samanlığa atıb qapısını bağlayır. Gedib yatır. Az sonra müridlər gəlib onu oyadır:

— Ya nəbi! Bağlı samanlıqdan uşaq ağlamağının səsi gəlir.

Şis gedib baxır, sol əlinin baş barmağını soran, ağzının hər iki tərəfindən süd axan uşıq görür. Səcdəyə düşür. Səbirsizliyi, inamını itirdiyi üçün Allahımızdan əfv diləyir... Və uşaqçün rəbbinə şükür, təşəkkür edir.

Qonçabəyimin ürəyində nəysə çevrildi sanki. Amma yenə də «şeytan» dedikləri o daxili düşüncə dilləndirdi onu:

— O Şis dediyii Allahın əzizi, peyğəmbəriydi.

— Nədən bilirsən ki, sən də Allahımızın əzizi deyilsən?

Qonçabəyimi gülmək tutdu. Özünü Allahın əzizi — peyğəmbərə tay görmək ona gülməli gəldi.

— Nər nəsə. O peyğəmbərdi.

— Bizi kimi Allah qullarının da başına belə xoşbaxtlıq quşu qonub.

Nağıl həvəsilə Qonçabəyimin gözlərinin yaşı çoxdan qurumuşdu. Ərinə, onun tükənməz hekayələrinə qulaq asmaq onunçun hər şeydən ləzzətliydi.

— O nə təhər olub elə?

— Bir or-arvadın çoxdan evladı olmurmuş. Ər bir dəfə karvanla növbəti ticarət səfərinə çıxanda arvada deyir:

— Baaax... 5—6 aya dönürəm. Əgər mən gələnəcən uşağın olmasa, səni öldürəcəm. Yooox, göndərəcəm dədən evinə. Bir ayrı döşü südlü arvad alacam. Yadında yaxşı saxla!

Kişn gedir, arvad qalır əlamanda. Uşaq nədi, heç pişik balası da yoxdu. Arvadın qulağı karvanın səsində. Altı ay keçir. Bir gün aralıdan karvanın gəlməyini görüb ölüm qorxusundan, tələsik bir yügrük düzəldib evin ortasından asır. Bir daşı da bələyib qoyur yügrüyün içinə. Kişi həyətə girəndə arvad örpəyini başına atıb çıxır:

— Hə, arvad, uşaq...

— Odey, yügrükdə.

Arvad ölüm qorxusuyla dəli-dolu ərini boza verib, atası evinə qaçmaqçün canhövlü vaxt qazanmaq istəyir.

Kişi içəri, arvad çölə...

Arvad aralıdakı dədəsi evinə qaçır, kişi elə bilir ki, arvad ərinin gəlməyini dədəsigilə xəbər verməyə qaçır. Kişi içəri girib görür ki, beşikdə xırdaca bir çağa ağlayır. Yügrüyün başına dolanır. Allah bütün arzulayanlara qismət eləsin...

— Amin.

— Hə. Uşaq cikkə çəkir, ağlayır. Kişi arvadın qarasına hirslənib deyinə-deyinə qapıya çıxır, bağırır:

- Ay Şeytan oğlunun qızı... Ay Şeytan toxumu! Yanı gəlməyimi dədəngil bir az gec bilsə ölərlər? Aaz, sənnənəm ey... Dayan ey! Aaaz, uşaq ağlamaqdan çatladı ki! Geri dönsənəm. Vallah hindica evə qayıdıb uşağı kiritməsən, gəlib dədəvin gözü qabağında səni kəsəcəm.

Arvad qaça-qaça uşaq sözü, sonra da kişinin hədələrini eşidib geri qayıdır... Və az əvvəl «Allahım, sən bilən məsləhətdi!» deyib yükrüyə qoyduğu daşı... yanı uşağı qucağına alır. Döşündən süd axır.

— Allah sən saxla! Həlbət ki, Allah bilən məsləhətdi.

— Qonçam, elə mən də sənə onu deyirəm. Səbrüvü itirmə! Ümidini o əlinin üstə əl olmayan Allaha bağla! Mən inanıram ki, O bizim qismətimizi verəcək.

Murad ağa Qonçabəyimi əməlli-başlı, ovundurub qalxdı, geyməsini çiyninə salıb atlara baxmaqçun tövlələrə sarı yönəldi. Onu görən baş mehtər ağasının ardınca düşdü.

X X X

Səfər Reyhanın yox olmasından gec xəbər tutdu. Yanı kim deyəcəkdi ki ona? Bir də nə baş vermişdi axı? Nökər və qulluqçular yaxşı bilirdi nə baş verib. Amma Şahnisə xanımın

qorxusundan heç kəs cınqırını da çıxartmırdı. Xanımın ən yaxın qulluqçusu da söz yayırdı ki, guya Gülsənəm. Şahnisə xanımıi yanına galib deyib: «Qızı atasıgillər tərəfdən istəyən var. Mən də onlarla olacam». Qızını da istəyib çıxıb gedib. Çəmən demişkən: «İnananın oğlu ölsün». Amma hər halda bütün qulluqçular, bu xəbəri danışırdı zahirdə. Xanımın qorxusundan ayrı söz deyən yoxuydu. Gecələr isə fağır Gülsənəmin dərdinn çəkənlər vardı. Hərə bayır-bacaq nökərlərindən nə eşidirdisə, onu danışırdı. Ən çox canı yanan və son şayiəni doğrultmağa çalışan Balaxanım arvad idi. Bədbaxtın balasının üstündən üz qarası bu yolla silinəydi bəlkə:

— Çəmən, çənvin boş yerinə salma. Xanım özü yaxşı bilir neynir.

— Neynirəm, ay arvad? Caramana car, kovxaya xəbər aparmıram ki!? Yanı deyirsən gözümnən görüb, qulağımnan eşitdiyim də yalandı? Neçə vaxtdan bəri bu qara oyunun oynandığını görmürük yanı? Onda bir ayrı dililən ağzımdan vururdu, indi bir ayrı...

— Ay Allahın bəndəsi, dilinmi gicişir? Sənə nə?

— Necə mənə nə? Bir gecədə iki iş yoldaşımız yox olub, bilməyəkii hardadılar, başlarına nə gəlib?

— İndi iş yoldaşın oldular?

— Hər nədi! Gədələr deyir nə izləri qalıb, nə tozları. Bəlkəm boğub çaya atıblar? Pişik balası kimi.
Daha pişik balasın öpüb gözləri üstünə qoymayacaqdılar ki?

— Başundan yekə danışma!

— Mən danışmıram. Danışanlar danışır. Bilənlər deyib. Hələ eləsi də var, deyir ki, Səfər ağanın öz əli də var, yox olmaqlarında.

— Biz xanımdan eşitdiyimizi deyəcəyik. Bizlik nə var? Elə şeysə olmaz. Şahnisə xanım zalım arvaddı, bu düz. Amma bir balasına Allahın qəzəbi, sədəmə toxunar deyin üç qana bais olmaz.

— Onu bir Allah bilir, bir də Şahnisə xanım.

— Əlbət ki, düzünü Allah bilir.

...Elə Səfər də xəbəri belə eşitdi. «Oğlu yox idi ki, ölə» odur ki, inanmadı. Qorxmağıyçün də əsas yoxuydu. Anası Şahnisə xanım elə bil oğlu Səfərlə görüşməkdən yayınırdı. Buna görə də Səfər anasını otağında tək yaxalayanda, hadisədən artıq beş gün keçmişdi.

— Hə. Pişik balasını neynədin, ana?

— Hansı pişik balası?

— Mənə yox da... Ana! Torbaya qoyub ağzını bağladın, ərişnən də bərk-bərk bağlayıb çayamı buraxdın?

— Bəsdi sən Allah!

— Allahdan qorxmadınmı, ana? Axı o işdə mən günahkaram. Mən məcbur eləmişəm onu!

Səfərin səsi titrədi.

— Deyirdim gec-tez başa düşərsən məni. İzin verərsən...

— Evlənəsizmi? Qapının kəniziynən?

— Kəniz adam deyil? Onu da Allah yaratmayıbmı?

— Mənə molla moizəsi oxuma! Olası iş deyildi. Mənə kənizin üzüqara qızından, zağalarda boğaz olan urvatsızdan gəlin olmazdı.

— Məndim səbəbkar. Məndim günahkar. Allahdan qorx!

— O nöş qorxmadı ismətini, namusunu, təmiz qız adını çölə atmaqdan? Qorumadı özünü?! Öləydi gərək.

— Bilmirəm, ana! Bilmirəm. Amma ürəyim mənə deyir ki, sən çox böyük xata iş tutmusan. Allah axırın...

— Nə xatasıdı? Gəldi anası, dedi: «qızı atasıgillərdən istəyən var. İzin verdım, haqqını da qoydum ovcuna, çıxdı getdi.

Şahnisə xanım Gülsənəmin götürmədiyi birmanatlığı deyirdi.

— O nağılları başqalarıyçun saxla, ana! Mən bildiyimi bilirəm. Axtarıb tapacam onu.

Sonra hirslə, anasının bircə, ərköyün balası kimi asta bir qəzəblə əlavə etdi:

— İstəsən də, istəməsən də... Tapacam onu. Qəbul elərsən, ollam sənnən, eləməzsən — çıxıb gedərəm. Dünya böyük, altı gən. Aparram lap dünyanın o başına. Sınsın o iki əl ki...

Bu asta qəzəbdə bir bağırtı, bir hədə vardı... Və bu hədə Şahnisə xanımı daxildən qorxuya saldısa da, arvad özünü o yerə qoymadı. Qarasına dedi:

— Axtar, axtar! Tapsan, sən deyəndi!

Səfər diksindi. Anasının sözündə, səsində bir qorxunc əmniyyət duydu:

— Onda öldürtdürmüsən, ikisini... üçünü. Ananı da, balasını da, onu da... Həmi? Üç qana batmısan, elədimi, ana?

— Axmaq-axmaq danışma! Dedim ki, kəniz özü getdi.

Səfər titrəyirdi. Bu titrəyişdə, gənc ömründə itirilmiş ilk dadlı məhəbbət də, ilk haqsızlıq da... Çox şey vardı. Döndü, qapını çırpıb gedərkən dedi:

— Allah eləsin ki, dediyin doğru çıxsın!

Şahnisə xanım otağında tək qaldı. İidi o təkcə ana idi. Varı-yoxu bircə balasıyçün dərindən-dərinə narahat olan ana.

— Aman Allah! Birdən Səfər o çəngilərin izinə düşər. Qancığın qarnından çıxan qoğalasıynan gedəni necə ovlayıb bir gör?! Nə çarə qılım, Allah? Bircə dədəsi səfərdən tez qayıtsaydı, məsləhətli don gen olar. Məsləhətləşib göndərərdik bir uzaq yerə. Çoxdan Tiflis arzusundadı. Fikri-xəyalı dağılardı. Lap nə qədər istəyir qalsın o yerlərdə, dözərəm. Təki bu xəyal başından çıxsın. Lap istəyir qalıb urusu oxusun. Təki burdan uzaşsın. Heç bu da sözdü sən Allah? Gül kimi, şəkil kimi.
paççah balası təki balovu ver əlünnən!.. Nədi, nədi, iş bilmişəm. Bir gədə qızını gətirib başıma böyük, evimə gəlin eləyəcəm? Elləri özümə güldürəcəm? Yanı «mahalda onnan gözəli yoxdumu?» deməzlərmi mənə? Soruşmazlar ki, «a bacı, a Şahnisə xanım, bu hansı dərənin tülküsünnən əmələ gəlib? Soyu-sopu kimdi? Qanuvu hansı itin qanınana qatmısan?» Nə deyərəm onlara? Cavad mahalında Səfər deyəndə «bozatlı oğlan» deyib neçə bəyin, hampanın qızı ah çəkir? Adı dillərdən düşmür şəkil balamın. O ərköyün bəy qızları balama mahnı da qoşublar. «Şatrı çarıq, sürmeyi bağ, boz çuxa yandırdı məni» demillərmi? Özü də bilir. Hərdən gülə-gülə zümzümə də eləyir...

Salman ağa hadisənin altıncı günü gəlib çıxdı. Düzdür, həyətdə, evdə, imarətdə elə bir dəyişiklik nəzərə çarpmırdı. Amma havada xoşagəlməz nəysə vardı. Səfər evdə yoxuydu. Burada təəccüblü nə vardı ki? Bozatlı oğlan ilin bu çağında kəklik ovuna getmirdimi? Buradan uzaq dağlardakı qayalara tərəf. Kəkliyin vurmalı, yeməli vaxtıydı. Bir tərəfdən bala uçuudub qurtarmış, o biri tərəfdən qanqalın çətənəsindən, artıq biçilmiş zəmilərdən arpa, buğda töküntüsü dənlənirdilər. Əməllicə kökəlib yağlanmışdı kəklik. Ağırlığından elə alçaqdan uçurdu ki!.. Göyə millənə bilmirdi. Salman ağa

«uşağı» kəklik ovunda bildi, həmişəki kimi. Amma ərlə arvadın gecə söhbətindən sonra Salman ağa zahiri təmkində Səfəri axtarıb tapmağı, onun qulluğuna göndərməyi xas nökərindən tələb etdi. Səfər hadisənin səkkizinci günü tapılıb gəldi. Atasının otağına, girib Salman ağayla üzbəüz diz üstündə əyləşdi. Əyilib atasının ona uzatdığı əlini öpdü:

— Şükür Allaha, səfəriniz xətərsiz keçib.

— Hə. Şükür Allaha. Amma qayıdan baş yol uzunu sənin xahişinə götür-qoy eləmişəm.

Səfər diksinən kimi oldu:

— Hansı xahişimi, ata?

— Tiflisə... Oxumağa getmək arzunu.

Səfər otağın dərinliyində qabağındakı boxçada nəysə açıb-bükən anasına oğrun bir nəzər saldı. Başa düşürdü ki, bu tezlikdə, elə yoldan gələr-gəlməz Salman ağanı bu fikrə gətirən Şahnisə xanımdır. Onun qurğusudur bu. Bir söz demədi. Bir an hirsdən boğuldu, iki gün idi ətraf kəndlərdə axtarmamış yer qoymamışdı. Nə iz, nə iriz. Nə səs, nə səmir. O biri tərəfdən sevindi Səfər. Tiflisə, oxumağa getmək çoxdankı arzusuydu. Bu yerləri, o incə, o dadlı məhəbbəti unutmaq olmasa da, heç olmasa bir müddətə gözündən, könlündən uzaqlaşardı. Əlbəttə Salman ağa Şahnisə xanım, deyildi. Ata-oğul, aralarında pərdə vardı. Başını sinəsinə əyib, razılıq əlaməti olaraq bir də özünə uzadılan ata əlini öpdü.

Deyəsən axır günlərdə birinci dəfəydi ki, Şahnisə xanım sakit yata bildi.

O birisi gün yuxudan oyananda Səfər ağanın al-obaşdandan çıxıb getdiyini öyrəndi. Anasıyla vidalaşmamışdı belə.

* * *

— Yer ayrılıb yerdən çıxmamışıq. Anaqız bacı! Rəhmətlik Baxtıkəmin anası, ağrabası Şamaxı tərəflərdədi. Şamaxının özündədimi, Məlhəmdədimi, Xınısdıdadımı — yaxşı bilmirəm. Get-gəlimiz olmayıb. Amma rəhmətlik deyərdi Şamaxının İmamlı məhəlləsində evləri, anasımı, bacısımı var. Mənim öz batmışlarım mən körpəykən köçüb dünyadan. Heççə biri qalmayıb. Əmidən, dayıdan, xaladan, bibidən yoxdu ki, dar gündə, dar macalda qolumdan tuta. Görünür Baxtıkəmin də, mənim də elə dədəmiz də, nənəmiz də o ruhlar vaxtından sən olmusan. Yerimizə, əvəzimizə böyük Allaha sən «hə» demisən. Allah imanunu kamil eləsin.

— Qızım, indi daha bunların deyiləsi vaxtı deyil. Söz yox son qalassan mənnən. Əlimnən gələni öyrədəcəm Ot-ələf tanıdacam. Dünyada heç bir şey baqi deyil, qızım! Məndən soora öyrətdiklərim xeyrinə gələr. Qaldı qız: Allah irasta salsın, salamat qurtarsın, ikisinə də elə əncam çəkəcəm ki, nə diş biləcək, nə dodaq. Qızın elə indidən öz adını dəyişmək lazımdı.

«Reyhan... Baxtıkəmin qoyduğu ətirli ad dəyişməlidi.»

— Bir az elə aladəyişik olsa yaxşıdı. Gözə, qulağa çarpmayan. Bəsdidən, Osandığdan, Qızbəsdən, Oğlangərək dən, Qıztamamdan... Nəysə bax, gör, bala, özün özünə de səbəbini...

— Biz deyəndən, biz məsləhət biləndən sonra özü nə deyəcək? Ağzı nədi? Nə salahdı — sən bilirsən.

— Hələ bir qoy yükünü yerə qoysun. Qalan məsləhəti soora eləyərik. İndilik ona de ki, elə mən də bala-bala, sözarası qandırram. Deyirəm adını da mənə tutaş Tıztamam dəyişək. Bu ad altında heç kəs Reyhan axtarmaz. Axtarsa tapa da bilməz. Nə deyirsən?

— Nə deyəcəm? Sən bilən məsləhətdi.

...Ağrıları axşam başladı. Cavan, sağlam qız həm də ki, həmişə ağırlı-yüngüllü işdə olmuşdu. Piy basıb bərkiməmişdi. Çox asan, çox da tez azad oldu Reyhan, dünyaya xırdaca bir qızcığaz gətirdi tezlikdə. Xoş gəldin dünyaya İNSAN! Xoş gəldin dinimizə Məhəmməd ümməti!

— Pay atonnan! Qız Qıztamam dedik anası batmışa. Biri də böyürdən çıxdı. Sağ gəlməmiş... Allah oğul versəydi heç olmasa...

— Elə demə! Allahım talahın versin. Dünyaya insan gəlib, Məhəmməd ümməti gəlib. Allah özü yazsın baxtını baxtlılar ayağından.

Gülsənəm «şunu götür, şunu qoy»la məşğuldu. Anaqız ana çağanı yaxşıca çimizdirdi. Ürəyində tutduğu məqsədə uyğun hazırladığı ləçək, papaq, əskilər, çağa köynəyilə geyindirdi. Bələdi. Yaxşı yorğançaya bükdü. Alnına ocaq qarası vurmağı belə unutmadı. Sonra bütün bu işlərdən xəbərsiz, zahı yatağında uzanmış Reyhana — Qıztamama tərəf baxdı və Gülsənəmə dedi,

— Bala, yağın, unun, ədavanın yerini bilirsən. Qızçın quymaq çal. Döşlərini də indidən möhkəm sarıtdır ki, süd gəlməsin, gəlsə də tez qayıtsın. Mən də öz işimi görüb dönəcəm. Bəlkəm bir az kec qaldım. Gecə yarıdan ötənəcən nigaran qalma məndən. Qonşu kəndlərdən birində gecələdim bəlkə. O tərəflərdə azarlım da var. Dəyməliyəm. Sabah görüşərik inşaallah. Quymağı yaddan çıxartma!

Qapıdan çıxarkən bir daha təkrarladı. Qucağındakı çağanı adicə bir bala a boğça bilərdin. Arvadı belə boğça qucağında, dağlardan, çellərdən dava-dərmançun otlar, çiçəklər yığan görmüşdülər... O qədər adi idi ki, o qədər belə qucağı boğçalı görmüşdülər ki. Heç kəs, heç nədən şübhələnə bilməzdi.

Anaqız gecənin qaranlığında yox olub əriyənəcən, gözlərindən sel kimi yaş axan Gülsənəm onun ardınca baxdı. Bu aparılan onun ilk nəvəsiydi. Üzünü, belə görmədi. Bu onun qızının başına gətirilən bəla idi. Başından Oldu. Anaqız hara getdi, kimi qaralamışdı? Allah axirətinn versin, dərd bilən adamdı.

İllər idi ki, Anaqız Qonçabəyimə türkəçarə eləyirdi. Bildiyi ən küclü otlar, çiçəklər, ədviyyat, mazılar kar eləmirdi. Təcrübəli mamaça cavan gəlinin bədənini evirib-çevirir, yoxlayır, belin «çəkir»di. Fayda yoxdu. Axırda arvad helmilə anladı ki, taxsır gəlində deyil. Ya ərindəndi, ya da Allah istəyə gərək verə. Anaqız Qonçabəyimin gül kimi canından əl götürüb fikrini kişisinə verdi. Murad ağa üçün də güclü məcunlar hazırlayır, bal, ədviyyat. Hind qozu ovxantısı, yumurta... Qərəz bu da kar eləməyəndə yavaş-yavaş Qonçabayimin qulağını doldurdu ki, gərək olan hər şey elənib. Axırı bir olan Allaha qalıb: «Sidqini dürüst elə. Ürəyini ONA bağla!».

Reyhanın taleyini, çağanın gələcəyini düşünəndən bəri qət etmişdi ki, uşağı onlara verəcək. Hər ikisi Allah adamıdı. Ər də arvad da. Sağırı sinsitməzlər. Amma bu işi əlbəl görə bilməzdi. Onda «kim, harda, neyçün?» sualları meydana çıxar. İşin üstü açılar. Murad ağayla Salman ağa bir-birini yaxşı tanımır, get-gəlləri yoxdu. Bir-birindən 15—20 verst aralı məsafədə yaşayırlar. Odur ki, Anaqız gecənin xəlvətinə salıb, düz doğru Murad ağanın imarətinə yollandı...

...Murad ağa Qonçabəyimi ovundurub baş mehtərlə birlikdə tövlələri yoxlayandan xeyli sonra evə qayıdırdı. Mehtərə «gecən xeyrə qalsın» deyib azacıq açıq havada gəzişir, Qonçabəyimin əzablı iniltilərini düşünürdü. Anaqızın eyhamlarından özünün günahkar olduğunu bildiyindən daha çox xəcalət çəkirdi. Bəzi qohum və dostların məsləhətilə ikinci

bir arvad almaq və ya özünü sınamaqçün siğə etmək fikrini başından qovur, ürəkdən, candan sevdiyi Qonçabəyimin yaralı qəlbinə bir yara da vurmaq istəmirdi. Birdən ona elə gəldi ki, yuxu görür, oyaq, gəzişdiyi vaxtda qulağına çağa səsi gəlir.

— Bismillahirrəhmanirrəhim. Yoxsa başım xarab olub?

Salavat çevirdi. Özünə təskinlik vermək istədi. Amma yooox. Uşaq ağlaması gücləndi... Və Murad ağa bu səsi tutub getdi. Pəncərənin altında bükülü bir şey qaralırdı. Əyildi. Bələkdi qundaqdı! Qaldırdı. İlahi: Çağa o saat səsiii kəsdi. Qundağı bağrına basdı. Körpə ətrini, ömründə dadmadığı bu dadlı ətri ciyərlərinə çəkdi. Qonçabəyim indi yadına düşdü. Uşaq ağlartısı unutdurmuşdu xanımını. Qapıya tərəf tələsdi.

Xeyli aralıda bir qaraltı da dönüb imarətdən uzaqlaşdı. Anaqız anaydı. Uşağın it-pişik, qurt-quş yemi olmadığını, İnsan əlinə keçdiyini görüb rahat nəfəs aldı və evinə tərəf üz tutdu.

Murad ağa dizləri, əlləri, ürəyi əsə-əsə içəri girdi:

— Qo... qo... Qonça!

— Murad ağa gəldin? Nədi ki?..

— Gəldim canım! Gör Allahımız bizə nə göndərib?!

Qonçabəyim ərinin səsindəki həyəcanı, titrəyişi indi duydu. Qarşısına yüyürdü. Yarımqaranlıq otaqda Murad ağa sanki nur saçırdı. Əlindəki qundağı Qonçabəyimin acılı qolları üstünə qoyub boğazı tutula-tutula dedi:

— Allah göndərən paydı, Qonça!

— Qonçabəyim qundaqqarışıq diz çökdü. Dizləri onu saxlamırdı. Bir az əvvəl Murad ağanın danışdığı hekayətlərin möcüzəsindən hələ tamam çıxmamışdı...

...El içində yayıldı ki, Murad. ağa Qonçabəyimdən əli üzülsə də onun xətrinə dəyməyib. İstəkli gözəl arvadının üstünə arvad almayıb. Evini söz-sovlu eləməyib. Hardasa kəndlərdən

birində  vaxtilə döşü südlü olmuş dul bir arvad tapıb, siğə elətdirib, uşaq doğulan  kimi alıb gətirib evinə. Düzü bu xəbəri nə Murad ağa, nə də Qonçabəyim inkar etdi. Hər ikisi sözsüz bir razılıqla «əsil-nəsil» axtara bilənlərə cavab verən bu şayiəli xəbəri zahiri sükunətləriylə təsdiq edirdi.

Dantışırdılar ki, uşaq tapılan gündən zarafat-zarafat Qonçabəyimin döşünə süd gəlib! Təəççüb eləyən yoxudu.

— Allahdandı.

— Hövəsdəndi, deyillər həvəsdən belə şey olur.

Molla çağırıldı. Məclis quruldu. El adətincə Gülnigar məcməidə qayçı gətirdi. Əvvəlcə Qonçabəyimin, sonra da Murad ağanın köynəyinin yaxasına cız qoyuldu. Xanım və ağa həmin cızı hər iki tərəfdən dartıb yaxalarını geniş açdılar. Güllü yorğan arasından bələk çıxarıldı. Sakit-sakit ətrafına, işığa mənasız gözlərlə baxan qızcığazı əvvəlcə Qonçabəyim, sonra da Murad ağa yaxasından keçirdi. Çağanı qaytarıb güllü yorğan arasına qoydular. Yer-yerdən Murad ağanın, Qonçabəyimin qohumları, dostları mübarək deyə-deyə hədiyyələr verməyə başladılar.

— Allah mübarək eləsin!

— Qayım, qədim...

— Əlinizdə-ovcunuzda böyüsün.

— Allah yaşın versin.

— Baxtın, talahın yaxşılardan yazsın.

— Toyunu eləyəsiz.

— Nəvə görəsiz.

Çağanın kimxay üzlüklü üst papağının üstünə aypara, pəncə, kəsmə, qızıl bəzək əşyaları sancmağa başladılar. Bələkbağısına gözmuncuğu, kəhrəba, şəvə, əqiq, yağbal, babaqulu, nədri pul, qulplatdırılmış qızıl beşlik, onluq kimi

gözqaytaran, uşağa xeyri dəyən muncuqlar, dağdağan parçası taxdılar.

Murad ağa kişilər oturan otağa keçdi. Üzü gülürdü. Burada da təbriklər başlandı:

— Qayınata olasan... Baba olasan.

— Mübarəkdi, əlində böyüsün.

Molla öskürüb özünü yada saldı. Vaxtın çatdığını bildirib dedi:

— Murad ağa, bəs qızımızın adı nə olacaq? Qulağına, çəkəm gərək.

Düşünməmişdi. Ağlına elə qəfil gəldi. Ara qapıya keçdi. İşarəylə Qonçabəyimi yanına çağırdı:

— Qonçam, molla ad soruşur, nə qoyaq?

— Sən istəyəni.

— Onda sən Qopçam, o açılan gülüm. Qoy Güllər olsun adı.

— Razıyam. Çox gözəl.

— Onda qızı bəri elə.

Qundağı kişilər məclisinə gətirdilər. Hər iki otağa dərin hörmət sükutu çökdü. Qapılar aralıydı. Kişilərin otağında nə baş verirdisə qadınlar da eşidirdi.

Molla uşağı qucağına aldı. Əvvəlcə üç dəfə çağanın qulağına kəlməyi-şəhadət dedi. Sonra on iki imamın adlarını saydı, dedi:

— Ay Müslimə bala! Sənin adın oldu Güllər.. Güllər, Güllər! Allah ata-anana çox görməsin səni.

Məclis yer-yerdən səsləndi:

— Adanı biz verdik, yaşını, ömrünü, talahını o böyük Xaliq, o böyük Yaradan versin.

Səsdənmi diksindi, ağladı Güllər? Ömründə kişilər məclisində birinci dəfəydi ki, səs çıxarırdı. Sonra?.. Sonrasını Allah bilir! Darıxmasaq, onu da biləcəyik.

Güllər xanımın dünyaya gəldiyi gün, onun gəlişinə hələ gündüz on iki imam adına on iki qurban kəsilib paylanmışdı. İndiysə qonaqlar üçün öyəclər, şişəklər, toğlular kəsilmişdi. Kababın iyi damağlara dad, iştah gətirirdi. Yoldan ötənin ətəyindən tutub saxlayırdı. Şülən başlandı.

* * *

Anaqız arvad xəstənin yanında elə əyləşmişdi ki, İsrafillə göz-gözə ola bilsin. İsrafil arıq, qara bir kişiydi. Çoxdandı ki, sətəlcəmdən sonra ayılıb əməllibaşlı özünə gələ bilmirdi. İki il irəli arvadı «uzun azar»dan ölmüşdü. Üç xırda uşaqla: iki oğlan, bir qız uşağıyla çənçiyib qalmışdı kişi. Üç xırda yetim üstünə arvad tapmaq çox çətindi. Xüsusən də kasıb olasan. İmkanlılar üç-dördünü yan-yana düzəndə İsrafil artıq «dulu» hardan tapacaqdı? Azdan-çoxdan əli işləyirdi. Balıqçılarçın tor toxuyurdu. Bir parça çörəyi vardı. Amma bir yandan uşaqlara göz olmaq, yedirib-içirmək, bir yandan çöl işi, bir yandan da bu zəhrimar azar qurtarmaq, kişi sağalmaq bilmirdi. Əhdini kəsmişdi kişinin.

Anaqız gətirdiyi məcun piyalasını xəstənin balışı ucuna qoyub dedi:

— Çoxdandı ki, mənə baş yoldaşı, arvad məsələsini deyib dururdun. İndi sənə xoş xəbərnən gəlmişəm.

İsrafil qəfil sevincdən boğuldu sanki, yox... Dirçəldi. Yatağında qalxdı, amma öskürək tutduğundan danışa bilmədi. Anaqız danladı onu:

— Bir aramın olsun. Ala bu davadan bir qaşıq iç! Dalın soora danışarıq.

Öskürək kəsdi, kişi yastığına yaslandı:

— Yaxşı, mən dillənmirəm. Uşaqlara görə sevindim. Sən danış.

— Hə... İki iliydi ki, gəlin rəhmətə gedəndən bəri gözüm ovçuydu. Qulağım səsdəydi. Harda bir münasib külfət tapım səniyçün. Balalarını öz əlimnən tutmuşam. Gözü kölkəli görə bilmirəm onları. İllah da ki, sən azarrayanı. Bir ayağım gəlirdi, bir ayağım gəlmirdi, anasızlara görə. Mən uzaqlarda axtarırdım onlara ananı, sənə külfəti. Amma sən saydığını qoy dursun, gör fələk nə sayır. Bacım nəvəsinin bir il bundan irəli toyu olmuşdu. O qışdakı tufanda bir neçə cavan balıqçı qocaların dediyi əlamətə qulaq vermir. «Tez, tufan başlayanacan torları yığıb qayıdarıq» deyib çıxıllar dənizə... Əlbəttə ki, qayıtmırlar. Mənim bədbaxt bacım nəvəsi də bir altı ayın gəlini qaldı dul. Qaynı yoxuydu ki, ona götürələr. Qıztamam məcbur oldu qayıtdı nənəsi evinə. Ata yox, ana da ki... Qərəz əgəm razılığın olsa... İstəmirəm tanımadığım, bilmədiyim nayinsafın birinə tuş ola... Arvad üstə, günülü ola...

İsrafil sevinc içində bağırdı:

— Ana, ay ana! Belə xeyir işçün ayağından öpüm — genə azdı. Heç razılığım lazımdı sənə? Nə vaxt?

— Bir az özünə gəl...

— Ay hay.

— Qıztamamı özümnən gətirmişəm. Hələlik uşaqlara baxsın, biş-düş eləsin ki, sən bir az özünə gələsən. Onsuz da əli kösöv olub, saçı süpürgə. Allah heç qızı ər evindən ata evinə qaytarmasın, gözdustağı eləməsin.

İsrafilin gözləri doldu. Anaqızın əlindən tutub öpdu:

— Çox sağ ol, ana, ölüncən qulunam. Sən ki, məni...

— Oğlumsan. Allah tezliklə sənə şəfa versin. İndi də ki, qohum oluruq.

— Çox sağ ol, ana! — İsrafil sevinc və minnətdarlığını bildirməkçün ayrı söz tapa bilmirdi.

Bir neçə gün sonra Mahmudabad kəndinin mollası İsrafilin evinç dəvət olundu. Burada qəribə bir məclis qurulmuşdu. Bir tərəfdə nisbətən babatlaşmış, dirçəlmiş İsrafil yatacağının içində bardaş qirub oturmuş
du. Anaqız da onun yatağının baş ucunda əyləşmişdi.

Otağın o biri başında Qıztamam—Reyhan yaşmaqlanıb oturmuşdu. Üç gündən bəri analıq eləyib üst-başlarını yuduğu, təmizlədiyi, yedirdib-içirdib yatırtdığı, qoynuna sığınana yavaş-yavaş laylay çaldığı üç yetimin əhatəsindəydi. Molla boğazını arıtlayıb bu fağır, «sidr-kafir» iyi gələn evdən tez çıxıb getməkçün kəbin ayələrinn tələm-tələsik oxuyurdu.

Anaqız dizinin birini sinəsi bərabərinə büküb oturmuşudu. Sol əlini dirsəkdən büküb bu dizə dayamışdı. Ürəyində sükunət vardı. Bir fağır İsrafili əzabdan qurtarmışdı. Üç «diri yetimə» ana gətirmişdi. Başlıcası Baxtıkəmin Qıztamama çevrilmiş Reyhan qızını üz qaralığından qurtarıb, iztehzadan, təhqirdən xilas eləmişdi. Abırlı bir ailənin gəliniydi indi Reyhan. Ruhun şad olsun Bəxtiyar-Baxtıkəm. Ürəyin sükunət tapsın Gülsənəm. Öz doğduğu ilkinin harada, kimin ocağı başında olduğunu bilməyən, soruşmağa, xatirə salmağa belə cürət etməyən Reyhan-Qıztamam indi üç uşağın, iki oğul, bir qız balanın anasıydı.

Dünyanın belə-belə işləri də olur, əziz oxucum. O qədər işığın sonu qaranlıq, o qədər qaranlığın sonu işıq olub ki! Elə

indi də olur. Biz də ümid edək. Bəlkə bir gün: «Qapını bağlayan kişi, bir gün açar, ağlama!».

* * *

Səfərçün zaman çox sürətlə keçmişdi. Bir də gözünü açıb gördü ki, otuzbeş yaşa qədəm qoyur. Hələ o vaxt Tiflisdə mal həkimi kurslarını bitirib qayıdandan sonra, Şahnisə xanım onu öz səliqəsilə evləndirib. Dilli-tavazalı Nəsimə adında bir bəy qızı — bəy balası gətirib evinə. Heç il keçə-keçməyə Şahnisə xanım nənə oldu, Əvvəlcə babanın adını qoyduqları Salman dünyaya gəldi. Bir iki il sonra da Şahnisə xanım öz adını verdiyi qızcığaz göz açdı dünyamıza. Qonşular, dostlar, qohumlar bu əcayib işə heyran oldular:

— Aaaaz Şahnisə, bu nədi diri-diri kişi fağırın, özünün adlarınızı qoyursan uşaqlara? Ad başuva qəhətdi?

— Baba-nənə adlarını dirildəydii noolardı?

Yaxın rəfiqələrindən öcəşən də oldu:

— Aaaz ölərdün sonrakı uşaqlara adını verədilər. Bir fağır mollaya Quran oxudardılar sənin ruhunçun. Xeyirverməzsən...

— Ölü adının düşər-düşməzi olur. Bir də görürsən rəhmətlik ad vermədi. Uşaq basıldı. Gərək adı dəyişəsən. Ya da əlini uzadıb çağanı çəkdi yanına.

— Ha-ha-ha...

— Gülərsiz, gülərsiz... Az görməmişək bu dünyanın işdəklərini. Mən biləsi elə bu yaxşıdı. Gözüm görə-görə.

Səfər gənc qadını Nəsiməni sevib-sevmədiyini bilmirdi. Heç bu barədə düşünmürdü də. Adətdi. Evləndirmişdilər — yaşayırdı. Arvadının qayğıkeşliyini də adi hal kimi qəbul eləyirdi. Əslində Səfər uşaqlarına qarşı da soyuqdu. Əvvələn böyüklər duran yerdə o, qucağına körpə ala bilməz, dindirib

danışdırmazdı. Uşqlar böyüdükcə ona sırmanıb bir şey istəyəndə deyirdi:

— Ge nənənnən (ya babandan) istə!

İndi balaca Salman on üç yaşında, boylu-buxunlu oğlandı. Hərdən gözdən oğurlandıb atasının atını мInirdi. Səfər qonşu kəndlərdən, iş üstündən qayıdanda atın cilovunu mehtərdən əvvəl cuman Salmana verir üzünə baxmadan deyirdi:

— Bir az gəzdir, təri soyusun. Sonra yəhərini aldır, Yalınqat apar sula, qaytar gətir. Uzağa getmə!

Kiçik Şahnisə nənəsinin dizinin üstündə böyüyüb on yaşa çatmışdı. Hamının Şahı çağırdığı qız gözəllikdə anasına, boy-buxunda atasına çəkiişdi. Hələ qızlar bulağından su içməyinə xeyli qalsa da, indidən adlı-sanlı gözəl olacağı bilinirdi.

Birdən bu sakit evə bir narahatlıq daxil oldu. Qızın doğuluşundan sonra qəflətən ağır qış günlərində çox ağır sətəlcəmə tutulan Nəsimə güclə yaza çıxdı. Amma bu Nəsimə o gəlin Nəsimə deyildi.

— Deyicinin dili qurusun. Pis gözə mil batsın. Nə gəldi gəlinə? Hardan gəldi bəlası? Gül kimi gəlin göz görə-görə solur. Yeməkdən yeməyi kəm deyil. Allah oğuldan oğul, qız payından qız payı verib. Qabağında sərdar əri. Deyəni yox, diyşəyəni yox. Burdan dur, orda otur deyəni yox. Bu yaman gözə yaman çıxsın. Yaman yara...

Dörd yol ayrıcından, darvazanın qənşərindən torpaq götürdülər, başına dolandırdılar, alnına vurdular. Hər gələn qonağın, qohumun paltarından açıq, gizli bir sap çıxardıb çilləsini kəsdilər. Duz-üzərlik qalmadı, atil-batnl qalmadı — yandırdılar. Pir qalmadı aparılmasın. Evliya qalmadı nəzir deyilməsin. Anaqızçun araba göndərdilər. Daha yeriyə bilmirdi arvad. Çox qocalmışdı.

— Tay-tuşumdan eldə, mahalda bir mən qalmışam. Allah hələ ki, çağırmır məni — deyirdi.

— Allahın nəyinə gərəksən, ay arvad? Yerdəkilərə lazımsan. Odu ki, dəymir Əzrahıl sənə. — deyirdi Şahnisə kimilər.

Anaqız gəldi. Gətirdiyi ot-ələfdən, ədvalardan məcun düzəltdi. Yeməyin qaydasını öyrətdi. Amma Şahnisə xanımla təkbətək qalanda dedi:

— Şahnisə xanım, gəlininki uzun azardı. Soyuqdəymədən qalıb canında. Əhdini kəsib. Gəlin gedəridi. Haçanın Allah bilir.

Doğrudan da gəlin quruyub qəfəsə dönmüşdü. Bir il də qan qusa-qusa süründü, bu dünyada. Yaşamadı — süründü. Çünki bu artıq yaşayış deyildi. Gündə, göz qabağında bir parça ölürdü. O biri bahardan çıxa bilmədi. Özü cançəkiə əzabından, ətrafındakılar görə-görə heç bir yardım edə bilməmək, yalnız gəlinin halına yanmaq əzabından qurtardı. İli çıxdı gəlinin. Şahnisə xanım yenidən oğlunu evləidirmək arzusuyla onun «ağzını aradı»:

— Allaha bax, tanrıya bax, oğul! — dedi. — hamının başına gələ bilən işdi. Belə boşuna yüyürüb-yortmaqdan bir şey çıxmaz. Əri ölən ərə gedər, arvadı ölən arvad alar. Dünya qurumayıb. Qoy bir halal süd əmmiş...

Şahnisə xanım bütün yalvarışlarına, dəlil-sübutlarına kəsə bir cavab aldı:

— Bəsdi, ana! Bu söhbətə bir də qayıtma! Gərək olsa özüm deyərəm.

Eldə-elatda gəzirdi Səfər. Əvvəlki həvəsi sönməmişdi. Gözəl atlar alıb minirdi. Deyirdi:

— Minməyə səmənd madyan, yal-quyruğu ağ olmasa. Erkək at seçərdi, döl tutmayacam, at alıb satmayacam. Təki altımdakı at ürəyimcən olsun.

Tez-tez harada yaxşı at sorağı eşitsə gedir, sevib-seçib bəyənir, alıb gətirirdi. Atına özü qulluq etməkdən zövq alırdı. Mehtərin xəlbirdə gətirdiyi arpanı diqqətlə gözdən keçirməmiş, axura tökdürmürdü. Mehtər ata qaşov çəkəndə, sankı qısqanırdı, bəzən alıb qaşovu özü çəkir, son tozunu məxmərlə götürürdü. Bəzən ata kişmişdən, başqa şirniyyatdan verirdi. Atları həmişə gümrah olurdu.

Bir dəfə nədənsə sevdiyi, gündəlik mindiyi at əvvəlcə bədnallıq eləməyə başladı. Sonra mehtərə əl vermədi. Yəhərə çətin gəlirdi. Ara-bir büdrədiyi də olurdu. Odur ki, Səfər yaxşı at sorağına düşdü. Ona dedilər ki, Qaradonlu tərəflərdə Murad ağa adında bir sahibkar var. Var-dövlatiylə nökər-nayıb məşğul olur. Özüysə gözəl, cins atlar aşiqidi, saxlayır, cinsləşdirir. Yeri, yaxşı alıcı düşəndə, xoşuna gələn müştəri çıxanda satır da. Atcıl adamdır.

Səfərin meyli Qaradonluya düşdü. Cavad qəzasındakı rəsmi işlərini səhmana salıb, səfərə hazırlaşdı. Yol üçün Balaxanım nənəyə halva çaldırdı. Lap istəyirsən bir on beş gün bu halvanı yığ bərniyə, ağzını sələlə, qoy heybəyə — qurumurdu, dadın-tamın, ətrin, ləzzətin itirmirdi, ye özünçün. Elə yuxanı da, nə hikiətsə, əmisi arvadının bişirdiyi acıtmalı yuxalar az qala bir həftədən də çox qalırdı, kiflənmirdi, qurumurdu. Bir azacıq halvadan bas içinə dürmənc elə, sür atını, dadı dad, zəfəranın qüvvəti də öz yerində. Mədəyə də ağırlıq gətirmir.

Qədim karvançılar, daha doğrusu Ərəbistana səyahətdən təcrübə qazanmış sarvanlarsayağı qumqumasını tünd, şirin

çayla doldurtdurdu. Bunun bircə qurtumu rütubəti bədəndə saxlayır, çox su içməyə ehtiyac qalmır — deyirdilər.

Səfər elə hazırlıq görürdü ki, Şahnisə xanım duyuq belə düşmədi. Arvad sonralar: «Qayın xatını—xayın xatını. Bəxtəvər əmdostusuna sir-sözü məndən artıqdı» deyərdi.

Səfər dan üzü çıxdı səfərə. Özüylə nə nökər, nə mehtər götürdü. Xas nökərə ata-anasına salam yetirməyi, at almaqçın Qaradonlu tərəflərə yollandığını, güman ki, ayın başına qayıdacağını xəbər verməyi tapşırdı:

— Deyin nigaran qalmasınlar.

Doğrusu Qaradonluya çatanda heç yol yorğununa oxşamırdı. Tələsməmişdi. Köhlənini qovub, at bağrı çat latmamışdı. Ata qamçı çalmamışdı. Hara tələsirdi ki? Nəmər dalınca cummurdu. Yarım günlük yolu bir günə qət etmişdi. Yolunun üstünə karvansara çıxmışdısa, əməlli hücrədə, əməllicə dincəlməmişdi. Ovdan başında karvançılarla gecələdiyi, karvan nağılçılarının söylədiyi rəzayətləri, əfsanələri dinlədiyi olmuşdu. Qaradonluda karvansaraya düşməklə işi tamamladı. Təmiz yuyundu, adına, iş-gücünə layıq paltar geyindi. Gün günortaya xeyli qalmış soraqlaşdı, bələdçi götürüb Murad ağanın imarətinə gəldi. Darvaza ağzında qonağın məqsədini öyrənən xas nökər, ağanın xüsusi cıdır meydanını nişan verdi.
Cıdır meydanında şirin məşq gedirdi. Təlimçinin nəzarəti altında cavan bir minici boz rəngli, ağ, alma nişanları olan bir atı çapırdı. Gah şaha qaldırır, gah yorğa, gah dördəmə yürüməyə məcbur edirdi. Murad ağa özü də burada, təlimçiylə yanaşı durmuşdu. Əslində əmrləri o özü verirdi. Elə cavan minici də təlimçiyə çox məhəl qoymadan Murad ağanı dinləyirdi. Qızğın, dairəvi, dördəmə çapışdan sonra cavan sürücü Murad ağanın qarşısında qəfil atı saxladı. Cilovu

təlimçiyə tullayıb düz Murad ağanın qolları arasına atıldı. Səfər heyrətə belə macal tapmadı. Çünki... çünki... Çünki bu anda tarix dayandı. Yox! Yox! Yox, dayanmadı! Fələyin çarxı geriyə — tərsinə fırlanmağa başladı... Və... İgirmi il əvvəl Salman ağaya məxsus saman dllu zağalardan birində dayandı. 15—16 yaşlı Reyhan gülümsəyirdi. Həyacandan beləcə qızarmışdı, qorxudan, həyadan beləcə pörtmüşdü. Al, gülümsər dodaqları beləcə nəyəsə, nəysə pıçıldayırdı. Səfər sözləri eşitmirdi. Onda da, indi də. Titrək barmaqlara toxunduqca dünyanın bütün səsləri, sözləri təkcə iki ürəyin bir ahənglə tappıltısına çevrilmişdi. Səfər onda da, indi də dünyanın bütün gözəlliklərinp unutmuş, onların hamısı o gülümsər qara gözlərdə, o kölgəli, Allahdan sürməli kirpiklərdə cəmlənmişdi. İndi Səfər o «zağalı günlərdən» 20 iləcən vaxt keçdiyini unutmuşdu. Bu anla yaşayırdı. Bu anla nəfəs alırdı. Unutmuşdu ki, illərlə evlilik həyatı yaşayıb, Nəsimə gəlin ona oğuldan oğul, qızdan qız payı bağışlayıb köçüb dünyadan. Salman bala boyu bərabərinə qalxıb, qızların nəzərini cəlb etməyə başlayıb. Nənəsinin qız nəvəsi qızlar bulağına can atır. Səfər unutmuşdu bu an. Unutmuşdu ki, zaman, hicran onun gickahlarına gümüşü rəng çəkib, vaxtilə çox sevib bəzəndiyi gümüşü rəng. Səfər unutmuşdu ki, o kövrək hisslərin əsiri olub, Reyhanın rusvayçılığına, evdən qovulmağına səbəb olub. «Haradasan Reyhan, haradasan?» deyə günlərlə axtarıb. Nə səs eşidib, nə iz görüb, nə soraq verən olub. Səfər unutmuşdu bu an. Unutmuşdu ki, aradan bir neçə Tiflis illəri keçib. Saçlarına dən düşüb. Kim saxladı talehin təkərini? Daha doğrusu kim tərsinə hərlətdi yenidən o təkəri? ...Və Səfər bu günə, bu cıdır meydançasına, o xəyali gözəlin durduğu məqama — yerə qayıtdı? Kim? Bilmədi! Deyəsən mehtərdi, yox, deyəsən təlimçiydi. Bəlkə də xas

nökərdi. Amma artıq meydançada «yuxuda gördüyü», «o zağalardan çıxmış» gözəl yox idi, Murad ağa özü də.

— Buyurun, ağa. Nə mətləbə gəlmisizsə, bir az sonra Murad ağa sizi otağında gözləyəcək o mətləbçün.

Sözləri təkbir anlayırdı.

— Bəs indi burda...

Müsahibinin gözləri gülürdü:

Təəccüb eləməyin, mənim ağam! O cavan sürücü Murad ağanın kəriməsidi. Güllər xanımdı. İki-üç yaşından at belinə öyrəşib. İndi ata-bala təlimin gedişini evir-çevir eləyirlər.

— İlahi! İnsan insana necə də oxşarmış?

Sözlər Səfərin ürəyini titrətdi. Güllər... Ad qoyana afərin! Bir deyil, beş deyil, onbeş deyil... — bütün güllər bu simada cəmləşib. Nə ki var aləmdə.

Səfər düşünə-düşünə xas nökərin təklif etdiyi otağa keçdi. Aftafa-ləyəndə əl suyu gətirdilər. Əllərini yuyub quruladı. Qarşısına bir kiçik çaydan, bir piyalə düzülmüş-kiçik sini qoyub getdilər.

— Mənim ağam, bir azdan Murad ağa sizi qəbul edəcək.

...Murad ağa kişiyə məxsus olsa da xeyli zəngin bəzənmiş bir otaqda qapıyla üzbəüz sərilmiş döşəkçənin üstündə əyləşib kürəyini söykəc yastığına söykəmişdi. Abı məxmər üzlüklü qayınata döşəyi zərif təkəlduz tikiəylə bəzədilmişdi. Qolabi tirmə dirsəkaltılar üst-üstə qoyulmuşdu. Yerdə Şirvanın «Udulu», «Qəşət» naxışlı əlvan xalılar salınmışdı. Divarlara da Şirvan çeşnili xalçalar vurulmuşdu. Rəflərdə Murad ağanın müxtəlif ölkə tacirlərindən aldığı əlvan piyalələr, gülabdanlar, şərbət ibriqləri düzülmüşdü. Murad ağanın əyləşdiyi orta divarın sağ və sol tərəfində iki tağça vardı. Taxça pərdəsinin ipək tağ bölgüsü arasından bir cüt zərif, xırdaca, əlvan, parlaq

mücrü görünürdü. Murad ağanın sağ tərəfində döşəkçə salınmış dirsəkaltılar qoyulmuşdu. Görünür müsahibçün, qonaqçün rahatlanmışdı.

Səfər içəri girdi.

— Salam əleyküm, ağam!

— Və əleykümərssalam, qonaq! Xoş gəlib səfa gətirmisiz.

— Çox sağ olun.

Səfər Murad ağanın göstərdiyi döşəkçənin üzərində əyləşdi. Dərhal ol suyu gəldi. Yenə aftafa-ləyən, dəsmal. Hər ikisi əllərini yüngülcə yudular. Hər ikisinin qənşərinə ayrıca xırda sinidə çay gəldi və tək qldılar.

— Səfəriniz hardandı?

— Cavad qəzasından. Bəndəniz mal həkimiyəm o qəzada.

— Maşallah! Əcəbdi.

— Əcəb camalınız. Ömrüm kənd-kəsəyi at belində gəzməklə keçir. İşin xüsusiyyəti, məmurluğun xasiyyəti budur, mənim ağam. Yaxşı at gərəy olur. Sizin də maşaallah atların sorağı Cavad mahalına da yayılıb. Dedim: məsləhət bilsəz, rəva görsəz birini satardız mənə.

Atlarının şöhrətindən daxili bir fərəh duyan Murad ağa xəfifcə qımışdı:

— Nə olar? Allah xeyir versin hər iki tərəfə. Bir az dincəlin, günorta qonağımsız. Axşam tərəfi ilxı yaxında olacaq. Gedərik, baxarıq, bəyəndiyinizi seçərsiniz. Qurbandı sizə.

— Təşəkkür edirəm. Artıq zəhmətinizə razı olmaram. Karvansaraya düşmüşəm. İndi gedib axşamtərəfi qulluğunuzda hazır olaram.

Murad ağa qatiyyətlə dedi:

— Yox, elə şey yoxdu. Günorta yeməyini birgə yeyəcəyik. O vaxtacan mənə Cavad qəzasından, iş-gücünüzdən, özünüzdən söhbət edəcəksiniz.

Təklifdə bir yaşca böyük adam ərki vardı. Səfər etiraz etmədi.

* * *

Qəribəydi. İkisi də bir-birindən məhəbbətlə ayrılmışdı. Murad ağa özü də duymadan at müştərisinə iki gün ərzində bağlanmış, onu az qala qohum kimi, yaxın adam kimi sevmişdi. Alverlərn də çox asan keçmişdi. Səfər elə ilk gün Güllər qızın altında gördüyü ağ almacıqlı boz ürkəni seçmişdi. Deyilən qiymətdən bir manat da aşağı düşməyi xahiş etməmiş, nə deyilmişdisə — vermişdi. Sözarası belə bir boz ata hələ gəncliyində sahib olduğunu, atası Salman kişinin onu Qarabağdan — «Xanlıq atları» arasından böyük zəhmətlə alıb gətirdiyini də söyləmişdi:

— Baxtıma çıxan ikinci boz atdır. Birinci göyərçindən... Bəlkə bu mənə... gətirdi... At minən atdan yegin gərək...

Nə gətirdi? Bilən olmadı. Bu birisi nə gətirəcək? Onu da bilən olmadı. Amma hər halda Murad ağa bu müştərisindən bir əziz dost kimi ayrıldı. Bu ayrılıqda bir az kədər, bir az təəssüf hissi də vardı. Qəribə gəlirdi ona. Kaş yaxında olaydılar... Ara bir...

Səfər isə təzə aldığı boz atın üstündə uçurdu deyərdin. Minib gəldiyi atı karvansaradaca çıxan müştəriyə dəyərinə-dəymәzinə satıb getmişdi. Boz at lap o ilk gənclik illərindəki kimi boz qanadlı qartaldı, süzürdü altında. Səfərin ürəyində yenidən doğmuş eşq də, sanki, onun qəlbindən mindiyi atın qəlbinə keçmiş, hər ikisini eyni ahəngdə qanadlandırmışdı.

Əsil, cins atla minicinin arasında birlik, vəhdət, ahəng yaranmasa yaxşıca at-insan dostluğu yaranmaz, əmələ gələ bilməz. Bu yolda Səfəri uçurdan Güllərin məhəbbətiydi. Vaxtilə sevdiyi, ilk gənclik məhəbbəti Reyhan Güllərlə birləşmişdi könlündə. Amma bu artıq kövrək uşaq məhəbbəti deyildi. Kamala çatmış, yetkin kişi məhəbbətiydi. İçərisində evlənmək, ailə qurmaq, yeni oğul-qız atası olmaq arzuları vardı. Murad ağanın özünə mehriban münasibətini duymuşdu. Amma çavan, bakirə qızını — gözəlini artıq evlənmiş, ev-eşik sahibi olmuş, yetimlər atası, dul kişiyə, həm də qızından xeyli böyük olan kişiyə verməyə razı olacaqmı? At deyil ki?! Lap ağ almacıqlı, boz qanadlı bu boz at olsun! Orada can məsələsi var. Evlad məsələsi var! Can alveri! Bir həftəyə qət etdiyi yolu ikicəmi, üççəmi günə keçdi? Bilmədi! Karvansaralarda, ovdanlar başında karvançılarla əylənmədi. Evə çatan kimi də qərarını Şahnisə xanıma bildirdi.

— Hazırlaş elçiliyə, ana!

— Hara? Kimə?

— Qaradonluya. Murad ağanın qızına.

Arvadın ilk sözü elə özünə yaraşan oldu:

— Bəli da... Burda alan olmadı, getdin Gilan ağzına.

Yanı bu boyda Cavad mahalında o Qaradonludu, qaragünlüdü nə zəhrimardı, ordakından irağbətlisinə irast olmadın?

— Ana, dedim: dəvə vurub dizüvə, bəlkə gəlmisən özüvə? Hələdə bəs eləmədi, ana?!

— Anan ölsün, bala: Gedərəm, gedərəm, niyə getmirəm? Çarəm nədi? Qara geysin Qaradonlunu! Sən ora at almağa getmişdin, arvad almağa? Bilmirsən ki, xiyar puluynan alınan ulağın ölüsü suda qalar?

Səfər tərs-tərs anasının üzünə baxıb otaqdan çıxdı. Şahnisə xanım anlayırdı ki, Səfəri bu yoldan döndərə bilməyəcək. Deyinməyə, Allahına yalvarmağa başladı:

— İlaHi! Sən niyə mənim bu bircə balama boy verdin, buxun verdin, bircə tikə ağıl vermədin? Gah bir gədə- güdə qızınnan ötrü dəli divana oldu, üzümə qayıtdı. Elə bilirdi annamıram? Gül nəvələrimin anasını, kəlin Nəsiməni əməlli-başlı dindirdiyini, gəlin yerinə qoyduğunu, gülüb güldürdüyünü görmədim. Tanrım tez apardı, ürəyinə xal düşmüş bədbaxtı. İndi də burdan ora! Ay başına dönüm, adama deməzlər ki, ay Şahnisə xanım, bu boyda Cavad mahalında sizə yaraşan tapılmırdımı? Gəlindən, qızdan, duldan xalidimi Cavad mahalı? Bəydən bəy qızı, ağadan ağa qızı əskikiiydi? Çox artırmısız? Arpanız artıq düşüb? Burdan Qaradonluya kişnəyirsiz? Nə var, nə var bizim oğlan qarageymiş, qaradonlu bərbada at almağa gedib, arvad aşıqlayib! Allahım özü ağıl versin sənə, bala! Bizi ellər gülüncü eləyəgəksən. Bir də nə bilmək olar? Birdən qohum-ağrabası heç razılıq vermədi? Dedilər dul kişidi, iki yetimi var, uzaqlıqdı... Yox a... Niyə razılıq verməsinlər? Gül kimi, padşah balası kimi balam. Əlində sənəti, oxumuş, min kişidən biri! Qaradonlu bəlası, Qarageymiş çəngi bir görüşdə çəkib kamına onu... Neynəyək? Çaramız nədi? Xarmana girən porsuq şana-yabanı qəbul elər. Nə desələr, «göz üstə» deyək əərək.

Belə qayınanalar haqqında qoşublar yəqin ki, gəlinlər:

**İlana bax, ilana,**
**Gedər girər dalana.**
**İmansız qaynanalar**

## Tez uyarlar yalana.

Şahnisə xanım da, görmədən, tanıyıb bilmədən öz ürəyinin uydurduğu yalana uymuş, inanmışdı. Balasını çalağan çalmaq istəyən qırt toyuq kimi, elə bilirdi ki, qaradonlular onun balasını yağlı tikə bilib əlindən alırlar.

Arvadın xasiyyati, əqrəba ağbircəklərinin dediyi kimi, sözü böyüdəndə küllüyü Güngörməz dağına tay tutar, pisləyib kiçildənds Baba dağını gətirib Lələ təpəsinə oxşadardı.

* * *

Qonçabəyiminsə sevingindən göylərə pərvaz etməkçün qanadları yoxudu... Amma uçurdu. O balaca, o qaşıqla «qızıl inək» südü içirə-içirə böyütdüyü, otuzluq lampanın üçqıç, uca sacayağısı üstündə barmaqlarını yandıra-yandıra «üfə»lər bişirib yedirdiyi Güllər bala qızlar bulağından su içib, su sonası kimi cilvələnmişdi. Adı gəlinlik qızlar içində çəkilirdi. İlahi!.. Elə bil dünəndi. Murad ağa çölə bayıra çıxanda qızcığaz xırdaca əllərini uzadıb «a-a-ta... a-a-ta» deyə kişiyə doğru can atırdı. Qonçabəyim Murad ağanı qapıyacan yoluzaq eləyəndə qız öncə zıqqıldayır, sonra da ağlamağa başlayırdı. Qonçaboyim içəri qayıdıb Güllərini minbir dillə ovundurur, güldürür, oynadırdı: «Güllərim gül qonçası, noğul, nabat xonçası»... Hərdən hərdən uşağı cıdır meydanına aparırdılar. Ananın ürəyi əsirdi. Yalvarırdı:

— Murad ağa, uşaqdı. Hələ heç üçünü doldurmayıb. Qorxar atdan, azarlar. Sən Allah. ata çox yaxın aparma.

Amma qız qorxmurdu. Əlciyəznnn atın yumşaq burnuna, ağzına uzadırdı. Balaca ovcundan Murad ağanın qoyduğu

kişmişi at sümürdükcə qız, gülməkdən uğunub gedirdi. Qonçabəyim qorxudan titrəyirdi, qızı təhlükədən xilas edərcəsinə əllərini irəli uzadırdı:

— Sən Allah Murad, ehtiyatlı tərpən. Qız qorxar.

Murad ağa gülürdü:

— Qız Allahın bəlasıdı, ay anası. Sən qorxursan, o yox. Qoy bir az böyüsün. Bir minicn olacaq ki... Məni də ötəcək.

— Buy, Allah irağ eləsin, qız uşağı minici?!

— Noolsun qız olanda. Dədəsinə çəkib, Qonça! Kişi paltarı geydirəcəm. Təlimin də özüm verəcəm.

Qonçabəyimin gözləri doldu. Yaxşı ki, başı qızla, atla əylənməyə qarışmış Murad ağa bu dolmuş gözləri görmədi. Qadının ürəyindən qara qanlar axmağa başladı: «Oğul həsrətidi bu, ağam, oğul həsrəti. Allahım, o gözəl Allahım, o quru daşlarda yosun bitirən Allahım, o sərçəyə, çəyirtgəyə, qarğa-quzğuna, itə-qurda bala verən: inəyə buzov, camışa kəlçə, ata — qulun, qarışqaya belə erkək payı da verən mehriban, rəhimli Allahım, sən ürəkdə, adamı oğul atası eləmədi? Neyşə? Asi deyiləm, ilahi, bizi bu dünyada paysız eləmədin, qız payına da şükür! Çox şükür, ya Rəbbim! Çox-çox şükür. Muraddan soruşsan, «Gülləri on oğula dəyişmərəm» deyər.

Doğrudan da qız böyüdükcə atasıyla birlikdə cıdır meydanına dadandı. Murad ağa Güllərin yaşına uyğun oğlan paltarı alır, ya tikdirir özüylə cıdır meydanına aparır, bəyəndiyi əmin ata mindirib təlim keçirdi. Get-gedə qız yaxşıca bir minici oldu. Ara-sıra atasıyla birlikdə atlanıb ilxıları yoxlamağa gedir, gecə-gündüz Murad ağayla əylənməkdən doymurdu. Ara-bir Qonçabəynm gileylənirdi:

— Atanı məndən çox istəyirsən, Güllər. Bəs mən sənin anan deyiləmmi? Atalı balalı yaddan çıxartmısız məni.

Belə hallarda qız elə incə, elə səmimi məhəbbətlə anasına sarılır, bir dillər tökürdü ki, daha gileyə yer qalmırdı:

- Nə danışırsan, ana, canım ana nə danışırsan? Sən mənim əzizim, iki gözümün işığı, ikicə gözümün özüsən. Atam səni çox istəyir. Atamla təkə tək qalanda sözümüz söhbətimiz təkcə sənsən. Gözəl anam, qəşəng anam! İncimə, Evdə oturanda ürəyim darıxır. Sən darıxmağıma razı olarsanmı? Hə, olarsan? Anasını qucaqlayır, bağrına basır, təlimlərdə güclənmiş qolları arasında sıxçalayıb öpüşlərə qərq eləyirdi. Qonçabəyim fərəhlə gülür, gileyini də dərhal unudurdu:

— Bəsdi, bəsdi! Boğdun məni...

Doğrudan da bəyinm Güllərin gənc, küclü qolları arasında tənkiyirdi. Sonra ana bala üzbəüz oturub söhbətləşirdilər. Qonçabəyim deyirdi:

— Sən axı qız işi də biləsən kərək. Bu gün, sabah evlərə getdin, əlindən bir qız-gəlin işi gəlməyəndə, qayınanan səni döyəcək, məni söyəcək.

— Ay döydü ha...

— Hə... Deyəcək: «bu nə vecala anaymış ki, qızına heç iynə saplamaq da öyrətməyib?

— Tələsmə məni başından eləməyə, ana! Öyrənərəm, möhlət ver.

— Hə də. Allahın günü bir çuval darıdan çoxdu. Sən öyrənənəcən elçilər dağılışar, qalarsan evdə un çuvalına tay.

— Lap yaxşı! Onda atamnan səndən day heç ayrılmaram.

— Allah eləməsin, qızım, elə demə! Dərgah qapısı açıq olar. Uzaq olsun. Bir başa düş! Biz də oğuldan oğul, qızdan qız nəvə görmək istəyirik, səndən. Mən dədənə oğul vermədim, inşaallah sən oğul nəvə verib kamına çatdırarsan onu. Mindirsin atlara ürəyi istəyəncən.

Qız utanıb daha bir söz deyə bilmədi. Başını lap uşaqlıqda adət elədiyi kimi Qonçabəyimin dəlu dizlərnnin üstünə qoydu.

— Mənə layla çal, ana!

— Uşaqsan, ay bala, bəbəsən?

— Sən Allah çal!

— Yaxşı, yaxşı...

Qonçabəyim qızın çiynini, saçlarını tumarlaya-tumarlaya layla çalırdı:

**Laylay evim-eşiyim**
**Qızıldandı beşiyin.**
**Sən yat, şirin yuxu tap**
**Anan çəksin keşiyin.**

Lap elə uşaqlıqda olduğu kimi, haradasa, laylanın ortasında Güllər qız zərif bir səslə anasına qoşulurdu:
Laylay balam, a layla...

Qonçabəynm gülürdü:

— Öz-özünə layla çalırsan, bala?

...Bu bala indi gəlin olacaqdı. Öz evi, öz yuvası olacaqdı. Qonçabəyim heç cür ağlına da gətirmirdi ki, Murad ağa Qaradonludan Cavad mahalına qız verə. O uzaqlıqda yola. Varın-yoxun bircə balan ola, qoyasan sapanda atasan diyar-diyar. Gələn elçilərdən kişi üççə gün möhlət istədi. Üç günün tamamında «hə» verdi, bəlkə aldı.

Murad ağanın könlünə Səfər elə birinci görüşdən yatmışdı. Dəstə-dəstə gələn başqa elçilərə «yox» deməyinin bircə səbəbi vardı: Birdən nə zamansa yerlilərdən biri: «atası kim, anası kim, tapıntı» sözlərini dilinə gətirər. Güllər balanın ürəyinə xal salar. Oralarda o Cavad diyarında Güllər xanım Murad ağanın

qızıdı, anası da Qonçabəyim kimi xanım xatın arvad — vəssalam! Kimsənin ağlına nahamvar sual gəlməz. Burdaysa... Nə bilmək olar? Ağzı yırtıq qayınananın biri «Dədəsindən, nənəsindən bixəbər» deyə bilər.

Bax elə bu ürəyinn yeyən gizli dərd idi əsas səbəb. Təkbətəkdə «qürbət» deyib oycalanan Qonçabəyimi də eyhamlarla başa salıb ovundurdu. «Hə» deyəndə tək bircə şərt qoydu: İlin altı ayını Güllər bala anasının yanında Qaradonluda, altı ayını Cavadda — ərinin evində keçirəcək. Səfərgillər də razılıq verdilər. Başa düşürdülər ki, ömrü yarılanmış ata-ana üçün bu ayrılıq acı həsrətə, gəlinçün qürbət möhnətinə çevrilə bilər

Ayın tamamında karvanın başı açıldı, Səfər Murad ağanın adına layiq nişan gətirirdi. İgirmi əlvan bəzədilmiş fayton, Şahnisə xanımçun xüxusi «karut», mal-madar, pal-paltar bazarlığı, şirniyyat xonçalarıy
çün funqonlar, arabalar böyük bir karvan əmələ gətirmişdi. Karvanın qabağında boz Buxara papaq, gümüşü baftayla haşiyələnmiş boz çuxa geymiş, boz atlı Səfər özü bələdçilik eləyirdi. Bələdçiydi öz nişan dəstəsində. Murad ağanın evini göstərib karvansaraya dönəcəkdi.

Baş paltarla milli geyimləri: buzmə, qaddama, gendədur, xara tumanları, kimxa, tirmə, məxmər arxalıqları, alınlığına cərgəylə qulplatdırılmış qızıl beşliklər düzülmüş zərxara, şəmsi-qəmər cutquları, qanovuz, atlas köynəkləri taqə şal, qazqaz, butalı bənarə örpəkləri Şahnisə xanım öz zövqünə, adına görə aldırıb xonçalara yığdırmışdı:

— Qoy o Qaradonlulardı, qaragünlülərdi nədi deməsiilər ki, xəsislik eləmişik. Gül kimi cavan oğlandı. Elə bil heç evlənməyib. Qız qapısına bu da oğlan bazarlığı.

Bazarlığı görənlərdən Şahnisə xanımı çox yaxşı tanıyan qohum arvadlar öz aralarında pıçıldaşırdı:

— Bu dağar[1] arvad haçandan belə əliaçıq olub görəsən?

— Hə daaa... Dul kişi, iki yetimi... Qız qapısı. Neynəsin? Gözlərə kül atır dayna...

— Allah o yazığları sonrasından saxlasın.

— Bu Şahnisədi ha! Nə bilir o fağılar ki, koramal kimi ildə bir vurar — əlacı tapılmaz.

— Həmişə də iriz eşşəyin olar, fel gəlinin.

— O yankı qız uşağıdı, deyillər lap Səfərin qızı yerindədi.

— Amma Allahçun deyəsən gərək, Səfər də Səfərdi ha! Oxumuş, yaraşıqlı, ədəbli...

— Əvəzində Şahnisə xanım hər gün yerindən it kimi durur, qurd kimi uluyur.

Qızıl qismi: sırğa, qolbağ, boğazaltı, kəmər, ətəklik, üzüklər ayrıca sandıqçaya yığılıb nəslin ağsaqqallarına tapşırılmışdı. Səfər əlavə Tiflisdən gürcü gözəllərinin geydiyi düm ağ qaymağı xaradan tikilmə, xüsusi şirmayı sümüklərlə daraldılmış, bəhli qol, boğazdan düymə li paltar gətirtmişdi. Şahnisə xanım der-der deyinmişdi:

— Ay Allahın axıllısı, buna da pul verəllər? Bunu adam geyib adam arasına çıxar?

— Mənimçün geyindi bəsdi.

— Day üzündə su da qalmayıb.

— Qoyursan ki, qalsın?

---

[1] Бурада хəсис.

Müxtəlif şəkillər verilmiş əlvan, lülə nabatlar, ağ plov təpələri kimi qalanmış noğulları Səfər, iranlı dostlarının vasitəsilə Təbrizdə düzəltdirmişdi. Çalğıçı və Cavadda aşıq-xanəndə ayrıca faytonda gedirdi. Qurban bayramına az qalırdı. Odur ki, indidən qurbanlıq qoçlar yolda arıqlamasın deyə, karvanın arxasınca toyxərci gedən qoçlarla birlikdə çobanın nəzarəti altında gedirdi. Hamısı da seçmə, burma buynuzlu, ağ qoçlardı, hamısının da təpəsinə, belinin ortasına, qabaq ayaqlarının dizlərinə al xına yaxılmışdı. Boğazlarına əlvan Basqal kəlağayıları bağlanmışdı. Bir-iki gün, rəsmi alver bitənəcən çoban onları otaracaq, sonra da karvansarada xüsusi ayrılmış «axıl»da yemləyəcəkdi.

Gün günortaya xeyli qalmış Səfər aralıdan Murad ağanın imarətini nişan verdi. Amma sən demə onsuz da Murad ağa güdükçü qoyubmuş, karvanın başı açılanda, Murad ağanın darvazası da geniş açıldı. Bir tərəfdə ağsaqqal kişilər, o biri tərəfdə ağbircək xanımlar darvazanın cəhənglərində yerlərini tutub qonaqları layiqincə qarşılamaqçun darvazadan çölə çıxdılar.

Cavan arvadlar, xüsusilə gəlinlər və qızlar faytondan düşən kimi xonçaları əllərində gəzdirə-gəzdirə tələsik şamları yandırdılar. Qonçabəyimin dəvətilə böyük otağa daxil oldular. Və başı, əli xonçalı qızlar musiqisiz-zadsız fırlanır, oynayırdılar. Qızlar itələşir, bir-birini ötüb, gəlini görməkçün yan otağa can atırdılar. Gülüşmə, hay-həşir bir həddə çatmışdı ki, ağız deyəni qulaq eşitmirdi.

— Gəlinimiz hanı?

— Göstərin gəlinimizi! Üzgörümçəyini verək...

— Üzgörümçəyi toydan sonradı.

Hələ indi bir baxaq görək Cavad vilayətini tora salan Qaradonlu gözəli kimdi, necədi, doğrudanmı gözəldi?

— Qara donun çıxardıb, qırmızı Cavad donu geyindirək.

— Toydan soora, üzəçıxdıda görərsiz.

— Elə şey yoxdu! O vaxtacan bizdə hövsələ hanı?

— Boz atlı oğlan eşqinə!

Yan otaqdan bir dəstə qız çıxdı, pıqqıldaya-pıqqıldaya qapıları geniş açdılar:

— Xoş gəlmisiz.

— Səfa gətirmisiz.

— Adımız Qaradonludu, özümüz lala qırmızısı.

Yaşmaqlı gəlini Şahnisç xanım aralıdan tək bircə
an, tək bircə an gördü. Başında ildırım çaxdı sanki. Dalağı sancdı: «Pişik balası»... İlahi! Adam adama necə oxşarmış? Elə bu oxşayış çəkib gətirib bura bircə balamı. Allah axırını xeyir eləsin!»

Şahnisə xanımın düşüncələrindən xəbərsiz, «pişik balasını» ömründə görməyən qızlar, ahıl arvadları böyük otaqda qoyub, kiçik otağın qapısını bərkitdilər. Təkcə şırıqqa səsinə bir oynamaq, bir sındırha sındır vardı ki, deyərdin beş aşıq dəstəsi mağarda oyun havası çalır cavanlarçın.

Şahnisə xanımsa özündə-sözündə deyildi, bir qıl sicim üstündə oturan kimi oturmuşdu, düşünürdü: «Toy nişanda bütün qızlar gözəl görünər. Göz gərək seçsin. Bu neyşə gedib o «bəlaya» oxşadı? Allah özü axırını xeyir eləsin. Həmin toy, həmin tamaşa».

* * *

Səfərin Qaradonluda məşhur Murad ağanın qızını istəyib almaq xəbəri bütün Cavad mahalında yayıldı. Dəbdəbənin səsi göylərə qalxmışdı. On fayton əlliyə, beş furqon qırxa, on qoç yüzə, altı araba altımışa çatdı. Nişana gedən igirmi adam yüzü aşdı. Hərə gördüyünün üstünə beşini də artırır, görməyənsə eşitdiyi beşi ona çıxardırdı.

Əlbəttə dəbdəbə söhbətləri bir xeyli keçmiş Xolağzında birgə yaşayan Anaqızla Gülsənəmə çatdı. Anaqız əslində bir az nasazdı. Bayıra-bacaya çox çıxmırdı. Xəbəri Gülsənəm eşidib qarıya nağıl elədi.

— Deyillər Səfər evlənir.

— Evlənsin də, bizə nə! Əri ölən ərə gedər, arvadı ölən arvad alar. Balalarını özüm tutduğum, canına dava- dərman elədiyim o yazıq gəlin bədbaxt oldu o evdə. Görəsən indi kimin nobatıdı?

— İkisi bədbəxt oldu...

— Hə ikisi... Allah üçüncüdən saxlasın. İndi kimi «bəxtəvər» eləyir Şahnisə xanım? Şahlığından qalsın onu görüm...

— Şahnisəlik deyil bu dəfə. Səfər Qaradonluya at almağa gedibmiş, orada lap cavan bir qız aşıqlayıb. At satanın qızını. Qızı yerində.

Anaqızın ürəyinə bir sancı doldu. Özü də səbəbini bilmədən alacalanmış gözlərini Gülsənəmin ağzına dikdi:

— Kimi alır Qaradonluda, kimin qızını dedin alır?

— Billah, kimi tanıyıram mən oralarda ki, biləm də? Deyilənə görə çox tanınmış adamdı. Murad ağa dedilər deyəsən, yə Mahmud ağa...

Anaqızın sinəsindən bir qıyya qopdu. Arvad ağlını, huşunu itirmiş kimi arxası üstə yerə sərildi, əl-ayaq çalmağa başladı.

Gülsənəm nə edəcəyini bilmirdi. Gah arvadı qollarının qarısını sıxır, gah çiyinlərini, kürəyini, ayaqlarını ovxalayırdı.

— Sənə nə gəldi, a fağır? Allah, özün qiyma!

Gözləri yaşla doldu. Ona elə kəldi ki, Anaqız arvad ölür, arvadın döşəyinin səmtini qibləyə tərəf çevirdi. Kalmeyi-şəhadət dedi, bildiyi dualardan oxuyub üzünə üfürdü Taxçadan Qur'ani-kərimi kətirib qarının üzünə Quran yeli verdi. Hannan-hana Anaqız özünə kəldi. Zarı-yazarıya dikəldi:

— Başımın altını dikəlt, bala! Baxtımızda bu da varmış. Ordan-burdan, Şahnisəlilərə yaxın adamlardan yəqinini öyrən. Əgər mən biləndisə...

— Necə ki, ana?

— Anan olsün, bala! Əgəm Qaradonluda Murad ağanın qızıdısa onda...

— Nə?

— O ki, Səfərin öz qızıdı... Reyhanın bədbəxt qızıdı.

— Vayyy!

Bu dəfə qıyya çəkib başına, sinəsinə, dizinə döymək növbəti Gülsənəmə gəldi.

— Döyünməkdən keçib, bala! Tez tədbir görməliyik. Yaxşı ki, hələ toy olmamış eşitmişik.

— Neynəyək, ana? Neynən qabağını allıq axı? Nəynən saxlayaq bu bədbaxtçılığın, bu rüsvayçılığın, bu günahın, bu üz, bu qiyamət qarasının qabağını?

— Dur get, Nəhmət kişiyə de ki, macçal eləyib mənə dəysin.

...Anaqız səhər üzü Qaradonluya gedən karvanda Gülsənəmi əmin bir adama tapşırmağı Nehmət kişidən xahiş elədi. Özü gedə bilməyəcəkdi, yol uzundu. Canı zəifdi. Burada,

yaxında görməli olduğu işləri özü öhdəsinə götürdü. Gülsənəmə isə Qaradonluda yaxşı tanıdığı bir ailəni nişan verdi:

Möhüb qardaşcildə qalarsan. Güdərsən, Murad ağaynan ayrıca mənim adımdan danışarsan. Qonçabəyimnən işin olmasın. Murad ağa özü bilər, necə deyər-deyər. Təhər çəkər. Soora arna-araşdır, qızı da görməyə çalış. Kimliyini, yer-yurdunu ona nişan ver! Başa sal bəlanı. Çıx genə Möhüb kişi səni Cavada gələn karvanda kimə məsləhət bilib qoşsa, onnan da qayıt gəl! Qalanıynan işin olmasın. Burda, Səfərgillərə gedib, Səfərnən görüşmək, bu rüsvayçı nikahı pozmaq mənim boynuma. Qoy o hərəyə bir qulp qoyan, eymə ağız Şahnisə xanım bilsin ki, yazıya pozu, təqdirə tədbir yoxdu. Onun əməlidi ki, kişi az qala öz doğmaca balasına — qızına evlənəcəkdi. Qoymaz Allah! O gözəl Allah! Şükür cəlalına. Qoymadı! Şükür kəraminə!

* * *

Gülsənəm bir neçə gün idi ki, Murad ağanın qapısı tərəflərdə hərlənir, Gülləri tək görə bilmək üçün çalışırdı. Axırda «deyəsən görə bilməyəcəyəm, əlimi üzməli olacam» deyə düşünə-düşünə darvazadan xeyli aralı durmuşdu. Bu üçüncü gün idi. Harda, nə yeyirdi, harda, necə nə təhər yatdığını özündən belə soruşsan dəqiq cavab verə bilməzdi. Nəhayət üç gün keçib dördüncü gün səhər çağı gözləmə yerinə təzəcə gəlmişdi ki, Gülləri gördü. Ürəyi qopub ağzına gəldi. Ana ürəyinə elə gəldi ki, Reyhanın Səfərlə gizli görüşdüyü günlərdəki camalıdır, o təzətərlik, o gözəllikdir, ayrı adam deyil bu. Bəlkə də gəldiyi məqsəd deyil, qəfil başqa yerdə rastlaşsaydı, başqa məqamda görüşsəydi «Reyhan, qızım,

balam» deyib boynuna sarılar, həsrətlə çırpınan ürəyinin başına sıxardı qızı. Amma indi... Amma indi başqa niyyətə gəlmişdi və bu niyyət onun məhəbbətindən də güclüydü. Qarşısı alınmalı olan səbəbə gəlmişdi Gülsənəm. Elə bu səbəb də ana qəlbinin arzusuna üstün çıxdı. Əvvəlcə aralı darvazadan gördü qızı. Sonra Murad ağa gülə-gülə içəridən çıxdı, darvaza ağzında onu yoluzaq eləyən Güllərə sarı bir də dönüb, saçlarının «farq» ayırdığı yerindən alnıqarışıq öpdü. Dedi:

— Yaxşı, yaxşı, ay şeytan. Qonçabəyim ananın gözündən iraq yerdə, o yad qonaqlar gedəndən sonra gədəni göndərrəm dalıncan, gələrsən.

— Ay sağ ol, ata!

Qızın səsində elə bir coşqunluq, sevinc vardı ki! «İlahi mən bu sakit, bəxtəvər evə, bu sakit, bəxtəvər insanlara nə qara xəbər gətirirəm? Evi yıxılmış Şahnisə xanım illər keçəcək, genə də törətdiklərinin səsi-sədası belə adamlara bədbəxtçilik gətirəcək. Görəsən oturub usandığı olacaqmı, əməllərinin sonu olacaqmı?» deyə düşünən Gülsənəm, darvaza bağlanmamış özünü qıza yetirməkçün Murad ağa azca aralanan təki özünü Güllərə çatdırdı. Qız hələ də atasının vədiyçün sevinc içində olduğundan tanımadığı qadına əhəmiyyət vermədi. Murad ağa da onu payyığan hesab etdiyindən cəld aralandı, cıdır meydanına tərəf üz tutdu.

Gülsənəm qapını qapayıb qaçmasın deyə cəld qızın biləngindən yapışdı:

— Dayan, qızım, sənə sözüm var.

— Kimsən ay xala, tanımadım. Anamla sözün var, ya...

«Payyığansan?» sualını verməyə ürəyi gəlmədi. Arvad heç payyığana oxşamırdı. Gülsənəm də sözü uzatmağa, «pişim-pişimlə» danışmağa macal olmadığını görür, «zəhəri damcı-

damcı içirtməkdənsə «birdəfəlik yaxşıdı» düşüncəsilə sözünü birbaşa deməyə tələsdi. Axı indicə evdən nökər-qulluqçu yaxınlaşıb mane ola bilərdi.

— Nənənəm, qızım, nənən.

— Nə? Nə? — Qız heyrət içində gözləri açıla qaldı. Gülsənəmii ayrı çarəsi yoxuydu, sözünü davam etdi tələmtələsik. Deməlisini dedi:

— Qızım, mənə qulaq ver. Baaax, Murad ağa sənin atan, Qonçabəyim də anan deyil.

Gülləri gic bir gülmək tutdu. Əvvəlcə bu «axmaq» sözə uğundu. Sonra elə bil ürəyi sancdı, nəsə düşündü. Uşaqlıq illərində qohum arvadlardan bəzilərinin anasıyla söhbətindən nəyisə dumanlı bir şəkildə xatırladı. Odur ki, özünü ələ alıb soruşdu:

— Nə danışırsan, xala?

Nənəni ağlamaq tutdu, boğula-boğula, xırıltılı səslə cavab verdi:

— Xala dediyin mən bədbəxt, sənin nənənəm, bala!

— Nə? Nənəmsən? Bəs hardaydın indiyəcən?

— Hə, bala, hə. Elə bu gün sənin dədə bildiyin Murad ağaynan danışacam. Sənin Səfər batmışa getməyini qədağan eləyəcək. Çünki, o nanəcib sənin əsil atandı, bala! Mən özüm Murad ağaya dəlillər, subutlarnan dəlil-dəlayil eləyəcəm.

Bu gözlənilməz xəbər birincidən də anlaşılmazdı, dəhşətdən qızın dili tutuldu, dünya başına aylandı. Qıza elə bir zərbə dəydi ki, ata-ana söhbətn qulaqlarında «yalana çıxdı».

— Başım bəlalı olub, qızım! Anan Reyhan sənin üzünü də görməyib, harda, kimin ocağı başında oturduğunu da bilmir. Özgə balalarına, özgə yetimlərinə pərəstardı.

— Anam sağdı?

Qız sualı heç nə düşünmədən, boş ürək, yanan gözlərlə verdi.

Sağdı, bala, sağdı. Mənim bədbaxt qızım, Reyhan anan sağdı.

— Reyhan... Bəs Səfər?

— Çox dəvlətli ata-ananın tək evladıydı. Qoymadılar. Qoymadılar iki cavanı qovuşsunlar. Kasıb, kəniz qızını gəlin görmək istəmədilər. İllah da ki, Səfərin anası Şahnisə xanım... Onda ananı bəlalardan qurtarmaqçın götürüb o xarabadan getdim. İndi də səni bu rüsvayçılıqdan qurtarmaqçın diyarbadiyar düşəcəm. Görünür alnıma belə yazılıb.

Birdən qız üsyan etdi:

— Qarı, sənə inanmıram, inanmıram...

Arvad Güllərin haradasa, nəyəsə təslim olmaq, inanmaq istəməyən başını köksünə sıxmaqçın qollarını açdı. Amma qız tanımadığı bu qolları qəbul etmədi. İnanmırdı Gülsənəmə. İnanmaq istəmirdi. Hardan çıxdı bu çadı?» deyə düşünərək, onu qolları arasına almaq istəyən nənəsindəi dartındı. «Mənim anam Qonçabəyim, atam Murad ağadır. Özləri boyunlarına almasalar inanmaram. Heç kəsə inanmaram.» — deyə düşündü. Gözlərini acışdıran yaşları udub, artıq maraqla, amma onlara yanaşmadan baxan nökərə səsləndi:

— Səfi, Səfi, cəld qaç, ağanı qaytar. Deynən çox vacibdi... Sonra da üzünü Gülsənəmə çevirib, arvadın qolundan yapışdı, dartdı:

— Gözlə gedib anamı... — nədənsə dili gəlmədi. Demək istədiyi cümləni yarımçıq kəsdi. Yenidən, qətiyyətlə:

— Dur, gəl gedək. Bu sözləri Murad ağaynan Qonçabəyimin yanında... atamnan anamın yanında təzədən de! Gəl,buraxan deyiləm, gəl! —deyə Gülsənəmi içəri dartdı. Qapı

zərblə açılanda hansısa bir qəza namazını qılmağa hazırlaşan Qonçabəyim zikrini kəsmədən başını qaldırdı. Və... Və Güllərin tanınmalısı qalmamış üzünə baxdı. Qızın rəngi boğulmuşdu, paxır mis rənginə çalırdı. Yanında tanımadığı bir qadın vardı. Arxadan təəccüb içində dayanmış Murad ağa geri çağırılmağının səbəbini bilmədən baxırdı.. Qonçabəyim zikrini kəsməyə məcbur oldu:

— Noolub, noolub, ay bala? Bu arvad kimdi?

Murad ağa yanpörtü qapıdan içəri girəndə Güllər yaralı quş kimi çırpınaraq özünü onun ağuşuna atdı, hönkürtünü saxlaya bilmədi, hıçqırıqlar içində, kəsik-kəsik dedi:

— Ata... bu ar.. vad.. deyir ki, sii...z... mənim ata-anam... deyilsiz... O yanı mə... nim nənəmdi...

Qonçabəyim üzüqoylu canamazın üstünə yıxıldı. Bircə dəfə «vayyyy» deyə bildi...

Evdə hamı qəmli, hamı ac-susuz, yorğun, bitabdı. Bir qədər sonra özünə gəlmiş olan Qonçabəyimlə Murad ağa Gülsənəmi zahiri sükunət içində dinlədilər. Bir tərəfdə başını dizlərinə əyib oturmuş Güllər də eşidirdi söhbəti. Az sonra Qonçabəyimlə Murad ağanın məsləhətinə, dəlillərinə baxmayıb, «gedirəm, gedəcəyəm, mən burada arvadların pıçı-pıçısına dözə bilməyəcəm. Onsuz da bəzisinin anamla xısın-xısın söhbətinə fikir verməsəm də məndən danışdıqlarını duyurdum. Amma ürəyimin belə bəlalardan xəbəri yox idi. İndən belə heç dözə bilmərəm. Üzümə diqqətlə baxan hər kəsin şübhələndiyini, onlar o Cavad adamları qızın «bic» olduğunu bilib nişanı qaytarıblar, dediyini eşidən kimi olacam. Yox, yox! Daha bu yerlərdə qala bilmərəm.»

Qonçabəyimlə Murad ağanın yalvarışları, xahişləri kömək eləmədi, «Məni bağışlayın, əməyinizi halal eləyin! Axtarmayın,

öldüyə çıxın» — deyən cümlələri kağıza yazıb, görünən yerə qoydu və gecəynən Gülsənəm arvada qoşulub Qaradonlunu tərk elədi. Möhüb kişinin tapşırdığı karvanla Şirvana yol aldı. Ürəyindən qara qavlar gedən Gülsənəm, bu ikinci kərəmdi ki, qız uşağını caynağına çəkib bəlalardan qorumaq üçün harasa aparırdı...

* * *

Şahnisə xanım qardaşı qızıynan oturub söhbət edirdi. Gəlin dərdini yumaq açdıqca açır, bibisindən yardım umurdu. Amma sözünün canını deyə bilmir, ordan-burdan danışırdı. Şahinsə xanımın səbri tükəndi, gəlinin sözünü kəsdi:

— A bala, ala dağdan, qara dağdan nağıl açma! Dərdin nədi, çorun nədi, onu de bir?!

Gəlin gözlərinin yaşını, boğazına gələn qəhəri udub söyləməyə başladı:

— Bibi, qaynanamdı gülü solmuş. Atam yox, anam yox, bir sən umudluyam. Arvad səhər-səhər nehrə üstə qızmış nər tək nərildəyir. Axşam-axşam ağ qar üstə qarğa kimi qarıldayır. Bilən yoxdu sözü nədi, sovu nədi? Nə istəyir mənnən?

Şahnisə xanım kükrədi:

— Vallah gəlləm sizə onu bir qayınana elərəm ki, biri də yanından çıxar. Nə danışdığındı? Nöş yiyəsiz olursan? Bəyəm sən mənim bədbaxt qardaşımın balası deyilsən? Səninki dərd deyil, qızım. Dərd mənimkidi. Ellər Cavad mahalına axışır, deyir:

**Bu yol Cavada gedər,**
**Aşar Cavada gedər.**

**Uçub könlümün quşu**
**Gör nə havada gedər.**

Xalxın könlünün quşu Cavada uçanda mənimkinin könlünün quşu qarageymiş Qaradonluya uçdu, el adətinnən bir çömçə də artıq getdik qapılarına. Bircə balamdan keçə bilmədim. İndi deyillər...

Arvadın sözü ağzında qaldı. Qapı taybatay açıldı...

Səfər anasının otağına girəndə dəli-divanəydi. Dayısı qızını da görmədi, salamını eşidib almadı. Gəlinin necə otaqdan çıxdığını bilmədi. Yaxşı ki, əlində ağır, kəsərli şey yox idi. Bəlkə də arvadın anası olduğuna baxmayaraq əhdini kəsəcəkdi. Şahnisə xanımsa öz aləmindəydi. Odur ki, oğlunun əhvalına diqqət yetirmədən həmişəki deyinkən səsilə başladı:

— Bu nə xəbərdi, ay bala? Deyillər guya qara geymiş Qaradonnular nişanımızı geri qaytarır?

Səfər boğula-boğula, amma güllə kimi açıldı:

— Hələ de ki, yaxşı ki, gəlib bizi bircə-bircə qırmayıblar. Başda da sən anam. Səni!.. Səni... Bütün əməllərin sahibi. Nə Allah, nə bəndə tanıyan səni!!! Nə Allahdan qorxan, nə bəndədən utanan səni!.. Belə vücuddan nə desən gözləmək olar.

Arvadın canına vəlvələ düşdü. Ona elə gəldi ki, Səfər indicə Şahnisə xanımı ayaqları altına salıb əzə bildikcə əzəcək. Qorxu dəlu, titrək səslə, güclə soruşdu:

—Neynəmişəm mən baxtıqara?

— Neynəmisən? Atası evində gəlini gördün?

— Ötəri...

Arvad əsim-əsim əsirdi. «Allah axırını xeyir eləsin» demişdi onda. Budumu xeyir?

— Kimə oxşatdın? Ay Allahın bəlası? Pişik balası Reyhanın qızıymış o! Mənim öz qızımmış, öz balammış!!! Allah rasta salıb o vədə. Qoca arvad aparıb uzağa, Murad ağanın qapısına qoyubmuş. Yaxşı ki, Anaqız qarı ölmədi, dedi işi mənə. Yoxsa hardan biləcəkdim? Qurtardı mənn rusvayçılıqdan. Qiyamət qarası günahdan. Başıma daş düşürdü. Qəzadan öz balama evlənirdim, ay fəsad, sənin əməlinlə!.. Yoxsa... yoxsa... Öhhə... öhhə... öhhə...

Səfər üzüqoylu yerə sərilib ağlayır, çırpınırdı. Şahnisə xanım qorxusundan ona yaxın düşə bilmirdi.

— Sənin tüpürüb atdığın tikəni Allahın körpə bəndəsini, o nəcib adamlar yaxalarından keçirib, bala deyib, təmiz ad verib, gül kimi böyüdüblər. Sənsə gül nəvəni... Öhhə... öhhə... öhhə...

Səfər çiyinləri heydən düşüncən, gözləri şişib qızarınca ağladı. Yaxşı ki, Şahnisə xanım ona heç yaxın düşmədi. Düşsəydi payını alacaqdı. Nəhayət Səfər qalxıb oturdu:

— Baax, arvad, sənə ana deməyə dilim gəlmir. Sən mənim əvvəlimci düşmənimsən. Qanlı düşmənimsən. Baax, əgər bu evdə, bu yetimlərin üstündə, o səndən kölgəli, narın atamın yanında qalmağımı istəyirsənsə, bu məsələ sənnən mənim aramızda qalacaq. Rusvay-cahan olluq. Nişan qaytardıya qalanda deynən: Səfərin iki yetəmi olmağını, özündən xeyli böyük olmağını qız indi eşidib, ağlayıb-sıtqayıb ata-anasına yalvarıb: «nə günahın sahıbıyam ki, məni iki yetim üstünə, qoca kişiyə verirsiz, özü də sapanda daş qoyub atan kimi uzaq ellərə tolazlayırsız?». Onlar da bircə qızlarının arzusuna «yox» deməyiblər. Nişanı qaytarıblar. Vəssalam! Baax, yadında yaxşı saxla! Hamıya tutuquşu kimi əzbərlə, bir söz de! Hətta atam da bilsə, o gün özünü də, məni də ölmüş bil! «Öz qızına evlənən Səfər» pinəsini götürməyəcəyəm. Yaxşı bil, ay mənim qatilim!

Şahnisə xanımın ürəyi zoqquldadı. Ağır yara kimi.

* * *

Qaradonluda nişanın qaytarılması bir az başqa cür yozulurdu. Hə, doğrudan da Güllər qız Bozatlı oğlanın gickahlarına dən düşmüş, dədəsi yerində, atası yaşında dul bir kişi olduğunu, üstəlik az qala Güllərin özü yaşında olmasa da boyu bərabəri oğlu-qızı olduğunu bilmirmiş. Özünün də ayrı yerdən istəklisi, gözaltısı varmış. Əlaltı. Kimi deyirdi İran tərəflərdək, kimi deyirdi Qalaqayından. Qərəz qız ağlayıb-sıtqayıb, yalvar yaxar eləyib. Murad ağaynan Qonçabəyimi nişanı qaytarmağa razı salıb. Özü də usulluca işini görüb, astacana istəklisinə xəbər eləyib, kecənin birində Murad ağanın yel kimi yeriyən atlarından birini minib qoşulub qaçıb...

— Belə olar daaa...

— Qız xaylağına at təlimi, cıdır meydanı...

— Taxsır Murad ağanın özündədi. Cilovunu atmışdı üstünə.

— O qoşulub qaçdığı kim olar görəsən?

— Kim olacaq? Fərri adam olsaydı elə dədəsinə, anasına salığ verərdi.

— Qızı özbaşına qoyarsan ya zurnaçıya gedər, ya da...

— Yəqin avaranın, lütun biridi ki, el adətiynən irəli dura bilməyib.

— Yazıq Qonçabəyim... Əməyi əlində qaldı. Barmaqlarının qabarı sağalmayıb hələ... Otuzluqda üfə bişirməkdən.

Fısıltılar artdı:

— Ata-anası naməlum bic...

— Yəni bicdən törəmədi?

— Bu fağırlar nə bilsinlər? Dedilər: yəqin fağırın balasıdı. Anası doğuş vaxtı ölüb, atanın saxlamağa ta vanası olmayıb. Dedilər: Allah götərib... Allahın bizə payılı. Özlərinin yoxdu axı...

— Allahın bəlasıymış sən demə. Allah pay versəydi özlərinə verərdi.

— Qərəz yazıq Qonçabəyim.

Doğrudan da yazıq Qonçabəyimin otağı ölüsüz yasxanaydı.

İkinci rəvayətə görə burada yasxana açılmadı. Deyirdilər ki, guya qız gedib çay qırağına, istəmədiyi Səfərə getməkdən ölümü üstün tutub, görünür özünü gicova atıb, qaxalara ilişib, son günlərdə sel də gəlmişdi. Meyidi aparıb dənizə. Qərəz bir neçə gün üzməçilik bilənlər gicovlara baş vurdular, qıra saldılar, tapılmadı ki, tapılmadı. Çayda batdı getdi... Qonçabəyim ortalığa balasının paltarını döşədi, ehsan verdi. Murad ağa kişilər məclisində başsağlığı qəbul elədi. Bircəqız öldüyə çıxıldı. Bax bu rəvayətə inanan o əvvəlkinə inanandan çox idi. Çünki heç kəs Allah adamı olan Murad ağayla Qonçabəyimin ürəynni yersiz söhbətlərlə bulandırmaq. yara üstən yara vurmaq istəmədi: «Allah vermişdi, Allah da aldı» dedilər. Fatihə, ürək-dirək verib getdilər.

Dağ boyda dərdin ağırlığı Murad ağayla Qonçabəyimin qocalmaqda olan çiyinlərinin üstünə düşdü. Ev suyu kəsilmiş dəyirmana bənzəyirdi. Nə səs vardı, nə səmir. Nə Güllər vardı, nə də onun qəhqəhələri.

* * *

Axşam əzanına az qalırdı. Tarçalan Cabbar kişi dəstəmaz almağa hazırlaşırdı. Darvazaya iki zənən xaylağının yaxınlaşdığını görüb, arvadını səslədi:

— Ayə, ay Sahibə, gəl gör bacılar kimi axtarır?

Sahibə xala yaşmağını düzəldə-düzəldə qapıya çıxdı, Gələnlərin böyüyü salamlaşdı:

— Salam əleyk, axşamınız xeyir olsun.

— Ay əleyküməssalam! Bacı kimi axtarırsız? Bəlkə köməyimiz dəyi?

Yenə yaşlı qadın danışdı:

— Bu məhəlləni nişan veriblər, gəlin. Bura İmamlı məhəlləsidimi?

— Bəli, İmamlı məhəlləsidi.

— Abadan olsun. Biz Şərəfnisə xanım Məşədi Cəfər qızını axtarırıq.

— Hə... Budey, qapıbir qonşumuzdu. Amma, bacı, kimindi, nəyindi bilmirəm, xəbəri yerində qalsın... qulağun da yaxşılıq eşitsin. Şərəfnisə xala iki ay irəli Allahın rəhmətinə gedib.

Gülsənəm özünü itirdi. Bir az irəli evi tapmağına daxilən necə sevinmişdisə, indi bir o qədər də kədərləndi. Son ümidi də boşa çıxırdı. Əlində cavan qız uşağı... İndi hara, kimə üz tutacaqdı? Gətirmişdi nənəsinə tapşırsın. Bəs indi neynəsin? Bilmirdi. Özü üçün topladığı «ölü-diri, kəfin-dəfin pulu»nu da ona xərcləyib, Baxtıkəmin qohumları yanına göndərəndə Anaqız arvad yorğandöşəkdəydi. «Dünyada bir ölü yerdə qalmayıb, quyulayan tapılar.» demişdi. Çox düşünmüşdülər. Qızı Mahmudabada Reyhan-Qıztamamın kasıb kumasına aparıb «maya təzələmək», təzədən rusvayçılığın üzə çıxmağı deməkdi. Ayrı tutacağı, üz çevirəcəyi adamı, yeri yoxuydu bu gen dünyada. Daralıb bircə Şərəfnisə Meşədicəfər qızının evi qədər

olmuşdu dünya. O da ki!.. Gülsənəm bunları düşündükcə Sahibə xala soruşur, o da kəsik cavablar verirdi:

— Nəyisiz?

— Nəvəsidi — deyə Gülsənəm başıyla Güllərə tərəf işarə etdi.

— Maşallah... Nə yaxşı, nə yaxşı... Yazıq sağ olsaydı nə sevinərdi. Keçin içəri, xoş gəlmisiz, səfa gətirmisiz. Elə məhəllə mollamız da belə demişdi: qapını bağlayın. Dursun. Allah amanatı. Vəsiyyət eləyəndə deyib ki, Cavad vilayəti tərəflərdə oğlu var. Qan düşmənçiliyi sovuşub, gələr — evinə sahiblənər. Bir iləcən sorağı çıxmasa, fağır fığaraya verin. Xoş halalı. Bıy, başıma xeyir! Əyşi, rəhmətlik Şərəfnisə xalanın nəvəsigildi. Aaz, keçin içəri, bala! İndi boş evdə neynəyəcəksiz? Keçin, keçin. Bu gecə qonağımızsız. Yol gəlmisiz, yorğunsuz. Keçin, dincəlin.

Kişi də həyətdən xoşgəldin eləyib, arvadının dəvətini təsdiqlədi:

— Keçin, içəri, keçin. Sabah Allah qoysa, molla gələr, qapını açar, amanatınızı təhvil alarsız. Vərəsəliyi. Həlbət ki, bu gecə qonağımızsız.

Gülsənəm və Güllər qonşu həyətə girdilər.

Beləcə, əziz oxucum, Güllər qız, Baxtıkəmin nəvəsi, üzünü heç vaxt görmədiyi babasının ata yurduna daxil oldu. Bununla da hekayətimizin birinci hissəsi tamam olur. Səbriniz çatsa, ikinci və eyni zamanda sonuncu hissəni oxuyar, Güllərin macəralı həyat başlanğıcının necə davam etdiyini görərsiniz.

## II HİSSƏ

Molla otağın yuxarı başında əyləşmişdi. Hərdən bir Cabbar kişinin oğlu Səttarın gətirib onun qənşərinə qoyduğu çaydan bir qurtum alıb məclis başlamağa hazırlaşırdı. Onun sağında iki nəfər şahid: İmamlı məhəlləsinin qocalarından Baba kişi, tarzən Cabbar və bir neçə qonşu hörmətli kişilər əyləşmişdi. Hamısının da qarşısında xırda sinilərdə çay vardı. Sol tərəfdə, molladan xeyli aralı üç qadın oturmuşdu. Üçü də yaşmaqlı, alından burnunun üstünəcən çəkilmiş örpəkdə olsalar da tanımaq mümkündü: bunların biri Cabbar kişinin arvadı Sahibə xala, biri ürkək-ürkək məclisin başlanmasını gözləyən Gülsənəm, biri də yaşmağını burnunun altında güclə saxlayan Güllərdi. Yaşmaq görmüşdü ki, saxlaya da biləydi? Son aylar onu məcbur eləmişdi.

Molla qaydaya uyğun olaraq məclisə fatihəylə başladı:

— Allah bu evdən gedənlərin hamısına, baxüsus bu yaxınlarda dari-fənadan, dari-bəqaya qovuşmuş Şərəfnisə Məşədi Cəfər qızına rəhmət eləsin. Onun ruhuna bir salavat.

Salavat çevrildi.

— Allah onun qürbət ellərdə ana və vətən həsrətilə dünyaya göz yummuş, bircə nəvəsini yadigar buraxmış oğlu Bəxtiyar Məhəmməd oğluna rəhmət eləsin. Ruhu şad olsun.

Salavat çevrildi.

− Qərib balamızın da ruhuna bir salavat.

— Qardaşlar! Siz bilirsiz, qoy bacımız. Bəxtiyar rəhmətliyin külfəti Gülsənəm bacı və nəvəsi Güllər qızımız da bilsin. Şərəfnisə Məşədi Cəfər qızı son nəfəsində məni yanına çağırtdırmışdı. Bu iki şahid qardaşlarımla birlikdə gəldik, Cabbar kişinin vasitəsilə, oldular üç şahind. Arvad rəhmətlik

dedi ki, Cavad mahalında oğlu var, gəlini var. Opun rəhmətə getməyini bilmirdi. Övladı-navəsi olmağını da bilmirdi. Dedi ki, mal-heyvandan bir inəyim var, satıb pulun mənim dəfn-kəfnimə sərf eləyin. Evdə elə bir əmlakım yoxdur. Nəyim varsa göz qabağındadı. Cavad tərəflərə gedən olsa, xəbər eləyin oğluma. Qannılıq ötüb. Gəlib ata yurdunda çırağını yandırsın. Bir xəbər çıxmayınca evə-həyətə dəyməyin. Arvad rəhmətlik necə demişdisə, elə də elədik. İnəyi bazarda satdırdıq. Pulunun bir qisminə şahidlərin əlilə ağ, sidr-kafir aldırdıq. Qalan qismi də budu, məndədi. Ehsan-filan vermədik. Üçü günü fatihə məclisi bağladım. Çünki, fığaraydı — ona ehsan düşmürdü. Əgər oğlu burda olsaydı, özü bilərdi neynərdi. Qərəz. Bacımızdı, gəlinmizdi, qərib qürbətdə can tapşırmış qardaşımız Bəxtiyar Məhəmməd oğlunun külfəti! Al bu pulu, bacımız, şahidlər sayıb, qədərini bilirlər. Ev əşyasına da dəyib-eləyən olmayıb. Allah amanatı. Qab-qacaq, mis misana, yorğan-döşəkdən nə varsa yerli-yerindədi. Üçü günü qapını Cabbar kişiyə kilitlətdirib, açarını da özümnən götürmüşəm. Səttar bala al, bu açar, bu da pul, ver gəlinimizə.

Bu sözlərlə də Molla, pul bükülü yaylığı və açarı ayaq üstə oturanlara çay paylamaqda olan Səttara verdi. Səttar hörmətlə mollanın önündə diz çökdü. Əlini öpüb verdiklərini aldı və qalxıb gətirdi, Gülsənəm arvadın qarşısına qoydu.

Gülsənəm ağlayırdı. O bu yerlərdə mehriban, doğruçu, qayğıkeş və gülərüz insanlar yaşadığını ərindən çox eşitmişdi. Amma belə qarşılanacağını gözləmirdi. İlahi! Molla bir neçə dəfə onu «gəlinimiz» adlandıranda Gülsənəmin nəfəsi daralır, ürəyi döyünür, yaş gözlərindən leysan kimi axırdı. Nə deyəcəyinn, necə təşəkkür edəcəyini, bu halaldan da halal

insanlara ürəyindan keçənləri necə bildirəcəyini bilmirdi. Bir də yad kişilər yanında səsini necə çıxardardı?

Elə həmin gün, günorta namazından sonra Şərəfnisə Məşədi Cəfər qızının həyətində qızğın iş başlandı. Atayla oğul: Cabbarla Səttar həyətdə səliqə-sahman yaratmağa, solmuş ləklərdə çoxdan əkilməyən, ətirli Şamaxı göyərtisinin xəzəl olmuş komalarını təmizləyib əkinə layıq hala salmağa başladılar. Divar boyu əkilmiş hə mişəyaşıl sarmaşınları və ağacları «Allah suvardığından» yağışlardan nəm aldığından hələ tər-təzəydi. Həyətə küləklər, bir neçə ayın baxımsızlığı xeyli zir-zibil doldurmuşdu. Səttar bütün bunları süpürüb torbaya yığır və zibilliyə aparıb atmaqçün qapının o biri üzünə qoyurdu.

İçəridə də qızğın iş gedirdi. Gülsənəm, Sahibə xanım Güllərin yardımıyla otağın köhnə xalça-palazını çırpır, rəflərdəki qabların tozunu alırdılar. Mətbəxdə daha çox Güllər əlləşirdi.

Otağdakı iki camaxatandan birində qədim bir sandıq vardı. Sahibə xanım maraqla bu sandığa baxırdı. Gülsənəm onlara yaxşılıq eləyən qonşudan heç bir şey gizli qalmasın deyə, sandığın üstündəki yorğan-döşəyi götürüb xalçanın üstünə yığdı.

— Gəl, bacı, gəl görək rəhmətlik qayınanamın sandığında nə var?

Hər ikisi gülə-gülə sandığın qulplarından yapışıb qaldırdılar, çox da ağır olmayan sandığı otağın ortasına qoydular. Sahibə mətbəxə tərəf səsləndi:

— Aaaaz Güllər, Güllər! Qızım, gəl görək rəhmətlik nənənin sandığından nə çıxacaq?

Güllər əlindəki qab dəsmalıyla içəri girib maraqla sandığın açılmasına tamaşa etməyə başladı.

Sandığın açar-qıfılı yox idi. Eləcə qapağı çoxdan örtüldüyündən, üstündə həmişə yorğan-döşək olduğundan bir az ağır, amma dınqıltılı səslərlə açıldı. Otağı kəskin təmbəki iyi başına götürdü. Sandığa tərəf əyilən arvadlar asqırdılar belə.

Gülsənəm sandıqdakı əşyanın üstündəki kənarları saçaqlı boxçanı qaldırdı. Altdan bir dəst qadın paltarı, bir dəst də kişi paltarı çıxdı. Qadın tumanı zərdurdandı, arxalıq abı məxmərdən, yaxasına, qollarının ağzına, ətəyinə didilməməkçün gümüş sərmə tikilmişdi. Köynək çəhrayı atlasdandı. Yaxalığı bir cüt xırdaca, qızıl düyməylə düymələnmişdi. Kişi şalvarı, ev hanasında toxunma lap qədim şal parçadandı. Amma çuxa tünd sürmeyi mahuddandı. Bunların hamısının da arasına güvə qatili tənbəki qoyulmuşdu. Sahibə xanım gözünün yaşını silə-silə sandığın iç divarlarına əl gəzdirir, deyirdi:

— Rəhmətliklərin toy paltarlarıdı. Xeyirdə, toy-bayramda əyinlərində bir-iki dəfə görmüşəm.

Birdən qadının əli sandığın dibində nəysə yumru bir şeyə toxundu, qaldırdı, işığa tərəf tutdu, gülümsəməyə çalışdı:

— Hə... Bu sənə çatacaq, Güllər qızım, ətirqabıdı. Nənənin yadigarıdı. — deyə-deyə qabı Güllərə uzatdı.

Ətirqabı iki kiçik, parlaq sədəfdən düzəldilmiş, ağzı zəncirli qapaqla bağlanmışdı. Belə ətirqabıları Kərbəladan gələnlər gətirərdi. Şərəfnisə Kərbəlaya getməmişdi. Ya gətiricidən, xırdavatçıdan almışdı, ya da Kərbəladan gələn bir dost pay vermişdi ona. Hər nəydisə bir cavan əziziyçün saxladığı duyulurdu.

Güllər, haqqında heç bir şey bilmədiyn o nənənin uzaq-uzaq hədiyyəsini aldı. Zəncirli qapağı açmadan, eləcə bu üzdən iylədi. Qəribəydi. Tünd tənbəki iyi belə bu zərif, yaraşıqlı qaba təsir etməmişdi. Qabın dibində qalmış ətrin xoş, zərif qoxusu qapağın bu üzündən belə duyulurdu.

Birdən, hardasa lap yaxında çalınan tar səsi Gülsənəmlə Gülləri sanki keçmişə gedən yuxudan oyatdı, bu günə çağırdı. Gülsənəm Sahibəyə müraciətlə soruşdu:

— Bu tar səsi hardan...

Sözünü bitirə bilmədi. Sahibə xanım gülümsəyərək, xoşbəxt bir təbəssümlə cavablandırdı onu:

— Bizim kişidi. İş-gücünü qurtaran kimi tarı dilləndirir. Deməli dədə-bala həyətinizdə hər şeyi qaydaya salıblar.

— Cabbar qardaş tar...

— Hə, bacı, tar çalandı. Kiçik toylara, bağlara —seyrə çağırırlar. Səttara da kamança alıb, öyrədir, yaxşı usta yanına da göndərir. Neynəyək, ay bacı, sənətdi də... Dolanırıq.

— Noolar, noolar. Allah köməkləri olsun, qazancları bol olsun. Evinizə qırmızı gün doğsun.

— Allah ağzından eşitsin. Bacı, bəs siz nəynən, nə təhər dolanacaqsız? Dünənnən elə kişiynən onu danışırıq. Sovutquyuruq. Deyirəm bəlkə baş bir yaxadan çıxardaq? Yığılaq babam ocağına, kömbə salaq bucağına. Bir ev kimi dolanaq. Allah, kəriimdi.. Yaratdığını ruzusuz qoymaz.

Gülsənəm cəld dedi:

— Allah razı olsun sizdən. Narahat olmayın. Əlimdən bəzi iş-güc gəlir. Mamaçayam, türkə-çarə, ot-ələf dərmanların bilirəm. Yorğan-döşək sırıyıram. Üz alıram. Sən demiş Allah kərimdi, bir təhər dolanırıq. Qız evin iş-gücünə baxar, mən də bildiyimə. Təkcə el içində tanınmaq gərəkdi.

Sahibə xanımın elə bil çiyinlərindən yük götürüldü, sevindi:

— Allaha şükür, əlindən xeyli iş gəlir. O ki, qaldı tanınmağa çalışarıq, ara-bərə arvadlara qandırrıq. Bacım gillərə Qalabazar məhəlləsinə də deyərəm yaysınlar. Bura Şamaxıdı, bacı, təzəpərəstdi. Təzə həkim, təzə uşqol, təzə miyəllim, təzə parça... hər şeyin təzəsinin aşiqidilər. Bir az da biz tanıtmağa çalışarıq.

— Allah sizdən razı olsun.

* * *

Cabbar kişi bütün varlığıyla çaldığı muğamın ruhuna dalmışdı. Sankı dünyadan xəbəri yox idi. Sahibə xanım hamama getmişdi. Getməzdən əvvəl «yüz tapşırıqla» Səttarı bazara yola salmışdı:

— Baaaax, badımcanlar bir boyda, bir endə olsun. Yoxsa dolmada biri gec, biri tez bişir. Soğanı sarı soğan al ha — qovuranda qaralmır, qızılı rəngə çalır. Qayıdan baş çörəyi Bəyim arvaddan al, təzəcə təndir salmışdı. Mer-meyvəni bilirsən. Çörəyi meyvə tərəvəznən bir zəmbilə qoyma! Hə... yadıma düşdü: Xınısdı Sarı kişidən dədən noxud tapşırmışdı, gətiribsə, onu da al gəti.

Anası tapşırdıqca Səttar, «bəli-bəli, baş üstə» deyir, zənbil, pul hazırlayırdı.

Bütün bu danışıqlar Cabbar kişinin qulağından o yanda səslənir, sürüşüb keçirdi. Az sonra tək qaldı. Huşguşla öz-özünü dinləyərək çalmağında davam etdi. Tarın tellərinə vurduğu hər mizrab elə bil incə bir iplikla ürəyinə uzanır, xırdaca-xırdaca titrəyən bir vəhdət yaradırdı. Bitirməyə az

qalmışdı ki, birdən qulağı yad bir tappıltı eşidib təəssüflə çalğını kəsdi.

— Kim var orda?

— Əmi...

— Hə... Qız-qızı, sənsən? Gəl içəri, orda niyə durdun?

— Qulaq asırdım bayaqdan sənə əmi! Birdən o pişik zalım pçncərəyə tullandı.

Qız bu sözlərlə Cabbar kişinin tar çaldığı otağa keçdi. Güllər idi. Nənəsi Qalabazar məhəlləsində gəlin köçürüləcək qızçun yorğan-döşək salmağa çağırılmışdı. Güllər ev, həyət-bağça, mətbəx işlərini bitirdikdən sonra, Cabbar kişinin tarının səsini eşitcək onu dinləməyə can atırdı. Həmişə beləydi. Öz həyətlərnndən muğamın səsini uzaq eşitdiyindən, bir bəhanə tarıb Sahibə xanıma köməkçün onlara gəlir, hər nə iş tuturdusa qulağı tarda çalınan havalarda, xüsusən təzə-təzə tanış olduğu muğamlarda olurdu.

— Musiqini çox istəyirsən, Qız-qızı?

Cabbar kişi gəldiyi gündən Gülləri zarafatca «Qızqızı» adlandırırdı.

— Hə... Çox.

— Əcəb eləyirsən. Musiqi insanı İnsan eləyən şeydi. Blə mən də eşitmişəm, arabir oxumağının səsini. Maşallah yaxşı səsin var. Lap Allah vergisidi. Ürəyə yatımlıdı. Hayıf ki...

Bu «hayıf ki...»də, bu bitməmiş cümlədə bütün bir aləm vardı. Kişi demək istəyirdi ki, hayıf ki, qızsan. Səsini insanlar eşidə bilməyəcək. Bu Allah vergisini insanlardan gizlətmək lazım gələcək. Usta tarzənin səsində elə bir təəssüf vardı ki, qızın da ürəyi uçundu.

Usta tarzən səsini təriflədikcə Güllər qıp-qırmızı kəsildi: İlahi! Haçan eşidib, hansı havanı eşidib görəsən? Evi, həyəti

süpürə-süpürə işim-gücüm nənəm demişkən «nanay vurmaq»dı. Düşünərək başını sinəsinə endirdi. Utandığından kişinin üzünə baxa bilmirdi.

— Utanma, utanmalı bir şey yoxdu. Sən də mənim balamsan. Mən sənin oxuduğun üç mahnını eşitmişəm: Biri o «Gürcü qızı», biri «Təbriz üstü miyanə», biri də «Cikir-cikir». Həyətimizin bu üzündə dayanıb qulaq asmışam. Deyəsən yır-yığış eləyə-eləyə oxuyursan. Arabir səsin qırılır, kəsilir.

Qız bayaqkı kimi başını köksünə əyib dırnaqlarına baxa-baxa ustad hesab etdiyi tarçalanı dinləyirdi. Yanaqları bir cüt küz alması kimi allanmışdı.

— Muğamatdan necə, bir şey bilirsən?

— Yox, əmi! İndi-indi siz çaldıqcan qulaq asıb öyrənirəm. Öyrədərsiz mənə? Çox xoşlamışam muğamatı.

— Əlbəttə, mənim balam, təki səndə həvəs olsun..

— Tar çalmağı da?

— Hə, qız-qızı, hə! Həvəsün ki, var ey, hamısını öyrənərsən.

Qız dərindən köksünü ötürdü:

— Tarım yoxdu, nənəm razı olmaz.

Kişi nə düşündüsə, həm də Güllərin həvəsini öldürməməkçün coşğunluqla onu», sözünü kəsdi:

— Razı sallıq, razı sallıq. Hələ... Həlbət ki, artıq pulu hardaydı ki, sənə tar alsın? Üstəlik fikirləşəcək ki, neynir tarı? Nəyinə gərəkdi? Nə xeyir-bərəkət var o şeytan əməlində? Boş, uşaq həvəsinə pul xərcləmək əvəzinə, bir yanığımıza yamaq elərik — deyəcək. Amma sən həvəsdən düşmə! Allah qoysa, gələn toylarda əlimə yaxşı pul keçsə, özüm allam. Sən dua elə, əlim gətirsin, sənə bir ala-babat tar alım. Əlöyrəncəyiyçün. Hələ ki, səsindən muğayat ol! Muğamlara diqqət elə, öyrən!

— Baş üstə, əmi!

— Ay başun olsun güllər üstə.

Gülüşdülər. Ata-bala, baba-nəvə, əmi-qardaşqızı təkin. Cabbar kişinin ürəyində özünün belə hələ yaxşı dərk etmədiyi, sahmana salıb, ayır-bayır edə bilmədiyi fikirlər doğur, yox olur, yenidən doğulurdu.

* * *

Gəldiklərindən heç bir il keçməmiş Güllərə yeni bədbaxtçılıq üz verdi. Nənəsini, şəhərə çox yaxın olsa da, qışın bu ağır, qarlı, sazaqlı, şaxtalı günlərindən birində zahı üstünə çağırdılar. Məlcək kəndinə. Qayıdan baş arabanın bir təkəri sınır. Kömək gələnəcən əsə-əsə çölləmədə qalırlar. Arvad o yıxılan oldu. Gülsənəm baş yastığa qoyanda, yalnız bu zaman Güllər özünü tənha hiss etməyə başladı. Həyəcanlandı. Qonşu Sahibə xalanın dalınca qaçdı. Sahibə xanım gəldi:

— Vay yazıq! Sətəlcəm eləməsə yaxşıdı. Qızım, sən lopa hazırla, su qaynat, kəklikotu, qaptəpər bizdə var, gedim gətirim. Bardağı da gətirim. Gəlim, nənövün kürəyinə küpə salaq. Yazığın dişi-dişi üstündə durmur.

Son sözləri qapıdan çıxa-çıxa deyən Sahibə xanım, çovğun qarı içəri təpməsin deyə cəld qapını bərkitdi, arxayınçılıqçün arxadap cəftəsini də keçirtdi.

— Gələn gedən olmayacaq. Kimləri var ki? Hazırlığımı gməlli görüb gəlim.

Düşüncələr ürəyindən keçirdi. Külək avazımışdı, amma qar ələməyindəydi. Sahibə xanım evinə girən kimi Cabbar kişi soruşdu:

— Nə var, arvad, qarı nə təhərdi, nəyidi?

— Nəyi olacaq? Bədbaxt qızı yaman soyuqlayıb. Məlcəyə gedibmiş, zahı üstə. Qayıdanda arabanın təkəri sınıb, xeylağ qalıblar çölləmədə. Sazaq, şaxta arvadın əhədinn kəsib. Ölməsə yaxşıdı.

— Allah sən saxla! Belə gündə Allah özü qıymasın fağıra.

— Heç yaxşı gündə də qiymasa yaxşıdı. Qız uşağı... Tək tənha. Nə ata var, nə ana. Bir nənədi gümanı. Heç olmasa bir əmin Allah bəndəsi çıxa uğuruna, başgöz eləyə. Rahat köçə...

Bütün bunları deyinərcəsinə deyə-deyə Sahibə xanım taxçadan boğça, bağlama töküşdürdü. Yaz aylarında toplayıb kölgədə qurudandai sonra ayrı-ayrı torbacıqlara yığdığı otların içindən tər gətirən qantəpər və kəklikotu çıxardı. Bala bardağı mətbəx rəfindən götürüb cəm hazırlığını gördü.

— Arvad, bir kömək gərəydisə, mən, Səttar evdəyik görürsən. Cağırtdır.

— İndilik sizdən nə kömək? Gedim bardağ qoyum, küpələyim, hə,.. yaxşı yadıma düşdü. Bir dıtdağ keçi piyi də götürüm, ovxalayım onuynan. Yaxşı, gərək olsaz Qız-qızını göndərrəm.

Arvad təndirxana rəfindəki balaca bardağdan bir parça keçi piyi də götürdü. Bərk-bərk şalına bürünüb qapıya tərəf yönəldi:

— Səttar, bala, qapını tez ört, yaxşı-yaxşı bərkit, soyuq içəri təpilməsin. Oduna, kömürə qənaət elə, oğul. Di bi quyuda deyil. Təndirxanada kömürün xırdasından xəkəgüllə düzəltmişəm, ondan qızart, qoy manqala, öy soyumasın. Gecə düşür, soara yorğanlar buza dönəcək. Elə ki, qızartdın xəkə-gülləni, manqalın dəmini təndirxanada çıxardandan soora, gəti, qoy kürsünün altına. Kürsü yorğanının da qıraqlarını basdır, isti içəridə qalsın...

Sahibə xanım Gülsənəmliyə gələndə həmni omrləri Güllərə də verdi. Gülsənəmin yerini kürsüdə rahatlayıb, arvadın köynəyini boğazınacan qaldırdı. Üzüqoyulu uzanmasına yardım elədi. Sonra manqal üstə qızdırıb yumşaltdığı keçi piyi ilə Gülsənəmin kürəyini ovmağa başladı:

— Buz kimidi kürəyin, a fağır, Baba dağının qarıdı elə bil. Bunu qızdırmağa küpənin gücü çatacaq görəsən?

Sonra da hazırlanmış lopanı qızın maşa ucunda gətirdiyi közdən alışdırdı. Gülsənəmin bir dəri, bir sümükdən ibarət olan kürəyinin tam ortasına qoydu. Küpəni alovlanan lopanın üstünə endirə-endirə başladı:

— Əmün, dəmün bu olsun. Axır qəmün bu olsun. Ya həzrət Fatimə, ya Allah, mənim əlim olmasın, həzrət Fatimənin əli olsun.

Deyə-deyə küpəni odun üstünə endirdi. Bardaq arvadın sümük, damar və vəzilərdən ibarət bədəninin üstünü örtmüş olan olmaz dərisini içərisinə soranda xəstə bərkdən inildədi. Sahibə xanım sevincək səsləndi:

— Şükür Allaha, yaxşı tutdu. Mən deyirdim sənin bu quru canından küpə nə soracaq? Baaax, Gülsənəm bacı. Qız-qızı çay dəmləyir səniyçin. Qantənərnən, kəkliyotuynan. Küpənn çəkənnən soora, içərsən, başuvu, yan-yörəni basdırrıq. Kürsüyə də lap yaxşı qızarmış manqal qoyub nəvən. İnşaallah, gecə yarıya tərlərsən, canun qızışar. Sabah səhərə sappasağ olarsan. Amma, Qız-qızı, ayıq ol, gecə nənənin tərləməyini yoxla, yaş köynəyini çıxart, qurusunu geydir, yaş qalmasın səhərəcən, yorğanın altında ha!.. Bala, yoxsa təzədən dərdə düşər. Yağışdan çıxıb navalça altına düşərsən.

Bütün gecə əməliyyatı Sahibə xanımın dediyi kimi yerinə yetirildi. Sahibə xanım gecədən xeyli keçmiş evinə dönmək üzrə dedi:

— Hə, qızım, mən gedim. Görüm özləri bir şey atmayıblarsa ağızlarına kişilərə şam yeməyi verim, yatsınlar. Hərçənd ki, bu şam yeməyi deyil, obaşdanlıqdı, day ondan keçib, təki bacı sağalsın. Qızım, istəyirsən qayıdım gəlim qalım yanında?

Güllər razı olmadı:

— Yox, xala, çox sağ ol. Qalan nə tapşırmısan özüm elərəm. Arxayın ol. Sən get əmimgili rahatla. Özün də dincəl.

— Allah şəfa versin, əl məndən, mədəd Allahdan. Gülsənəm küpə və çaydan sonra yuxuya getmişdi. Arabir sayıqlayır, gah Reyhanı, gah Baxtıkəmi, Anaqızı, hərdən-hərdən də Səfər adını çəkirdi. Xəstə yuxuda nəyləsə, kiminləsə əlləşir, daha çox və tez-tez Reyhanı çağırırdı.

Sahibə xanım bir az vardı ki, getmişdi, gecə deyəsən heç yarı olmamışdı. Güllər nənəsinin sakitcə uyuduğunu, inləyib eləmədiyini yaxşılaşma əlaməti saysa da hələ yatmamışdı. Amma kürsüyə uzatdığı ayaqları isinmişdi. Kürsü yorğanını çənəsinəcən çəkib, arxasını mütəkkələrə dayayıb mürgü vururdu. Qulağı səsdə, nənəsindəydi. Təhlükə qızı ürkütmüşdü deyə dərin yuxuya gedə bilmirdi. Birdən:

-Güllər, Güllər... — çağırışını eşitdi.

İsti kürsüdən çıxmaq istəməsə də cəld yorğanın ucunu atıb qalxdı:

— Nədi, nənə?

— Kəl yanıma.

— Yanındayam dayna.

— Elə yox. Məniynən bir yerdən gir yorğana. Sözüm var sənə. Üşüyərsən, gəl.

— Səhər danışarıq, nənə!

— Allahın işini bilmək olmaz. Mən, ürəyimə damıb, gedəsiyəm.

— Sən Allah bəsdi, ay nənə! Səndə nə var ki?

— Sən uşaqsan, bilməzsən... Mənə qulaq ver, Gir yanıma! Soora sözlərim ürəyimdə qalar.

Qız nənəsinin «gedəriyəm» sözündən üşəndisə də, çəkinə-çəkinə xəstənin böyründən kürsüyə girdi. Arvad od tutub yanırdı elə bil. Qız qeyri-ixtiyari, üşüyən bədənini nənasinin od içində yanan vücuduna sıxdı.

— Yaxın... Yaxın gəl: Nəfəsim kəsilir. Soora hamısını deyib qurtara bilmərəm.

Xəstə kəsik-kəsik danışmağa başladı. Özündən, Baxtıkəm babadan, Reyhandan, Səfərdən, Şahnisə xanımdan, Qaradonludan, Anaqız anadan, Cavad mahalından məsləhət bildiklərini, qızın təhqir olunmadan bilməli olduqlarını danışdı. Elə danışırdı ki, Güllərin ürəyinda heç kəsə nifrət oyandırmasın. Xüsusilə Reyhanla Səfərdən. Onların uşaq yaşından başlayan böyük məhəbbətindən. Amma talehin, qismətin, «yazının» yoxluğundan. Gülsənəm elə bil ki, köç karvanının bu dünyadan uzaqlaşmağını duyub, qıza vəsiyyət eləyirdi. Bu sözlər, bu vəsiyyət Şərəfnisə Məşədi Cəfər qızının qonşuya, mollaya elədiyn vəsiyyətlərdən deyildi. Bunları yalnız Güllər bilməlidi. O da... Cavadda, Mahmudabaddakı yaxınlarını adbaad nişan verdi ki, birdən özü üçün qərib olan bu vilayətdə qala bilmədi, Güllər. Oradakılardan kimsə, nə zamansa gərəyi oldu bəlkə. Rastlaşdı ya nə?! Ürəyində düşünürdü: «Sənə çox şey deyə bilmirəm bala! Ürəyinin

kövrək, amma ağlın heç bir şeyi unudan deyil. Sənə ananın Qıztamama çevrlimiş Reyhanın yanına get! deyə bilmirəm. Çünki, sənə imdadı olmayacaq. Öz günü də qaradan qara olacaq. Sənə dədən Səfəri get axtar deyə bilmirəm—Şahnisə xanım kimi əzrahıl var orda, ərdov zar orda. Rüsvayçılıq var orda. Can bala, yad ellərdə qoyub gedirəm səni...»

Güllər təzəcə tanıyıb sevməyə başladığı yarı qorxuyla, yarı mürgü vəziyyətində dinləyir, doğma anasının heç vaxt görmədiyi simasını xəyalında canlandırmağa çalışanda, gözünün qabağına Qonçabəyimin sevimli üzü canlanırdı. Ölüm, qızın tanımadığı anlayışdı və o nənəsinin vəsiyyətlərini qızdırma havasına sayıqlama kimi qəbul eləyir, səhər özü bu qorxuların dağılacağına inanırdı. Beləcə səhərə qədər haçan, söhbətin hansı yerində yuxuya getdiklərini bilmədi qız. Bir də onda diksinib ayıldı ki, Sahibə xanım onu ehtiyatla oyadır:

– Qorxma, qızım, qorxma! Nənəndi daaa. Nədən qorxacaqsan? Dur üzüvə su at! Möhkəm geyin, get. Cabbar əmini çağır. Nənən bərk yatıb. Qoy gedib...

Güllər uşaq deyildi. Gənc olsa da gözü açıqdı, dərrakəliydi. Sahibə xanımın onu belə ehtiyatla və üzündəki kədərlə oyatmasından anladı ki, nənəsi keçinib və o, gecəni səhərəcən ölü yanında yatıb. Nənəsinin eşitdiyi son sözlər qulağında səsləndi:

— Sahibə xanımgildən muğayat ol! Bunlar yaxşı adamdı. Sənə pis məsləhət verməzlər... Daha sonrası yadında deyildi. Qalxaçağın geyindi. Elə əslində geyimli yatmışdı. Sadəcə başına şal bağladı. Tanımadığı o Şərəfnisə Məşədi Cəfər qızının arxalığını da üstən çiyninə atıb büründü. Cabbar kişini çağırmağa cumdu.

Sahibə xanım gah fələyin qarasına deyinir, gah da Allahına ərkyana, asilik etmədən müraciət edib deyirdi:

— Bu nə işdi, a qannı fələk? Belə gündə bu fağır axirət evinə necə yola salınacaq? Sənə qurban olum, ay Allah, buna yazacansa ömür verəydin. Babat gündə gedəydi qulluğuna. Söz-söz, deyninti yiyəsi olmayaydı.

Qapı açıldı. Köhnə bir Xorasan kürkünə bürünmüş Cabbar kişi içəri girdi, dalıycan da Güllər.

— Hə... Arvad nə fəddəsən?

— Nə fəddə olacam? Fələyin üzü qara olsun. Əzrayılın yolu yumrulsun. Aparıb biçaranı.

Güllərin kəsik, hıçqırtılı hönkürtüsünü eşidincə, kalağayının ucuyla gözünün yaşını silə-silə dedi:

**Eləmi qış öyünnən,**
**Yanı qamış öyünnən.**
**İlan yuvadan çıxmaz—**
**Sən çıxdın qış öyünnən.**

Sonra da qıza müraciətlə dedi:

— Ağlama, qızım, ağlama! Ağlama, gözüm, ağlama! Yazıq nənəni o gözəl səsinlə oxşa. Dad əlindən, dad fələk!— de ki, heç olmadı şad, fələk! Ağlama, qızım, ağlama! Ağlama nazım, ağlama! Mən duran yerdə sən ağlama! Mən də sənin anan, nənən. Allah qalan ömrün sənə versin.

— Zəvzəkləmə, arvad, qızın ürəyin bir də sən üzmə! Ömrü qalsaydı rəhmətliyin özü yaşardı. Görünür onunku da buracanmış. Dünyanın son ucu budu, hamı gəldi-gedərdi bu dünyadan. Qızı üzmə! Göndər bizə. Mən də Səttarı yollayım,

qohum-ağrəbədən kişili-arvadlı kim gəlirsə gəlsin. Qəribdi. Yuyucudan-zaddan.

— Əyşi, axlın azıbdı nədi? Bu havada yuyucu çətin tapılar. Qaydadı: hər müsəlman yeddi müsəlmanı yuyub qəbir evinə... Özüm yuyacam bacını. Ayrı adam gərək deyil! Molla durar pərdənin o biri üzündə, təhərini deyər, özüm irahatlaram.

Cabbar kişi arvadın təklifindən razı qaldı, kövrəldi:

— Nə deyirəm ki? Son bilən... Allah imanuvu kamil eləsin.

— Səniynən belə. Bacıma xəbər elə, gəlsin. Bir o olsa bəsimdi.

Güllərin çiyinləri hələ də əsir hıçqırıqları ara vermirdi. Son ümidiydi nənəsi. Nənəsinin ölümündən başqa, Güllər öz gününə də ağlayırdı: atalıykən — atasız, analıykən — anasızdı. Taleyin, Sahibə xanım demişkən fələyin o qara yazan qələmiylə ata-analı diri yetim qalmışdı, bu dünyada. Ata tərəfdən var-dövlət, bir bölük qohum-əqrəba, el-gün sahibiykən yad əllərdə qalmışdı. Baba yurdu olsa da hələ lazımınca tanıyıb sevmədiyi qürbət ellərdə kimsiz kimsəsiz qalmışdı. Sahibə xanım kimi mehriban arvada urcah olsa da gözəl, sevimli, heç vaxt unuda bilmədiyi Qonçabəyimsiz qalmışdı. Ona can kimi sevdiyi musiqinin sirrlərini, möcüzələrini öyrətsə də, at belində quş kimi uçmaq vərdişi vermiş mərd Murad ağasız qalmışdı, bu dünyada... Qəribə, çalpaşıq bir vəziyyətə düşmüşdü. Güllər bu dünyada.

* * *

Gülsənəmin: heç qırxı çıxmamış məhəllənin və qohumların arvadları arasında xırda-xırda söhbət, qiybət başlandı. Ürəyi yanan, «qəribdi-savabdı, adamı yoxdu. Gedək bir ağız oxşayaq,

öz ölənlərimizi də yad eləyək, bir az ürəyimiz boşalsın, onun da ruhu şad olsui. Yazıqdı» deyə cümə axşamları arvadlar havaya-zada baxmadan, çox illər irəli yaxşı tanıdıqları Şərəfnisə Məşədi Cəfər qızının evinə yığılışdı. Hər cümə axşamı ehsanı qohum və tanışlardan biri hazırlayıb gətirirdi. Qədim adətdi. Çay-çörəkdən sonra ölən qalırdı bir yana, söhbət başlayırdı:

— Aaaz, bu bədbəxt qızının nəvəsi, qız xeylağı tək-tənha necə dolanacaq?

— Tək neyşə? Yer ayrılıb yerdən çıxmayıb ki?! Yanı bir yerdə, lap elə o Cavad mahalında bir ağrabası yoxdu?

— Yox, Sahibə bacı deyir ki, heç kəsi yoxdu.

— Onda Cabbar kişinin qurdu ulayıb.

— Necə yanı?

— Nə necə yanı? Hazır subay-salıq, tək, ərkən qız.

— Allahın olsun, nəvəsi yerindədi.

— Özün demirəm, a batmış, oğlu var, oğlu.

— Səttarı deyirsən? O Aya baxanı?

— Hər nədi, genə karastıdı. Kişidi. Bir şeyə yarar. Şərəfnisənin evi də onlara qalar, mal-madarı da. Allah verib onlarınkın.

— Nə yoğurdum, nə yapdım — hazırca kökə tapdım. Buna deyiblər.

— Hi... hi... hi...

— Aaaz bəsdürün, Sahibə dostu bizə tərəf baxır. Deyəsən duyuq düşüb nədən danışırıq.

— Yamanlığına bir söz demirik ki!? Allahın əmri...

— Mən bilən o qız o gədəyə getməz.

— Neyşə?

— Neyşəsi yoxdu ki, bəyənməz.

— Qudurarsan qurbağa? Neyşə bəyənmir? Ərdi da necə olsa.

— Gecə onu yorğanda qoyub Aya baxmağa çıxanda...

— Görəsən bilirmi Səttarın dərdəcərliyini?

— Bilməmiş olmaz. Az qala bir ildi qonşudu.

— Bir evlidi. Sahibəgil yaxşı adamdılar. Qızın fəryadına çatarlar. Bazarlığını, odun-ocağını, bayır-bacaq işini görərlər. Möhübün düzərlər... Savabdı.

— Adlah imadlarını kamil eləsin.

Beləcə ara söhbətləri dərə-təpə kimi, xırda ləpəli dəniz suları təkin qalxıb-enir, gah Cabbarla Sahibənin xeyrinə, gah əleyhinə, eləcə də Güllər qızın gah xoşbəxtliyinə səbəb olan, gah da qeybətli düşüncələr şəkli alırdı. Söhbətlərin, qeybətlərin çoxu bekar arvadlar arasında qızışır, Sahibə xarımın da qulağına çatırdı.

Gülsənəmin qırxından sonra bir gün Cabbar kişi Səttarı harasa göndərnb Sahibə xanımla evn xəlvətlədi, bir qədər öz aralarında danışandan sonra, Gülləri çağırıb vəziyyəti ona açdılar.

Güllər dedi:

— Əmi, Sahibə xala, qayğımı çəkdiyinizçün çox sağ olun. Mənim qohumlarım olsa da, gedən yerim, sizdən başqa umudum yoxdu. Bunu da bilirəm ki, tək qız xeylağı nənəmin evi olsa da özbaşıma dolana bilməyəcəyəm. Ağzıgöyçəklərin bəzi-para sözləri mənim də qulağıma çatıb.

— Ağlına qurban olum.

— Məni bağışlayın, üzümün suyunu töküb sizinən açıq danışıram. Özünüz də bilirsiz ki, sizdən başqa tutacağım, kimim kimsəm olmadığıyçün sizinən belə danışmağa cürət edirəm. Baaax, onu yəqin bilin ki, Səttar qardaşım yox ha... lap

padşah balası ola, ərə getmək fikrim yoxdu. Cabbar əmi, mən səndən muğamatı dərindən öyrənib xanəndə olmaq, sənnən birgə məclislərdə oxumaq istəyirəm. Balan kimi. Çəngi olub qız paltarında da yox. Bəlası çox olar.

— Ağlına qurban olum.

— Mənim tərbiyəçilərim uşaqlıqdan mənə kişi paltarı geyindirib, at minmək öyrədib. Adətkərdəyəm. Qəzanın bu günü varmış. Nənəm əlimdən gedəndən bəri bunu düşünürəm.

— Bəs məhəllə, bəs dost-tanış?

— Onun da çarəsini fikirləşmişəm. Onsuz da mən bir dəfə ölmüşəm. Sizə danışaram. Qoy əməlli...

— Nənə deyirəm ki, qızım, can sənindi. Sən ki, mənə bir ata kimi bel bağlayırsan, beylə etibar eləyirsən, çox sağ ol. Elə ağlın, kamalın da xoşuma gəlir. Sənətə meylin da. Halal olsun sənə ananın südü, atanın çörəyi, nənənin əl əməyi.

Güllər «əgər o südü içmişəmsə, əgər o çörəyi yemişəmsə... Əməyə gələndə Qonçabəynm anaynan Murad ağanın əməyini, zəhmətini heç vaxt yadımdan çıxartmayacağam.» deyə düşünürdü, Cabbar kişi danışdıqca.

Bir neçə geyəcəydi ki, arvad şübhələrini ərindən gizlətməyə çalışır, tez-tez həyətə çıxıb, kimiysə, nəyiysə güdürdü. Ona elə gəlirdi ki, gecələr kimsə gəlib Şərəfnnsə Məşədi Cəfər qızının həyətinin darvazası önündə dolanır. Qaranlıqda gələnin kim olduğunu ayırd edə bilmir, özünü də göstərməməyə çalışdığından adamın kimliiyini müəyyənləşdirə bilmirdi.

Bir gecə Cabbar kişi boğaza yığıldı. Tez-tez həyətə çıxıb geri qayıdan arvad yorğan döşəyi buza döndərirdi:

— Haralardasan, qarı? Nə qarınağrısına düşmüsən?

Sahibə xanım əvvəlcə müəyyənləşdirməmiş demək istəmədi, sonra kişinin acıqlandığını görüb məsələni açdı:

— Əyşi, özünnən çıxma! Bir neçə gecədi görürəm ki, kimdisə Şərəfnisə dostunun evinin başına dolanır. Ha gedib güdürəm, bir sudur anlaya bilmirəm. Kimdi, nəçidi. Oğru-əyri ola bilməz, çünki rəhmətliyin nəyi var, hamıya əyandı. Deyirəm... Qıza əl atan olar bəlkə... Axı cahıl-cuhul bilir ki, qız təkdi. Başı papaqlı yoxdu evdə...

Kişini elə bil ilan vurdu. Yerindən dik qalxıb çuxasını çiyninə salıb həyətə cumdu. Əvvəlcə kölgələrlə getmək istədi, amma sonra aydınlıq yerinə çıxdı həyətin. Səsinin lap qalın yerinə salıb bağırdı:

— Ay adam, kimsən? Əgəm mal oğurluğuna gəlmisənsə, lap nahaq yerə. Şərəfnisə rəhmətliyin şəpir-şüpürü nəyinə gərəkdi? Yox əgəm can oğurluğuna gəlmisənsə, bil ki, o qız uşağının qeyrəti mənə düşür, odu ki, ev boşdu, çırağ elə belə yanır. Qız bizdə, uşaqların anasıynan qalır. Nahaq zəhmət çəkiə! Evdə aparmalı nə mal var, nə can.

Doğrudan da darvaza tərəfdən qaranlıqdan bir kölgə sovuşdu. Divar dibi çəkilib getdi. Cabbar kişi üşüyənəgən həyətdə dolandı. Sonra otağına qayıdıb isti yorğan döşəyinə girdi:

— Haqlısan, arvad düz bilmisən. Qızı güdən var. Bir zəfər toxundurarlar sonra gərək başımızda papaq gəzdirməyək. Bura Şirvandı ha... Sabahdan qızı gəti yanımızda o yankı otaqda sənnən yatsın

Gülsənəmin qırxından bir on-onbeş gün keçmiş məhəllədə xəbər yayıldı ki, o gəlmə qız, o mamaça arvadın gətirdiyi Güllər, o Şərəfnisə Məşədi Cəfər qızının nəvəsi çayda boğulub ölüb. Sel imiş, seldə balığ tutmağa gedib xəlbirnən. Su elə artıb ki, başı qarışıb, xəbər tuta bilməyib, sel götürüb aparıb qızı. Çaylaqdan bir az aralı otluqda başmaqları qalıb. Bir neçə gün

Cabbar kişi, Səttar oğlan aşağı kəndlərə soraq saldılar. Meyidi tapılmadı ki, tapılmadı. Dedilər:

— Allah bilir. Ya hansı bir gicovdasa qaxalara ilişib meyidi, ya da lap uzaq kəndlərin birində tapılıb, sorağı çıxmayıb, gamaat yiyəsi gəlmədiyini görəndə kəfin-dəfin eləyiblər, qurtarıb gedib.

— Elə olar da... Yiyəsiz də qız olar balam?

Bir neçə gün bekar, qiybətə söhbətə yer axtaran arvadlar Sahibə xanımın yanına gəlib-getdilər. Əlbəttə ki, kimsəsiz, qərib, dərd-sərini bilmədikləri qız üçün ağız açan, ağı deyən, oxşayan olmadı. Bir nəfər ağzını açmaq istəyənə yer-yerdən çığırışdılar:

— Kəs aaaz, Sahibə xanımın evinə elə-belə gəlmişik. Evində hələ oğul toyu olmayıb. Nə oxşamaq bazlıqdı? Hüzür salmayın xalxın evinə!

Sahibə xanım kədərli sima taxınıb dedi:

— Hə... Kişi gedib mollanı gətirdi. Şərəfnisə xalanın qapısını genə ikilikdə bağladılar. Kişi Cavad mahalının ağsaqqallarına xəbər göndərib. Bir iləcən qohumu tapılıb gəlsə, molla qapını açıb verəcək ona. Gələn olmasa, bir fığaraya...

Beləcə arvadlar hərtərəfli cavab alıb evlərinə dağılışdılar.

Bir də məhəllə camaatı gördü ki, Cavad qəzasından bir «şikilli» gözəl-göyçək oğlan gəlib, Cabbarla molla vasitəsilə qapını açdırıb atasının bibisi evində məskunlaşıb. Hamı sakitləşdi. Danışıqlar yaddan çıxdı. Güllər də.

O vaxtdan bəri gah Şərəfnisə Məşədi Cəfər qızının, gah da Cabbar kişinin evində musiqi sədaları eşidilməyə başladı. Əvvəllər qonum-qonşunun xeyir işinə yarayan tarzən Cabbar kişi indi əməlli dəstə düzəldib şöhrətlənməyə başladı. Sən demə «təzə qonşu» gözəl səsli oğlanmış. Cabbar kişi onu da özünə

qoşub, ciddi işə girişmişdi, Cabbargillər. Cabbar özü tar, oğlu Səttar kamança çalır, «təzə qonşu» isə muğamın sirrlərini Cabbar kişidən öyrəndikcə, məhəllə musiqi sevərlərinin, xüsusilə tez-tez seyrə çıxan, bulaq başında, ağac kölkəsində, çay qırağında, meşə talasında süfrə açan şamaxılıların sevimlisi olurdu. Sorağı İmamlı məhəlləsindən çıxıb şəhərə yayılanda, deyirdilər ki, Allah Şirvana ikiminci Mirzə Məhəmməd Həsən yetirib. Lap onun öz cavanlığıdı ki, durub. Danışığlar Mahmud ağanın oğlu Cavad ağanın və dövrün qocaman xanəndəsi məşhur ustad Mirzə Məhəmməd Həsənin qulağına çatdı. Cabbarın dəstəsini xüsusilə şamaxılıların ağız dolusu tərifədikləri cavan xanəndəni dinləmək istədilər. Növbəti musiqi və şeir məclislərindən birinə dəvət etməyi qərara aldılar.

Səməd Sahir hələ Şamaxı şairləri içərisində o qədər də tanınmırdı. Şair kimi yaxşı tanınmırdı. Amma şeir, musiqi həvəskarı kimi çoxlarına bəlliydi. Yazdıqlarını üzə çıxarmaqdan utanırdı. O qədər özü kimi «cızmaqaraçı» vardı ki, az qala hər qara tanıyan özünə dəbdəbəli bir ləqəb seçib «mən də şairəm» deyirdi. Şeirin nə vəznindən xəbəri vardı, nə qafiyəsindən. Heç kəsi də bəyənmir. Harda gəldi iki-üç adam taplandığını görüncə bayazını çıxarıb «şeir» oxuyurdu.

Səməd Sahir beləlrindən olmasa da, gizlicə şeir haqqında kitablar oxusa da, qoca şairlərin müsahibələrini dinləsə də, bilənlərdən əruz-heca kimi vəzn, qafiyə, məzmun, bədii ifadə vasitələri: təşbih, istiarə, rədif, rəddül-əcz-ələssədr, təsxir... öyrənir, şeir formalarını: qəzəl, qəsidə, həcv, müsəlləs, mürəbbe, müxəmməs, təxmis, tərbi və s. diqqətlə öyrənir, amma hələ özünü şair adlandırmırdı. Gecələr Füzulinin «Divan»ı, Seyyidin əlyazma şəklində əllərdə gəzən qəzəlləri əlindən

düşmürdü. Yazdıqlarının çoxu da Füzuliyə. Seyid Əzimə nəzirələrdi.

«Təzə xanəndə»dən bir də ona görə xoşu gəlmişdi ki, bu cavan sənətkar Füzuliylə Seyiddən başqa demək olar km, ayrı şairin qəzəlinn oxumurdu. Özü də hamısı seçmə. Hamının oxuduğu, dönə-dönə təkrarlananları deyil, ruhuna, məclisə uyğunları seçirdi. Təsnifləri də el şairlərinin, heç adı bilinməyən mahnıları, bayatılarıydı, seçib oxuyurdu. Heç kimi təkrarlamır, həmişə ağzından nəysə yeni bir şey eşidirdin. Təzə çıxan mahnılarda bayağı bir şey, söz vardısa oxumurdu. Bir də gördün yarımsərxoş birisi bağırırdı:

— Aaaadə, «Gürcü qızı»nı oxu.

— «Pirəxod gələndə»nini... «Pirəxodu».

Həmişə də onun yerinə qocaman tarzən Cabbar kişi cavab verirdi:

— Onu olmaz, ayrı şey de, baaşuva dönüm.

— Neyşə, əyşi? Pulun artıq düşüb? Ala daaaaa...

— Yox eyyy... — Cabbar kişi incisə də, büruzə vermir di bu «Yalı artıq düşüb»ə bənzəyən ifadəyə görə məclisə şulumluq salmaq istəmirdi, sakitcə gülümsəyib sərxoşu ovundurmağa çalışırdı:

— Yooox qaaadoylalım, bizdə o tavana hardadı? Eləcə içində yava sözlər olan mahnıları öyrənmir, oxumur.

— «Pirəxod»da nə var axı?

— Çox şey.

Yer-yerdən ağlı, huşu üstündə olanlar sərxoşa sarı dillənirdilər:

— «Pirəxod» Füzulinin meydanı deyil... Füzuli qəzəlinin yanında «Pirəxod»?

— Heç Seyyidin də əlinə su tökməyə gərəkməz elə şeylər, lotu allam səni, qoynuma sallam...

— Qoy ədəb məclisində qulağımız ədəb eşitsin.

Sərxoş danlaqlardan ayılantəhər olurdu:

— Nə deyirəm ki? İstəmirsiz-istəməyin.

Beləcə xanəndə öz bildiyini, sevdiyini oxuyurdu, həmişə. «Fatmaxanım bağı»nda bir dəfə belə bir hadisə baş verdi. Məclisn çox çətinliklə sakitləşdirmək mümkün oldu.

Həmin gecə Səməd Sahir də Cabbar kişigilə qahmar çıxıb az qala boğazlaşmışdı. Yaxşı qutardı amma. Ağılbəndlər, bu və qonşu çovğadarda oturanlar içindən durub gəldilər, işin döyüşə, söyüşə çıxmasına yol vermədilər Bir tərəfdən «təzə xanəndə» ürəklərə yatmışdı, o biri tərəfdən də təmiz, ədəbli dəstə yaratmış Cabbar tarzən, artıq musiqn sevərlərin nəzərində ustad mövqeyinə qalxmışdı. Bir səbəb də vardı: Son yığıncaqların birində Cavad bəy məclisində «təzə xanəndə»yə Mirzə ləğəbi vermişdilər: «Mirzə Güllər». Gənc qız haqqında həqiqəti Cabbar kişidən öyrənəndən sonra Cavad bəy onu ali məclisləriq və özünün himayəsinə götürmüşdü. Qızdır — nə olar — ədəbi də səsi kimi xoşa gələndir» demişdi. Hələlik Mirzə Güllərin taleyindən xəbərsizlər, onun qız olduğunu dəqiq bilməyənlər arasında bir-birinə zidd söhbətlər gedirdi:

— Yaxşı, aaaadə, bu nə addı Mirzə Güllər? Güllər arvad adıdı, Güllərdən Mirzə olar?

— Noolsun? Neyşə olmur? Elə adlar var ki, oğlana da qoyurlar, qıza da. Məsəlçün: Soltan, İzzət, Şövkət, İsmət... Nə qədər istəsən. Qonşumuzda bir arvad var, adı Gülbala. Ata-anadı da balaca çağa vaxtı böyüyüb baba olacağını fikirləşmir, oğlana elə ürəyi bəyənən Güloğlan, Gülağa ad verir ki...

— Axı Güllər xalis qız adıdı?

— Olsun da! Elə deyillər ki, qızdı da. Cabbar kişinin öz doğmaca qızıdı. Oğlan paltarında cəzdirir.

— Kül o atanın başına. Biqeyrət!

— O dərdinən pul qazan apar ver Gülcahan yesin. Kişiliyə bax qıznan pul qazanır. Yerə soxum onu.

— El demə! Allahın bağışladığı səsi, o gözəl, Seyyid demişkən «ləhni-Davudu» yəni Davud peyğəmbərə lütf olunan səsi insanlardan gizlətmək böyük günahdı.

— Allahın da, əstəğfürullah, necə deyərlər, işi-gücü qurtarıb. O səsi oğlana verəydi daaaa.

— Səndən soruşmayıb. Sənnən məsləhətləşməyib.

— Asi danışmayın. Özü bilən məsləhətdi. Amma belə səsi onsuz da dörd divar arasında gizlətmək olmazdı. Cidanı çuvalda...

— Yaxşı, Güllər Güllərdi — anladıq. Bəs bu Mirzə hardan çıxdı?

— Deyirlər Mahmud ağanın evində Cavad bəyin məclisində xeyli xeyli ədib, şair, musiqi və şeirşünas varmış. Bu Gülləri də orda imtahana çəkiblər. Sonra da hamısı bir ağızdan ona «Mirzə» ləğəbi veriblər. Biliyinə, dərrakəsinə, kamalına görə. həm də istəyiblər ki, kişi məclislərində arvad adıyla çağrılmasın, öcəşən olmasın.

— Balam, bura Şamaxıdı, qardaş, qaadoyalım sənin. Sən yüz ad qoy camaat bildiyini çağıracaq.

— Bura Şamaxıdı, qardaş. Hər yetənə Mirzə deyilməz. Görünür imtahandan yaxşı çıxıb.

— Elədi, elədi. Onlarla aşıq və xanəndə içində təkcə üç oxuyana bu yerlərdə Mirzə deyilib.

— Hansılardı onlar aaadə?

— Mirzə Məhəmmədhəsən, Mirzə Bilal, bir də indi Mirzə Güllər.

— Afərin, vallah.

— Barakallah. Arvad olanda nə olar? Kişinin qızı layıqlıdı görünür.

Artıq musiqi həvəskarları içində xeyli ad-san qazanmasına, sevilməsinə baxmayaraq Mirzə Güllər, sənətinin sirrlərinə daha dərindən vaqif olmaq üçün can-başla çalışırdı. Qoca Səttarın muğam haqqında bildiklərini öyrənə-öyrənə hiss edirdi ki, bu azdır. Ona daha dərin bilikli ustad lazımdır. Doğrudur, boş vaxtlarında Füzulinin divanı, Seyyidin əllərdə gəzən əlyazma qəzəlləri əlindən düşmür, oxuduqca oxuyur, sözlərin mənasını dərk etməyə çan atır, beytləri özü üçün açmağa çalışırdı ki, mənanı bilib ürəkdən oxusun. Sözləri sadəcə təkrarlamasın. Bu arzular onu artıq şöhrəti bütün Azərbaycana yayılmış Mirzə Məhəmmədhəsənin dərgahına aparıb çıxartdı. Mirzədən dərs almağa başladı. Mirzə tez-tez ona deyirdi:

— Düzdür, evladım, sözlərin mənasını biləsən gərək. Bilmədiyin sözü oxuma! Gülünc olarsan, məna bilənlər yanında xəcalətli qalarsan şairin də ruhu səndən inciyər. O irəli bir cavan xanəndə Seyyiddən oxuyur. Çox əcəb. Seyyid mərhum öz gözəlinə müraciətlə götür üzündən bürqəni—yəni rübəndi, örtüyü götür ki, camalını görüm. Bürqə örtükdür. Xanəndəysə oxuyur: götür üzündən bərqi. Bərq işıq, ildırım, güclü şüadır. Əgər gözəlin üzündən işığı götürsən, qalar kösöv. Bunu da nə Seyyid deyər, nə gözəl eləyər. Gülmə, gülmə, evlad! Vallahi uydurmuram səni başa salmaqçın. Doğrusu beləydi. Onu da bil ki, bilməmək ayıb deyil, bilməyib belə rusvayçı xəta buraxmaq, şairi təhrif etmək, belə, yüngül desək, yanlışlıq, sənət sahibi olmaq istəyənçün rusvayçılıqdı, ayıbdı. Bilmədiyini soruş,

öyrən bilənlərdən. Mənim nə qədər canımda can var, sənə kömək eləyəcəm, utanma, gəl!

Həzrəti-Mövlana buyurub ki, «Musiqi dəryadı, qıçlarımı çırmaladım, amma girə bilmədim», Əgər o girə bilməyibsə bu dəryaya... biz də bir damla...

Mirzə Məhəmmədhəsən yaradıcılığının elə bil sonu yaxınlaşır, o böyük istedad bədənində, gözlərində duyduğu ağrıları büruzə verməsə də, həyatının ağır günlərinin başlanmaqda olduğunu duyur, sanki Mirzə Güllərdən özünə əvəz hazırlayırdı. Güllər dərslərə davam etdikcə qocaman xanəndə bildiklərini ona öyrətmək üçün heç bir şeyi nə yoxluğu, nə varı, nə vaxtı əsirgəmirdi.

— Füzulinin hansı qəzəllərini əzbərləmisən?

— İki qəzəlini, ustad! Biri «Olmuş» rədifli:

**Büti-novrəsim namaza şəbü ruz rağib olmuş**

Bu nə dindir, Allah-Allah, bütə səcdə vacib olmuş
beytilə başlanan qəzəlidi, o biri də «Verdin» rədifli:

**Səba, lütf etdin, əhli-dərdə dərmandan xəbər verdin,**
**Təni-məhzuna candan, cana canandan xəbər verdin.**

mətləli qəzəlləridi.

— Başa düşmədiyin sözlər varmı, qızım?

— Var, ustad, var. Bir də tək-tək sözləri deyil, həmişəki kimi bütöv qəzəli, zəhmət olmazsa təhlilinizi istərdim.

— Mənə ustad demə, Güllər qızım!

— Bəs nə deyim? Ustad xoşunuza gəlmir?

— Daha çox «Mirzə» deməyinizi arzulardım. Mirzə nadir müraciət formasıdı, xüsusilə xanəndəyə... Ustad yerinə çağırılmağıma hələ əmin deyiləm.

— Siz deyilsizsə bəs kimdir, ustad?

— Hər nəysə... Füzulidən başqa daha kimin qəzəllərini oxuyursan? Unutma ki, sən məktəb-mollaxana görmüş sən. Qara tanıyırsan. Səndən sözlərin mənasını dürüst söyləmək, böyük və mənalı, həm də bədii cəhətdən gözəl yazan şairlərimizi tanımaq vacibdir. Hamıya vacibdi, sənə xüsusilə. Çünki, məlumun olan səbəbə görə yolunun üstünə çöp deyil, tir-dirək atanlar az olmayacaq.

— Bir də Seyyidi xüsusilə sevirəm.

— Yaxşı eləyirsən, Füzulimizin yadıgarı Seyyidimiz. Bir də unutma ki, muğamat qəzəl üçün, qəzəl də muğamat üçün yaranıb. Heca vəzniylə qoşma, gəraylı, hətta tənbəllikdən bayatı belə oxuyanlar muğamda böyük səhvə yol verirlər. Həm şeirdə iymalə, həm musiqidə qırıqlıq əmələ gəlir. Bunu sözarası dedim. Yaxşı bəs Seyyidimizdən hansı qəzəli seçmisən?

— Biri «Kaş ki» rədifli:

**Olmayaydı məndə, ya rəb, bu məhəbbət kaş ki,**
**Ya ki, hər giz olmayaydı dərdi-firqət kaş ki!**

beytilə başlanan qəzəlidir.

— Çox gözəl. Az oxunan bəlkə də heç oxunmayan qəzəlidir, təzə səslənəcək. Yəqin ki, «segah» üçün seçmisən. Sənə deyəcək, irad tutulacaq bir yeri də yoxdu.

— Elədi, Mirzə. Mən bu məsələyə xüsusi fikir verirəm.

— Əcəb eləyirsən. Sən həmişə elə qəzəllər seç ki, içərisində ədəbdən kənar söz olmasın. Başqa kişi xanəndələr

oxuya bilər, oxuyar da. Amma sən, sənin üçün ləyaqətli qəzəllər çoxdur ki, içərisində açıq-saçıq bir mətləb olmasın. Bəs Seyyiddən daha nə seçmisən? Yoxsa elə bircə budu?

— Xeyir, Mirzə! Bir neçəsini də seçmişəm: Mətlələrini deyim: Biri «Necə həmtay tutum hər büti-zibayə səni», ikiminci «Özümlə olsa idi mən cahana gəlməz idim», «Neylirəm gülzarı ki, sən gülüzarımsan mənim» və yenə bir neçə qəzəl ki, bu dörd qəzəldən başqa.

— Çox pakizə. İndi də gəl soruşduğun beytləri təhlil eləyək. Elə əvvəlcə Mövlana Füzulidən başlayaq. Nə deyir o birinci beytində? Əvvəlcə sözlərin mənasına nəzər salaq: «büt» əslidə ilahi heykəl deməkdir ki, qədim bütpərəstlik dövründə ona səcdə edilib. Bu səcdədən çıxış eləyən şairlər, Şərq şaprlərinin demək olar ki, hamısı gözəli ilahəyə — səcdə olunan bütə bənzədiblər. «Növrəs» cavan deməkdir. «Şəb» gecə, «ruz» gündüz — deməkdir. Ustad deyir ki, mənim gözəlim namaz qılır. Allah, bu (yəni İslam dini) necə dindir ki, büt-ilahə özünə səcdə olunduğu halda həmin dinə səcdə edir — namaz qılır.

Diqqətlə qulaq asan Güllərin sevinc dolu anlayışla təbəssüm oynayan dodaqlarımdan bir neçə kəlmə süzüldü.

— Aydım oldu. Təşəkkür edirəm, Mirzə!

Dərs o gün xeyli çəkdi. Mirzə Məhəmmədhəsən danışdıqca, izah etdikcə Güllər bu izahatları süngər, kimi canına, yaddaşına hopdururdu.

Belə günlər çox çəkmədi, ustad xəstələndi, qulaqları, gözləri tutuldu, inzivaya çəkildi və ara-sıra Güllər ona dəyməyə gələndə də artıq nəsihət və izahlarından məhrum olduğu müəllimin acınacaqlı həyatını müşahidə edir, gözləri dolur, qəhər boğazını boğa-boğa evinə qayıdırdı. Amma ustad əlindən getməkdə olsa da, dərslərini, məsləhət və nəsihətlərini unutmur,

durmadam çalışırdı. Güllər yaxşı bilirdi ki, «çalışmaq ən xeyirli sərvətdir».

Səməd Sahir Güllərin oxuduğu bütün məclislərdə, seyrlərdə, yığıncaqlarda iştirak etməyə can atır, elə bir həvəslə görüşlərə gəlməyə çalışırdı ki, heç nəylə bu arzunun, bu həvəsin qarşısını almaq mümkün deyildi. Belə bulağbaşı seyrlərdən birində necə oldusa, dinclik vaxtı Səmədlə Cabbar kişi təkətək qaldı. Səməd Sahir ustadın nəzərini çoxdan cəlb etmişdi. Çoxdan görürdü onun gözlərindən saçan atəşləri. Müşahidə etmişdi, Soruşub öyrənmişdi ki, pozğun cavan deyil, şairdir. Şeir və musiqi aludəsidir. Mirzə Güllərin səsinə valehdir. Elə buna görə də açıq, birbaşa danışdı:

— Çox gəzirsən dəstəmizin dalınca, oğul! Bura Şirvan, bura Şamaxıdı. Nə qədər şair, nə qədər musiqişünas yetiribsə, bir o qədər də sözbaz, şəbədəçi, həcvgu, hər bardağa üç qulp qoyan, ağızdan avara adam yetirib.

Oğlan qızardı, sifəti ala-tala oldu:

— Bilirəm, əmi! Amma mən sizə dəyən heç bir iş tutmuram. Allah eləməsin də.

— Bilirəm. Amma genə qoru özünü də, bizi də yersiz böhtanlardan.

— Göz üstə. Amma necə?

— Azalt görüşləri.

Səməd kirpiklərini endirdi, gözləri yumulu kimiydi Arxalığının qolçağını didişdirirdi:

— O əlimdə deyil, əmi! Kaş bacaraydım.

— Bacarasan gərək.

— Bacara bilmirəm. Çox çalışmışam özüm də.

— Allah balamı afətlərdən saxlasın.

—Amin! Allah özü bilir ki, mən onu özümə qardaş bilirəm. Gecə də gündüz də səsi qulağımdan getmir. Yuxularımı da onun zili, bəmi, zəngulələri əlimdən alıb.

Cabbar kişi nə düşündüsə, el içində o qədər də aydın olmayan, çoxlarının inanmadığı «heç dədə də qızını kişi məclislərinə, naməhrəm içinə buraxarmı?» deyə qətiyyətlə şübhələrə son qoymaq istədiyi sirri bu saf, bakir cavana açmaq xəyalına düşdü ki, bəlkə biləndən sonra, onlara rəhmi gələ, əl çəkə, uzaqlaşa, qulaqları dincələ. Cabbar kişi bu qərara gəlib alçaq səslə, pıçıltıya bənzər tərzdə ağır sirr açarcasına ətrafına göz gəzdirib dedi:

— O oğlan deyil, bala, mənim qızımdı.

— Allah sən saxla! Əmi mən bunu çoxdan duymuşam, bilirəm. Ürəyimin harasındasa bir səs deyib mənə. O eşqlə, o məhəbbətlə, o hisslə musiqini, qəzəldəki Füzuli, Seyyid dühasındakı mənanı yalnız qadın belə tərənnüm edə bilər. O oxumur, əmi! O oxuduğuyla yaşayır, qəzəllərdəki, muğamlardakı atəşlərlə qovrulur, yanır.

Səməd Sahir danışdıqca Cabbar kişinin qolları yanına düşdü. Cavab tapa bilmədi. Qaş qayıran yerdə göz çıxarmışdı. Ölgün səslə gənc şairin axar dağ çayına bənzər sözlərini yarıda kəsdi:

— Allah hamımızın köməyi olsun, bala! Day mən sənə nə deyim? Bir söz vardısa, onu da sən dedin.

Növbəti görüşlərin birində Səməd Sahir ustada bükülü bir kağız verdi, yalvarırcasına:

— Ustad! — dedi. — Bu qəzəli Mirzəyə verin. Bəlkə bəyənib oxudu.

Cabbar kişi kağızı açıb baxdı, doğrudan da qəzəl idi, məhəbbət məktubu deyildi. Yenidən büküb çuxasınıp cibinə qoydu.

— Yaxşı.

* * *

Məlhəmdə kiçik toy yaxşı keçdi. Məclis muğamat aşiqiydi. Odur ki, nağıl, dastan dinləməkçün aşıq dəvət etməmiş, ürəklərinn oycalayan muğamat arzulamış, Cabbar kişidən xahiş etmişdilər ki, işini elə qursun ki. gündüz açıq havada oyun havaları çalıb uşaqları oynatsınlar. Məhər kişinin məsləhətilə toyxana qurulmamışdı. Bir tərəfdən ona görə ki, havalar gözəl keçirdi. Yazın oğlan çağıydı. Yağıntı-filan gözlənmirdi. Nəfəs darıxdıran, darısqal mağardansa, kişinin həm həyəti böyükdü, bağatdı, həm də meydan kimi, dördgöz otaqlarının qənşərində geniş eyvanı vardı. Yaşlı adamdı Məhər kişi, ilk nəvəsinin kiçik toyu da qoca vaxtına düşmüşdü:

— Bilmək olmaz, böyük toyuna ömrüm vəfa eləməz — demişdi, — böyük toyunda lap Mirzə Bilalı çağırın, yeddi gün, yeddi gecə nağıla qulaq asım. Amma indi könlüm muğamat istəyir. O illərdə Mustafa kişinin oğlunun toyunda görüb eşitmişəm Mirzə Gülləri. Əslində bilirsiz ki, mən kiçik toy tərəfdarı deyiləm. Kişiyə bir kərəm toy olar, o da böyük toy. İndi əlimə nəvəm fürsət verib. Çağırın Mirzə Güllərin dəstəsini gəlsin, gündüz uşaqlarçın çalarlar, onlar da oynar. Gecə də bizə muğamat feyzi verər, nə deyirsiz?

Məhər kişiyə kim nə deyəcəkdi? Sözünü, qərarını dəyişən olmamışdı hələ.

— Hə. İndi ki, dinmirsiz, deməli razısız, xəbər eləyin Cabbar ustada. İşini mən deyən sayaq qursun. Gündüz uşaqların, sonra bizim ixtiyarımızdadı. Axşamdan gecə yarısınacan. Sonra istərlər — gözümüz üstə yerləri var, qalmazlar — genə qulluqlarındayıq. Atdan, arabadan verib yola sallıq.

Tarzən Cabbar əlbəttə Məhər kişi kimi hörmətli bir adamın sifarişini qaytarmamış, demişdi:

— Baş üstə, can üstə. Gecəniysə sizə artıq zəhmət verməqrik. Nə yoldu ki? Baharın bu gözəl çağında dağlar müşk-əmbər qoxuyur. Gəzə gəzə qayıdarıq özümüzçün.

— Noolar. Sizə nə xoşdu, bizə də xoşdu. Amma Mirzə bilsin ki, biz onun yolunda heç nə əsirgəmirik.

Şair Səməd Sahir də irəlicədən Cabbar kişiyə yalvar-yaxar eləyib onlarla birlikdə toya gəlmişdi. Kənddə o qədər dostu, tanışı vardı ki! Onun gəlişi heç bir təəccübə səbəb olmadı. Səməd Sahir tay-tuşu olan cavanlarla birlikdə kəndin özündən gələn qonaqlar arasında oturmuşdu. Danışıldığı kimi, gündüz Cabbar kişi tarıynan Səttar kamançasıynan, bir də ustanın dəvət etdiyi qoşanağara çalan Bədəl nahardan başlamış ta şər qarışana, lampalar, çıraqlar yananacan həyətdə hazırlanmış meydançada çaldılar. İkicə dəfə yemək fasiləsinə çıxdılar. O qədər oyun havası çalıb cavanları oynatdılar ki, Bədəl demişkən «hamısının mitili çıxdı, leş oldular».

Axşam binanın böyük salonunda muğamat axşamı başladı. Gələnlərin çoxluğunu görüb, axı qonşu kəndlərdən də gələn çoxuydu, odu ki, dəsgahı böyük eyvana keçirdilər. Onluq, otuzluq lampalar eyvanı gündüz işığına qərq elədi. Yeddilik lampalar və fənərlər həyətdən gələn yolları işıqlandırırdı. Məclisin baş tərəfində üç kətil qoyulmuşdu. Kətilin

qarşısındakı xırda mizin üstünə al kimxa örtük salınmışdı. Örtüyün dövrəsi bir qarış enində bafta, hərəmi, zəncirə və qızılı saçaqla bəzədilmişdi. Zövqlü gəlin əllərinin işiydi. Süfrənin üstünə çalğıçılar və xanəndəyçün şirniyyat və çay fincanları düzülmüşdü. Qoşanağara çalan Bədəl şər qarışanda işinin bitdiyini görüb şəhərə dönmüşdü.

Yerə divar boyu salınmış döşəkçələr üstündə ahıl, xüsusi hörmət sahibi, kühənsal kişilər əyləşmişdi. Nisbətən cavan və ümumiyyətlə gənclərsə döşəksiz-zadsız, xovlu xalıların üstündə harda gəldi, necə gəldi, harda yer tapdı, bardaş qurub oturmuşdu.

— Gəldilər...

Yan otaqdan çıxan tarzən Cabbar kişi, kamançaçı Səttar və hamının, hər yerdə yalnız «Mirzə» adlandırdığı xanəndə Mirzə Güllər görününcə, yuxarı başdakı yerlərinə keçməkçün məclisin ortasında oturanlar aralanıb onlara yol verdilər. Dəstə keçib xüsusi ayrılmış yerdə əyləşdi. Görünür Cabbar ailəsinə çox yaxın olan ağbircək arvadlardan biri yaşmaqlanıb gələnlərə yanaşdı, hal-əhval soruşdu:

— Sahibəni na əcəb gətirmədin? Necədi, nə təhərdi?

— Sahibə bir az əfəldi, ay xalası! Çölə çıxmağa layığı yoxdu.

Cavanlar arasında məclisdə pıça-pıç artdı, uğultuya çevrildi. Danışanların səsi eşidilməz oldu.

Qocalardan kim isə pıça-pıç salmış adamları sakitləşdirməkçün ucadan səsləndi:

— Ədəb, evladlar, ədəb!

Eyvanı sakitlik çökdü. Hamı bilir və bilməyənlərə də başa salırdı: «Artıq məşhur xanəndə kimi tanınıb sevilən Mirzə Güllərin oxuduğu məclisdə tütün çəkmək olmaz, danışmaq,

muğamın şirin yerində durub çöləbayıra çıxmaq və ya içəri girmək olmaz. Xanəndə təsnif və ya oyun havalarına keçəndə durub oynamaq olmaz. Mirzə Güllərə yalnız «Mirzə» deyə müraciət edilir, cavabı isə mütləq Cabbar kişi verir. Mirzə məclisdə çay içib, bir şey yeməz, çay qarşısına qoyulub soyusa da əlini vurmaz.

Bu gecə hansı dəsgahın oxunması ev və şənlik sahibiylə irəlicədən razılaşdırılıbsa — Cabbar tarzən çalğıya başlamazdan əvvəl bunu elan edir, yox razılaşdırılmayıbsa, onda hörmətli qocalardan biri təklif verirdi. Dəstənin qaydası beləydi.

Bu gecə Məhər kişinin sifarişiylə onun çox sevdiyi «Şur» muğamı — tamam-dəsgah oxunacaqdı.

Oxundu da.

Dəsgahın əvvəlində Mirzə Güllər Füzulidən, Füzuli məhəbbətinin tərcümanı olan qəzəllərindən başlayıb adəti üzrə Seyid Əzimə keçdi. Təsniflərin bir yerində Səməd Sahirin heç eşitmədiyi bir bayatı oxudu:

**Eləmi göz gözüvə,**
**Dikmişəm göz gözüvə.**
**Axtardım tapammadım**
**Oxşadam göz gözüvə.**

Məhəbbət dolu cavan ürəklərdən sızı kimi keçən ,bu bayatıdan sonra Mirzə Güllər, birdən-birə Səməd Sahirin neçə gün əvvəl Cabbar kişiyə verdiyi qəzəli oxumağa başladı:

**Gördüm səni, ey gül, ürəyim qül-qülə düşdü.**
**Bağ içrə gözüm, ey gözəlim, bir gülə düşdü.**

## Yandım, yanasan sən də Cünun eşqinə, ey şux!

Mirzənin bütünlüklə oxuduğu qəzəli Səməd Sahir yalnız burayacan dərk elədi. Bundan sonra eşitdiyi yalnız musiqiydi. Mirzənin o ürəyə yatımlı səsiylə oxuduğu əlvan, ilahi səslərdən yoğrulmuş şux muğamıydı. Sözlər nəyə gərəkdi? Onsuz da onlar kamanından çıxmış ox təki, şair Səməd Sahirin qəlbindən qopub çıxmış misra-misra qanad açıb uçmuş, Mirzə Güllərin ayaqları altına sərilmişdi. O sözlər bu ecazkar musiqinin, bu göylərin mavi ənginliklərindən süzülüb gələn Tanrı mükafatı xanəndə səsinin yanında zəifdi, heç nəydi. Onlar cam, qan, ət və sümük verən o İlahi, o ilhamlı, o dinləyicilərinə ruh bəxş edən səsdi. Candan, ürəkdən oxuyan xanəndənin səsiydi. Öz məhəbbətini, öz daxili aləminin müqəddəs, can alıcı hissiyyatını əlavə etmişdi o sözlərə.

Səməd Sahir bu axşam ikiqat əsir olmuşdu Mirzə Güllərin səsinə!

Gecə kiçik toydan, əslində muğam axşamından birlikdə dönürdülər: Üç cavan: Mirzə Güllər, Səməd Sahir, kamançaçı Səttar. Bir də oturuşmuş olsa da, hamısının ustadı Cabbar kişi. Dördünün də kefi kökdü. Gecə çox yaxşı, aydınlıq, ılıq gecəydi. Onbeş gecəlik ay ətraf təpələrə, ağaclara elə bir nur seli ələmişdi ki, deyirdin gündüzdür. Uzaqda yaxında yaylıma çıxmış çobanların, qoyun sürülərinin, qurdbasan köpəklərin həniri gəlirdi. Hər tərəf işıq olsa da, yol boz, dəvə boynu kimi əyri-üyrü, burmalarla, üzüaşağı şəhərə doğru enirdi. Təpələrin, meşəliklərnn seyrək ağaclıqların talası arasında kölgələr əcayib şəkillərdə oynaşırdı. Büllur kimi saf hava ciyərlərinə ləzzətlə dolurdu.

— Adam heç evə getmək istəmir.

— Düz deyirsən, belə gecədə yatmaq günahdır.

— Eşq-məhəbbət ələyir göylər.

— Eh, ay oğul, eşq də toxun xörəyidi, acın yox.

Qoca qarılardan birinin sifarişiylə Mirzə Güllər haçansa qoşulduğu məlum olmayan «Günü» mahnısını oxumuşdu. O «Ay günü günün qara, eyləmisən günüm qara, səni düşəsən odlara» dedikcə arvadlardan bəzisi mahnının məhz onun həyatıyla əlaqəsini düşünür, toy sahibi duymasın deyə gizlicə gözünün yaşını silirdi. İndiysə...

— Bəxtəvər çobanların başına. Belə gecədə yaylıma çıxmağın ləzzəti dünya malına dəyər.

— Amma yaylıma çıxmağın dumanlı, çiskinli, şaxtalı-sızaqlı gecələri də olur. Onda da bəxtəvərdi?

— Bir qarnı toxdusa...

— Düz deyirsən. Bala, dünya iki bölünüb: biri yeyir yağlansın, o biri çəkir gödən ağrısın. Hardadı hamıda o bəxtəvərlik ki, aylı gecədə ac külfət dərdi qala, o da...

— Ustad, sən Allah, bu gecənin rövnəqini, gözəlliyini o kədərli şeylərlə pozma.

— Dədə, deyirəm gəlsənəm bu gecə bu gözəl yerdə özümüzçün məclis quraq. Seyrə çıxanlar kimi. Elə həmişə ya öyrənməkçün məşq eləyirik, ya da özgə toyunda, məclisində başqalarına keyf veririk. Deyirəm noolar, gəlin baaax, bu yosunlu daşların üstündə oturaq, alətləri köynəyindən çıxardaq. Bir çalaq, baaax, özümüzçün. Nə deyirsiniz?

Səttarın sualı cavabsız qalmadı. Hamının ürəyindən oldu təklif. Məhər kişinin evində yorulmamışdılar, inçiklik-filan olmamışdı. Yaxşıca yeyib-içmişdilər: quzu kababından, «Papov» çayından. Bir də təbiətin əsrarəngiz gözəlliyi onları elə almışdı ki, Səttarın sualına sözlə deyil, işlə cavab verdilər.

Hərəsi bir daşın üstündə əyləşdi. Gecəydi, hava gündüzkü kimi qızmar günəşli deyildi, amma yenə də yerdə ilan-çayan ola bilərdi. Odur ki, göyçəmənlikdə deyil, məxmər mamırlı daşların üzərində yerləşdilər. Cabbar tarı, Səttar kamançanı, Mirzə Güllər dəfi köynəyindən çıxardı...

Mirzə Hüseyn segahının həzin, yanqılı sədaları qalxmağa, ətrafa yayılmağa, gecəni bir qədər də sehirli, bir qədər də əsrarəngiz etməyə başladı. Segah dalğa-dalğa təpələrə, meşəliklərə, dərələrə yayıldıqca gecənin mübhəm sükutu incə-incə dağılıb getdi, yanğı qaldı, ürək oycalayan Güllər səsi də bura qoşulduqca saf, aydın, büllur hava musiqinin təsirini bir az da uzaqlara, harda bir nakam ürək vardısa oraya yayırdı. Güllər daxilindən gələn, ecazkar gecənin daha da canlandırdığı, bir az da gücləndirdiyi o ilahi səsilə oxuyurdu. Dadına, fəryadına yenə də Füzuli gəlmişdi, həmişəki kimi. O böyük düha bu sətirləri düzəndə kimi düşünmüşdü? Bilmirdi Güllər. Amma indi qızın bütün vücudunu, damarlarındakı qanı, beyin hüceyrələrini belə qələyana gətirən o böyük, əzəli, əbədi bir məhəbbətdən yazdığı şübhəsizdi. Güllər zahirdə nə qədər «Mirzə» olsa da, əyninə kişi geyimi geysə da qız idi. Bütün varlığıyla bu uca, bu qüdsi məhəbbətə, bu ilahi eşqə tapınan bir xilqət idi. Segah onun qız ürəyini bir az da kövrəltmiş, bir az da eşqə mayil etmişdi. Güllər oxuduqca, bir neçə vaxtdan bəri gözlərindən saçılan qığılcımların hər biri bir hərfə, sonra da toplanıb böyük bir eşq atəşinə çevrilən Səməd Sahir məhəbbətini düşünür, duyur, sonsuzluğuna, heçliyiiə, bəhrəsizliyinə vaysınırdı. Segahın diliylə bu ölümsüz «ölü» məhəbbətə ağı deyirdi. Nə qədər böyük də olsa, bu eşqin sonu yoxudu və Güllərlə Səməd Sahir arasında, iki, eşq alovunda qarsalanan ürək arasında dağlar qədər böyük bir maneə dururdu

ki, onun da adı zaman və sənət idi. Nə qədər əcayib görünsə də bu gün, başqalarını birləşdirən musiqi sənəti onu, o qızı məhəbbətinə qovuşmağa qoymazdı. Heç vaxt, heç bir ər ona arvadım deməz. Heç bir qayınana onu gəlinim adlandırmazdı. Sənət, sənət eşqi onu dinc, sakit, evli-uşaqlı ailə həyatından məhrum etmişdi və o haradasa buna təəssüf etsə də ayaq geri çəkən deyildi səsindən, sənətindən. Qız muğamın bir guşəsindən o birinə keçdikcə sanki bunları gənc şairə — Səməd Sahirə anladırdı:

**Şəmi-şami-firqətəm, sübhi-vüsali neylərəm?**
**Bulmuşam yanmaqda bir hal, özgə halı neylərəm?**

Sanki böyük ustad beytləri məhz Mirzə Güllər eşqini düşünərək, duyaraq yazmışdı:

**Yox əcəb gər malə rəğbət, mülkə qılman iltifat,**
**Mən gədayi-kuyi-eşqəm mülkü malı neylərəm?**

Nə yerində söyləyib o kühənsal Bağdad bəzəyi? Dünya bəzəyi şair? Mülk-mal Güllərin nəyinə gərəkdi? O eşq məhəlləsinin kölcəsi, quluydu. Bu eşq də muğam adlanan, indi Mirzə Hüseyn segahında ləpələnən möcüzəydi. Sehrləmişdi onu. Əbədi bir sədaqətlə sehrləmişdi onu «Ləqəbinə aldığın Sahir, sehrdir o musiqi eşqi, o muğam eşqi, o sənət eşqi mənimçün. Ürəyimdə daha başqa heç nəyə, heç bir hissə yer yoxdur». — deyirdi. Güllərin içindəki o ikinci «mən», səslərlə, pərdələrlə, guşələrlə:

**Ey Fizuli, qıl kəlami-fəzl kəsbin, yoxsa mən**

## Kamili-eşqəm, dəxi özgə kəmalı neylərəm?

Ürəyi uçuna-uçuna duysa da o cavanı amma, o, artıq «kəmali-eşq»idi, «özgə kamal» lazım deyildi ona.

Səməd Sahir də bu mübhəm, bu sirrlər dolu, eşqlə ləbələb gecənin möcüzəsindən, segahın və Füzulinin sehrindən. Mirzə Güllərin zəngulələri, zili-bəmi ilə elə sehrlənmişdi ki, daxilində daima Güllərlə «söhbət edən o ikinci mən» susmuşdu indi. Ona elə gəlirdi ki, bu gecə, bu saatlar, bu anlar heç bir sevdalıya qismət olmayan, Məcnunun, Fərhadın, Vamiq və Əzranın dadmadığı vəsl gecəsidir. Ömrü boyu uzanacaq. Gülləri gəlin gətirəcək evinə. Güllər daha yad, biganə, naməhrəmlər məclisində deyil, onun halal evində, onunçün oxuyacaq. Bu sözləri muğamın diliylə ona deyəcək. Başqalarına yox. Bu gecə uzanacaq, uzanacaq, uzanacaqdı. Ömür uzunu. Bu həzin, bu yanğılı segah göylərdənmi tökülür, dərələrdənmi qalxır, qartal kimi dağ zirvəsindəmi cövlan edir? Vüsal nə şirinmiş?! Bu gecə vəsl gecəsiydi şairçün. Ömrü qədər, ilhamlı dünyası qədər sevdiyi mələk, qılman donunda olsa da bu gecə öz zümzüməlariylə ona əbədi bir səadət vəd edirdi...

Güllər isə... Qaradonludakı əzizlərini tez-tez xatırlayırdı. Murad ağayla Qonçabəyim heç yadından çıxmırdı. «Yağaram yağış kimi, bitərəm qamış kimi, hər dəm yadıma düşürsüz, bir nüybar yemiş kimi» deyib təsniflərə daxil elədiyi mahnılarda belə o mehriban, o əziz, o doğmadan-doğma insanları unutmurdu. Xalq mahnılarından birinin mətnini seçib, azacıq dəyişikliklə təsniflərdə oxuyur və ona elə gəlirdi ki, haradasa Qonçabəyim, ya Murad ağa onu eşidir, elə indi də:

**Durnam, gedirsən Cavada,**

**Cövlan edirsən havada,**
**Sevdalı atam Murada**
**Durnam, ona salam eylə.**

**Durnam gedirsən Vətənə,**
**Bac vermirsən hər yetənə,**
**Bir iltimasım var sənə**
**O anama salam eylə.**

Cavad qəzasıyla bağlı nə vardısa eşitmişdi, bilirdi ki, Kür qırağında yerləşən Cavad, çox qədim yaşayış yeridir, qədim kitablarda orada tərəcədən tikiləi evlərin gözəlliyi, abü-havası, təbiəti, balıqdan bişən cürbəcür yeməkləri təsvir olunub. Hətta qədim Yunan tarixçilərinin buranı «Yavati» adilə qeyd etdiklərini belə. Cavad hökmdarının gözəl bağçası, ola sarayı olduğunu məclislərin sakit vaxtında ağılbəndlərdən, qoca ərənlərdən, bilginlərdən eşitmişdi. Amma Cavadda doğulsa da, göbəyi Cavadda basdırılsa da Qonçabəyim anamın, Murad ağa atanın yaşadığı Qaradonlunu bilirdi. hətta doğma ata yurdu, indi həyat sürdüyü, bütün keçmiş ulularının dəfn olunduğu Şirvan torpağını sevməyə, onun daş-torpağı, dağ-dərələri, bağları haqqında onlarla əfsanələr dinləsə də sevməyə başladığı Şamaxını vətən bilmirdi. Vətən məfhumu onunçun Qonçabəyim anayla, Murad ağa atanın onu pərvazlandırdığı, nazını çəkib bağrına basdığı o yerlər idi. Odur ki, mahnılarında belə o yerləri yad edir, atasıyla birlikdə at sürdüyü, ceyranlı düzləri xatırlayıb oxuyurdu.

Birdən çalğıçılar Segahın təsniflərindən birinə keçdilər... Və Mirzə Güllər öz şaqraq səsilə dağlara, dərələrə, qayalara, o Ay qüruba getdikcə kölgələrn artan meşələrə, səadət bağışladı.

Həzin qəm əvəzinə can, ruh elədi. Sanki yuvalarında yatan quşları səsləyir «oyanın, mənimlə birlikdə cəh-cəh vurun deyirdm.

Təsnifin ayağını hansısa şux bir şairin qoşduğu cinas bayatıyla bitirdi:

**Tapmadım itirmədən,**
**Hər quşa yetirmə dən.**
**Eşitdim rəqib ölüb**
**Qutardım it hürmədən.**

İndi artıq çalğıçılar da coşğun, şaqraq bir oyun havasını «düşməni öldüyü üçün it hürməsindən qurtaran» şair eşqinə gülə-gülə, həvəslə çalışırdılar. Gözlərindən bir az əvvəlki nəm qurumuşdu.

Səməd Sahir vüsal eşqilə nə zaman ayağa qalxdığını. nə zaman qollarını açıb oynamağa başladığını özü də bilmədi. Məst idi, gecənin, segahın, Füzuli eşqinin, Güllər səsinin təsirilə məst idi. Onda öznə gəldi ki, Cabbar kişi çalğını kəsib, tarın köynəyini «geyindirir» və gülərək deyir:

— Sən ölməyəsən, o yaylıma çıxmış çobana bir keyf verdik ki, heç babası da görməmiş ola. Özü də sabaynan kəndə gedib danışacaqdı ki, bu gecə cin-şəyatin yığınağına irast oldum. Bir çalıb-oxuyur, oynayırdılar ki, gəl görəsən. Aralarında kiminsə toyuydu, qonaqlığıydı, nəydi görəsən? Bilmədim. Bir yeyib-içmək, bir şülən fısqırıq vardı day nə təhər. Yaxşı ki, mən aralıdaydım, mənə dəyib dolaşmadılar.

Cavanlar gülüşdü. Cabbar kişi sözü bitirib ayağa qalxdı:

— Yolçu yolda gərək.

* * *

Üç gün sonra Səlimağalıda Səlim bəyin oğlunun toyundaydılar. Əlbəttə müxtəlif yollarla şair Səməd Sahir də dəvət əldə etmiş, toya çağırılmış və elə tarzən Cabbarın dəstəsilə birlikdə getmişdi. Cabbar kişi nəysə Səlim bəyin oğlunun toyuna getmək istəmirdi. Heç ürəyi açılmırdı. Şübhə doğuran bir səbəb olmasa da, bu toydan xeyir götürəcəyinə inanmırdı. Ürəyi irəlicədən ona nəysə təhlükəli bir iş, bəlkə də faciə baş verəcəyini xəbər verirdi. Təşvişdəydi. Yığışanda da, yola çıxanda da... Əlinə nə götürürdü — düşürdü. Axırda hətta hamıdan qızırğandığı, heç kəsə etibar edib vermədiyi tarı belə Səməd Sahirə verdi. Hissiyyatı onu aldatmamışdı. Toy bir qədər şuluq keçdi. Gedib dal həyətdəki evlərdə içib məclisə sərxoş gələnlər ağsaqqalları bərk incitmiş, narahat etmişdi. Lakin «sov-saqqal» olmaq, urvatdan, abırdan düşməməkçün qocalar ucadan bir söz demirdilər. Sadəcə «toybəyi», «xan» və ləyaqətli cavanlardan kimisə yanlarına çağırıb şuluq salanı, oynamaqdan yorulmayıb ortadan çıxmayanı əl altı, müxtəlif bəhanələrlə rədd edirdilər məclisdən. Bununla belə yenə də «Göbəyin ağ dələmə», «Ay qız kimin qızısan?», «Pirəxod» deyib bağıraraq sifariş verənlər olurdu. Halbuki, Mirzə Güllərin Səlimağalıya birinci gəlişi deyildi. Hamı bilirdi ki, o, təsniflər oxuduğu zaman ortaya atılıb oynamaq istəyənləri, bayağı mahnı tələb edənləri bəyənmir və oxumur da. Cabbar kişi günirəlidən toy sahibiylə şərtləşirdi. Ümumiyyətlə Mirzə Güllər toylarda kim olursa olsun danışmağı sevmirdi. Heç kəslə kəlmə kəsmirdi. Bütün suallara Cabbar kişi cavab verirdi. Səttar da dinib-danışmadığından bu hal, o qədər də təəccüb doğurmur, qanuni

bir şey kimi qəbul edilirdi: başçıları, ağsaqqalları Cabbar kişidi, o da cavab verir.

Elə buna görə də Səlimağalının harın bəy balalarından biri toydan sonra evə tərəf yıryığışla məşğul olan sənətkarlara yanaşdı:

— Gedirsiz?

— Bəli, bəy.

— Siz gedin, o bizdə qalacaq. Səlim bəyə də demişəm. Aparacam bizə, bu gecəni mənnmçün oxuyacaq.

— Hara gedək? Oxutmaq istəyirsən — biz onun çalğıçılarıyıq.

— Bizsiz qalmaz, bəy!

— Necə yanı qalmaz? Ağzı nədi?

— Ya hamımız, ya heç kim.

— Məni cin atına mnndirmə ha, Cabbar kişi!

— Bəy, dedim mümkün deynl. Allah insana bir ağız, iki qulaq verib ki, bir desin, iki eşitsin. Bizsiz olmayacaq.

Bəy zahirdə razılaşdı sanki.

— Onda qurtaran kimi bizə...

Cabbar kişinin çarəsi kəsilmişdi. Sərxoş cavandan necə yaxa qurtara biləcəyini düşünürdü. Elə düşünə-düşünə də yoldaşlarıyla birlikdə bəyin evinə tərəf yollandı. Səməd Sahir də onlarlaydı. Həmişə ürəyində Səmədin onlara qoşulmağından narazı olan Cabbar kişi bu gündə, bu saatda cavan şairin onlarla olmasına sevindi. Bəy Səməd Sahirin də çalğıçılarla birlikdə gəldiyini görəndə qaşlarını çatıb soruşdu:

— Bu kimdi? Hansı dərənin...

Cabbar kişi cümlənin bitməsinə aman vermədi, dedi:

— Mənim şagirdimdi.

...Bəyin həyətinə daxil olcaq ev sahibinin işarəsiylə çalğıçıları ahatə edib, evin altındakı ambara tərəf ötürməyə başladılar. Cabbar kişi anladı ki, indicə «Qız-qız»nı onlardan ayıracaqlar. Boğazı tutula-tutula bağırdı:

— Bay, namərd... lik... «Tamahda zillət var» deyib ulular...

— Necə? necə? Aaadə kəsin o köpəyin səsini.

Nökərlər müqavimət göstərməkdə olan Cabbar kişini, Səttarı və əlbəyaxa vuruşan Səmədi döyməyə, döyə-döyə də ambara tərəf sürükləməyə başladılar. Təkcə Güllərə dəymirdilər.

— Bəy, qana bais olacaqsan, dörd qana. Allah...dan qorx! Ya hamımız... ya heç kim tək qala bil... məz bu..rda.

Birdən Güllərin qayım səsi eşidildi, o balaca qəməsini belindəki təkbənddən çəkib köksünə dayamışdı:

— Bəy, atamgili bihörmət eləmə! Əgər onlara bir şey olsa, mən bircə an da sağ qalmayacağam.

Üz-üzə dayanmışdılar. Harın, sərxoş oğlanla, cavan, zərif qız! Amma bu gənc oğlan libasındakı qızın gözlərində elə bir qətiyyət vardı ki, bir anda onun rəqibi sərxoşluqdan ayıldı. Bütün Şirvan, külli Azərbaycan Mirzə Güllərin ölumünü, həm də onun günahı olaraq faciəli ölümünü ona bağışlamayacaqdı. Ayıldı... Qaş-qabağını töküb pillələrlə yuxarı, otağına tərəf qalxmağa başladı. Mirzə Güllərin qayım səsilə həyətə çökmüş sükut içində bəyin boğuq əmri eşidildi:

— Buraxın... Rədd olub getsinlər.

Evə çox bikeyf, əsəbi qayıdırdılar. Səlimağalıdan şəhərəcən heç biri bir kəlmə də danışmadı. Dördü də xəcalət içindəydi. Dördü də küsülü kimiydi. Dördü də bu abırsız mövzuya toxunmaq istəmirdi. Qapıya çatanda Cabbar kişi birdən-birə

Gülləri dərddən qabarmış bağrına basdı. Yenə də heç bir kəlmə demədi. Güllər öz qapılarının cəftəsini çəkəndə Cabbar kişi yavaşca soruşdu:

—Bəlkə bu gecə bizdə qalasan, ya xalan sizə gələ?

— Yox.

Tək qalmaq istəyirdi. Böyük dərdini təklikdə ayırd eləmək, həzm etmək istəyirdi. Qız içəri keçdi. Yeddilik lampanı da yandırmadan, geyimli-keçimli, üzüqoylu taxtın üstünə sərildi. Göz yaşları üzünü yandırır, qəhər nəfəsini boğur, dərd sinəsini qovururdu.

Güllərin işıq yandırmadığını görən tarzən Cabbar kişi anladı ki, qız heç kəslə, hətta Sahibə xanımla belə görüşmək istəmir. Şərəfnisə Məşədi Cəfər qızının darvazasını örtdü, bayırdan cəftəni keçirtdi. Öz evinə tərəf döndü.

Səttarla Səməd dinib-danışmadan ayağının birini götürüb o birini qoyur, heç birisi qan-qaysan olmuş sirsifətindəki, başındakı yaraların sızıltısını duymurdu. Bu yaraların giziltisini, zoqqultusunu Cabbar kişi də öz canında hiss etmirdi sanki. O daha çox zərbə almışdı, alnı, çənəsi, əlləri qan içindəydi, qurumuş, qaysaqlanmış qan, dərini dartır, yaralardakı ağrının gücünü bir az da artırırdı.

Cabbar kişi öz darvazasının cəftəsini açdı. Dinməz-söyləməz Səməd Sahirin əlini sıxıb, oğlu Səttarla birlikdə həyətə keçdi. Yalnız bu zaman yadına düşdü ki, tarı əlində deyil, Səmədədir. Döndü, darvazanın ağzında hələ də mat-məəttəl dayanmış şairdən tarını aldı:

— Sağ ol, oğul!— dedi. — Get dincəl. Sən də bizə görə işə düşdün. Can cəfadan da usanır, səfadan da. Allah ona ağıl versin.

Səməd Sahir məlul-müşkül Cabbar tarzənin üzünə baxıb, çiyinlərini çəkdi və sözsüz-sovsuz dönüb getdi. Hara? Heç əslində özü də bilmirdi. Bir onu bilirdi ki, evlərinə gedə bilməyəcək, gec gəldiyinə görə anasının gileyli-nigaran üzünü görə bilməyəcək, yatmayacaq, yata bilməyəcək, eləcə pallı-paltarlı döşəyin üstündə əyləşəcək. Anasının nigarançılığını bir az da artıracaq.

Odur ki, darvazadan aralansa da İmamlı məhəlləsini tərk etmədi. Ürəyi, məhəbbəti, həyatı, gələcəyin ona vəd etdiyi nə vardısa, o azacıq ilhamını göylərə qaldıran kim vardısa burada, bu məhəllədə, Şərəfnisə Məşədi Cəfər qızının evindəydi. Ondan qəfil, Molla Nəsrəddindən soruşan kimi «Dünyanın mərkəzi haradır?» soruşsaydılar, heç şübhəm yoxdur ki, əlilə, başilə, ürəyilə Şamaxının İmamlı məhəlləsini nişan verər, Şərəfnisə Məşədi Cəfər qızının evini göstərərdi. Səhərə qədər Cabbar kişiylə Güllərin qapısına kimsənin yanaşmadığını, bu ətrafda özündən başqa bir ruh belə dolaşmadığına əmin olandan sonra, lap səhər üzü evlərinə yollandı. Şəhərətrafı evlərdən mallar naxıra ötürülürdü. Yuxu gözlərindən tökülürdü. Yorğun idi. Ana gileyi yandı  rırdı onu. Amma arxayındı. İndi gedib yata bilərdi. Yuxulu olsa da, yorğun olsa da, «Sabah hökmən ustayla danışmalıyam» deyə qət etdi: o «sabah» bu gün idi ki, artıq başlanmışdı.

* * *

— Əmi səninlə vacib bir söhbətim var.

— Noolar, noolar. Nə vaxt desən, haçan desən buyur.

— Elə mümkünsə indi. Amma təkə-tək.

Əslində Cabbar kişi məsələsinə arif adam idi. Bir neçə vaxtdan bəri Səməd Sahirin onları izləməsi, harda şuluqluq düşsə onlara qahmar çıxması, xüsusilə Səlimaqalıdan qayıdandan bəri hər gecə Güllərin evinin başına dolanması ona çox şeylər demişdi. Dəfələrlə olduğu kimi, yenə də Şərəfnisə Məşədi Cəfər qızının evinin yovuğunda kiminsə, nəysə axtarmağını ona Sahibə xanım demişdi:

— Əyşi, genə bu yazıq qızın evi tərəfdə hənirti duyuram axı. Oğru-əyri olar, qıza sürtüşmək istəyən olar...

— Uzatma, arvad, baş düşdüm!

Kişi bir neçə dəfə gecədən xeyli keçmişəcən qapı-bacanı güddü. Anladı ki, bu Səməd Sahirdi. Tanıdı şairi. Başına qar da yağsa, dolu da düşsə cavan oğlan qəlbinin sultanını qoruyurdu. Usta tarzən anladı ki, Güllərə bundan artıq gözətçi lazım deyil. Gedib rahat yata bilər, Cabbar. Səməd Sahir onun «işini» daha yaxşı, görür. Gülə-gülə gəlib yorğana girdi, dedi:

— Arın arxayın yat, arvad, qarovulçusu yerində möhkəm dayanıb.

— Kimdi o?

— Neynirsən? Yat, vaxtı gələr bilərsən.

Deyəsən indi həmin vaxt gəlmişdi. Bəs Güllər özü necə? Duymuşdumu? Anlamışdımı? Nə cavab verəcəkdi? Səlimağalıdakı qorxudan sonra cavabı nə olacaqdı görəsən? Yoox, duymamış, anlamamış olmaz! Düzdü əvvəldə «Mən ərə gedən deyiləm» demişdi. Amma qız uşağının ürəyini nə bilmək olar? Bəlkə bir tərəfədi elə qorxular, o biri tərəfdən də Səməd Sahir... Gözə şirin oğlandı. Ədəb-ərkanlıdı: bəlkə yatıb qızın ürəyinə? Hər halda, nəsə Allah xoşbəxt eləsin, yaxşı qızdı, balam olmuş. Görək Səməd şair bu Sahir nə deyir!

Cabbar tarzənin qəlbindən bixəbər olan Səməd Sahir, sahbəti haradan, necə başlayacağını bilmirdi. Axırda canını dişinə tutub uzanan sükutu pozdu:

— Əmi... mən... sən... Bağışlayasan gərək.

— Bala, nəm-nüm eləmə, sözünü de!

— Bilirsən, əmi, əgər o ev qızı olsaydı, anamı göndərərdim. Sahibə xalamın yanına, el dəbiynən. Amma indi özüm-özünə deyirəm. Keç günahımdan. Atasan, onsuz da son söz sənindi. Qızını Allahın əmri, peyğəmbərii şəriətilə halallığa istəyirəm... Nə deyirsən, ustad? Açıq danışmağımçun bağışla məni. Məzuram.

— Allah bağışlasın, oğul! Düz danışırsan. Ədəbin, ərkanın, tinətin xoşuma gəlir. Bir neçə müddətdi sənə göz qoyuram. Nadürüst adam deyilsən. Halal adamsan. Elə indi də düz danışırsan. Belə şəriət məsələlərində son söz atanındı. Amma, indi ki, iş bu yerə gəldi, sənə deməliyəm, açığını deməliyəm, sirrini açmalıyam: Güllər mənim qızım deyil, ata yeri tutsam da ürəyində, həyatında— o mənim doğma qızım deyil.

— Necə? Necə? Qızınız deyil?

— Elədi. O Şərəfnisə Məşədi Cəfər qızının oğul nəvəsidi.

— Onu ki, sel aparamışdı, ölmüşdü... Bu sonra gəldi... qohum...

— Yoox, bala, öldüyə çıxmışdı özünü ki, sənətə azad qoşula bilsin. Başqa çarəsi yoxudu.

— Bəs indi?

— Hə. Məsələ elə burasındadı ki, onun ixtiyarı özündədi. Mən Sahibə xalana deyərəm, ağzını arar. Dil-cavabın sənə verrik.

Səməd Sahir öyrəndiyi xəbərdən elə sarsılmış, heyrətlənmişdi ki, otaqdan həyətə, həyətdən küçəyə necə çıxdığını bilmədi.

Üç gündən sonra Cabbar kişi ona çatdırdı ki, qızla özünün danışmağın gərəkdi. Bizlik bir şey yoxdu.

Toydan qayıdırdılar. Dərəkənddən dönürdülər. Cabbar kişi qəsdən Səttarı da özüylə bərabər Güllərgildən ayırmışdı, irəlidə gedirdilər. Qızın şairə verəcəyi cavab demək olar ki, Cabbar kişiyə eynilə bəlliydi. Cabbar tarzən də Sahibə xanım Səməd Sahirə ərə getmək haqqında şairin arzularını qıza çatdıranda qız doluxsunmuş, demişdi:

— Deyəsən boynunuza yük olmuşam, eləmi?

Tarzəni xəcalət təri basmışdı:

— Hələ kimin kimin boynuna yük olduğu... qalsın. hələki, biz sənin hesabıva, sənin səsinin kölgəsində dolanırıq. Sənin adındı dillərdə.

— Bəsdi, əmi! Mənə o dərsi sən vermisən. Əvvəldən demişəm, indi də deyirəm: ər məsələsi olmayacaq. O şair pis adam deyil. Ona hörmətim də var. Amma ər kimi yox.

— Nə deyirəm ki, qızım! Sən özün bilən məsləhətdi. Amma hamı gec-tez ev-eşik sahibi olmalıdı...

— Əmi, bilirəm ki, əziyyətimi çox çəkirsən. Qoçulardan, nadürüstlərdən qoruyursan məni. Dönə-dönə ölümdən, rusvayçılıqdan qurtarmısan məni. Dən düşmüş saçın-saqqalın mənə görə qana da boyanıb. Bəlkə də bu ər məsələsini ona görə ortaya atırsan ki, evdar olsam, dəyib dolaşan olmaz... Amma yox! Bu yoldan heç nə məni saxlamayacaq, əmi! Qanını mənə bağışla, amma bu məsələyə bir də qayıtmayaq. Mən sənin daimi şagirdinəm. Əgəm bundan sonra da zəhmətimi, məndən gələn bəlaları qəbul edəsən.

Üçü də ağlayırdı: Cabbar kişiylə Sahibə qıza acıdıqdarından, Güllər... Mirzə Güllər isə zəmanənin qurbanıydı. Tarzən dözmədi, bir yaralı, bəlalı bala kimi Mirzə Gülləri bağrına basdı.

...İndi bu iki cavan yanaşı Cənnətalı yoluyla gedirdi. Sözü: «hə» və ya «yox» kəlmələrini necə söyləyəcəklərini bilmirdilər. Hər ikisi eşqini bir-birinə içindəki o «mən»in müsahibəsilə izah edirdi.

Səhv etmirəm, oxucum! Çünki şair Səməd Sahirin ürəni çulğamış o böyük eşqə Güllər də biganə deyildi. O eşq Güllərin də qəlbinə hakim kəsilmişdi. Əziz oxucum, Güllər İNSAN deyildimi? Güllər GƏNC deyildimi? Güllər ərkən çağına çatmış sənəti, eşqi tərənnüm edən SƏNƏTKAR deyildimi? Hər gün böyük Füzulinin, eşq ilahisi Füzulinin, əvəzsiz Seyid Əzimin eşqini muğamın o ecazkar dililə bəyan etmirdimi? Və bəyan etdikcə bu eşq onun öz vücudundan da keçmirdimi? Onun öz qəlbini, canını, ruhunu, bədəninin bütün hüceyrələrini alışdırıb yandırmırdımı? Onun nəyi əskikdi Səməd Sahirdən? Əksinə bəlkə ustunlüyu vardı. O qəzəli yazai, bu oxuyan idi. Güllər opun nlk qəzəlini məclislərdəi biriidə oxuyandan sonra Səməd Sahir tanınmış, bir şair kimi məşhurlaşmış, adı dillərə düşmuşdü. «Ora bax ha.. Füzulidəi, Seyiddən başqa heç kəsi oxumayan Mirzə. Səməd Sahirin qəzəlini oxuyur!». Demək o yazandı, bu oxuyan. O cavandı, yaraşıqlıydı, qızğın, sevən cavandı. Bu da gənc idi, gözəldi, atəşin gəncdi. O fədakardı, qorxmazdı, məhəbbəti uğrunda canından keçərdi. Bu da sevdiyi insanlara candan bağlıydı, sədaqətli, dost uğrunda cəfakeşdi. Aralarında o qədər uyğun, bənzər, oxşar cəhətlər vardı ki, elə bil bir xəmrə-mayadan bir torpaqdan yoğrulmuşdular. «Ərlə-arvadın torpağı bir yerdən götürülür» deyib ulular. Əgər ərlə-

arvad olsaydılar eləydi. Amma bu iki sevən insan arasında bir fərq, keçilməz bir uçurum vardı.

— Qız olduğunu çoxdan duymuşdum, çoxdan anlamışdım. Çox şey öyrənmişdim. Ardınca gəzirdim ki, sənə yad gözlərdən, yad əllərdən, biganə nəfəslərdən zərər toxunmasın. Bu yolda öldü vardı, döndü yox. İndi son hadisələr məni qorxudur. Səlimağalıdakı kimi, Cabbar əmi oturuşmuş adam, Səttar zəif, əməziyin biri. Özün gördün. Sənin o cürətli hərəkətin olmasaydı... Hər dəfə belə nisbətən tez, asan azad olmaq mümkün deyil. Əzizim, mehribanım, özüm də artıq sonsiz dözə bilmirəm. Cabbar əmiylə danışdım. Sənin özünü məsləhət gördü. Mən sənə Allah eləməmiş başqa yollar deyil, məhəbbətimlə, Allahın əmri, peyğəmbərin şəriətilə halal evlənmək təklif edirəm.

— Səməd ağa, səni çox diqqətlə dinlədim. Çox sağ ol, qardaşım! Mənim alnıma evlonmək sözü yazılmayıb. Mən sənətə, muğamata məxsusam. Bu yol mənim «Qalu bəla»da götürüb, qəbul etdiyim yoldur. Səninlə evlənsək məni sənət aləminə buraxmayacaqsan, deyilmi?

Səməd Sahir karıxdı:

— Hə, bəli, ailəli arvad hara, məclislər hara? Burada ev-ailə, uşaq var.

— Elə məsələ də bundadır ki, mən bütün bunları sənətimə fəda etmişəm, birinci gündən. Elə bilmə ki, könlümdə başqası var. Əgər bir zaman «hə» desəydim, onu yalnız səno deyərdim. Heç kimə yox. Sadəcə o gündən ki, Cabbar əmiyə qoşulub, əynimə bu libası geyib sənət dünyasına qədəm qoymuşam, qalan hər şey həmin gün bitib. Sahibə xalayla Cabbar əmiyə də qəti fikrimi demişəm. Səni yalan-yanlış sözlərlə niyə üzüm? Niyə get-gələ salım?

Söhbətin əvvəlində «qardaşım» gəlməsi Səməd Sahiri necə qamçılamışdısa, sözün sonuna doğru Güllərin verdiyi suallar bir o qədər karıxdırdı:

— Bəs anan necə? Kişi paltarında, kişi məclislərində xanəndəlik eləyən qıza «gəlnim» deyəcəkmi? El şəmatətini qəbul edəcəkmi? Bunu düşünmüsənmi?

Qız haqlıdı, Səməd Sahir heç bu nöqtəni düşünməmişdi. Anası el arasında çəngiyə bərabər tutulası, kişi paltarında, naməhrəmlər məclisində oxuyan, hamının kişi adıyla «Mirzə» çağırdığı adama «qız» deyib, qadın sayıb evinə gəlin gətirərmiydi? Təkcə balası Səməd Sahir bu gəlini təkidlə gətirsə, anası o evdə, o gəlinlə bir dam altında oturardımı? Heç bu sualları anasına vermədən belə Səməd Sahir bilirdi ki, anası bu təsəvvürlərdən dəhşətə gələr. Nəinki həqiqətdən. Necə olub, məhəbbət gözlərini necə yumub ki, Səməd Sahir bu sualların birini də özünə verməyib? Məgər o bilmirdi ki, anası öz zəmanəsinin evladı. Güllər isə qərinələrlə sonranın yetirəcəyi möcüzə! Tutaş gələn iş deyildi! Bu iki uçurum arasında Səməd Sahir körpü olmaq istədi. Ola bilməzdi də. Lax, çürük, yararsız çıxdı bu körpü. Təkcə anası olsaydı... Bütün əqrəba, bütün dost-tanışlar əllərindən gəldikcə bu onsuz da keçilməz körpünü yıxmağa səy göstərəcəkdilər.

— Sən təkcə özünü deyil, məni də məhkum etdin. Sən ərə getməyəcəyin kimi, mən də, bizi yaradan o misilsiz XALİQƏ and içirəm ki, evlənməyəcəyəm. Sənsiz həyatı neynirəm? Sənsiz ömür susuz dəyirman. Sənsiz ömür heç nə!

Qız etiraz etmək istədi, Səməd qoymadı:

— Sözümü kəsmə! Sən musiqi-sənət vurğunu, mən şeirə məftun. Amma bil ki, hər yerdə: toyda, seyrdə kölgən kimi ayaqlarının altında olacam. Gündüz təhqirdən, gecə qəsddən...

Bundan belə qəzəllərimdən başqa məndən əsla heç bir kəlmə də eşitməyəcəksən. İki qığılcım bir tonqalı alovlandıra bilər. Qoy alovlansın sənətin!

Mirzə Güllər bircə onu edə bildi ki, yavaşcadan gənc şairin əlinə toxundu:

— Səninlə birlikdə — deyə bildi.

Çaparxanadan keçib şəhərə yaxın «Ağ yoxuşa» çıxdılar. «Topa yol», «Ağ arxac» arxada qalmışdılar. Dağlardan enənlərin nəfəsinə şəhərin ılıq havası dəydi.

* * *

Toyxana olduqca böyükdü. Əlvan Şirvan xalça və palazlarının naxışları, çeşnisi sanki onu toxuyan gözəllərin yaraşığından gözəllik sərgisi yaratmış, rəngarənglikdə, çeşni müxtəlifliyində bir-biriylə bəhsə girişmişdi. Toyxana mağarının yerinə də Şirvanın-rəngarəng «Udulu» palazları: «sırğalı», «tamaşa», «qaragöl», «yaylıqlı», «ciftə»... döşənmiş, gözəllikdə, yaraşıqda çox xalçalardan yarışda geri qalmırdı. Payız quru keçdiyindən mağarın qurulduğu sahə qupquruydu, bir tutam ot belə yoxuydu. Odur ki, yerdə oturmalı olanlar hamısı nəzərə alınmışdı.

Toyxanada iki dəstə çalğıçı çalmalı, iki xanəndə oxumalıydı. Xəlil bəy iki qat bayram edirdi. Bir tərəfdən onun oğlu xaricdə mühəndislik, gəliniysə mama həkimlik oxuyub gəlmişdi. İkinci tərəfdən evladları oxumaqçın Berlinə gedəndə elədiyi toy tələsik olmuş, ürəyinə yatmamışdı. Bir şey də vardı ki, dostları «qonaqlıq, qonaqlıq» deyib dad vururdular. Xəlil bəy xəsislik eləmədiyini, balalarının sağ-salamat, ad-sanla Şirvana qayıtdığını ürəkdən qopan sevinclə bildirirdi. Kişi

qabına sığmırdı. Səadət, xoşbəxtlik gülüşündən, yerişindən, əl-qol atmasından, danışığından, hər çağırana «ay can», «nədi başuva dönüm» deməsindən aşıb-daşırdı.

Toydan əvvəlki məsləhətə Cavad bəyi, dayılarını, əmi- si və dayısı oğlanlarını, qardaşlarını və yeznələrini bir neçə dostlarıyla birlikdə dəvət etmişdi. Məclisdə qərara alınmışdı ki, kəsilən qurbanlar evlərə paylansın, özü də girvənkədən az olmasın ki, bir şey bişirə bilsinlər. Tanınan kasıb ailələrinə ət bir qədər çox verilsin. Özləri də xəbərdarlıq edilsin ki, qurbanlar kəsilən gün, baş-ayaq, qarın-qatqat, qursaq-bağırsaq meyli çəkənlər uşaq-muşaqla qab göndərsinlər.

Qərara alınmışdı ki, toya təkcə qohum-əqrəba, dost aşna deyil, ətraf kəndlərin və şəhərin şeir və musiqi bi
liciləri, həvəskarlar da dəvət edilsin. Xəlil bəy Qarabağdan musiqi və xanəndə dəstəsi çağırmaq istəyəndə dedilər:

— Mirzə Güllər olan yerdə qıraqdan xanəndə çağırmaq gərək deyil.

— Bəs iki dəstə istəyirik axı.

— Noolar. Odey Xarrat Qulunun yetişdirmələri. Vallah o irəli onları lap Qarabağın özünə toya çağırmışdılar. Çəngiləri də var. Əla oxuyanları da.

— Nə deyirəm ki, siz bilən məsləhətdi. Sonra deməyin ki, sizə Qarabağdan xanəndə gətirtmədim.

— Biz biləni istəyirsənsə budu. Qulağımızın dibində bir dəstə Mirzə Güllərin — tərifinə söz ola bilməz, bir dəstə də Xarrat Qulununkular.

— Mübarəkdi, əcəbdi.

Bayaqdan dinməz-söyləməz oturub atasıyla qohumlarının söhbətinə qulaq asan Eyvaz xeyli maraqlandı. Beş-altı il idi ki,

şəhərin mənəvi həyatından uzaqlaşmışdı, odur ki, marağını təmin üçün Eyvaz bəy soruşdu:

— Bu Mirzə Güllər kimdi, ata?

Xəlil bəydən əvvəl dayısı cavab verdi:

— Qadındı, əla xanəndədi, özün görəcəksən. Səsini mərhum Mirzə Məhəmmədhəsəndən seçmək olmur. Özü də elə bir müddət tarçı atasının razılığıynan Mirzə Məhəmmədhəsəndən dərs alıb. Muğamat dərsi. Elə boğazları var ki, Mirzədən başqa bir də Güllərdədi.

— Xan, toybəyi, bəybaşı olmayacaq. Bəy onsuz da vaxtında bəy durub. «Paytaxt» — qız üzmgörümçəyi də olmayacaq. O da vaxtında olub. Bəy biziynən məclisdə oturub, çoxdan eşitmədiyi muğamlarımızı dinləyəcək. biznən keyfə baxacaq.

— Düz deyirsən. Cavanları oynatmaqçın, gəlib-gedənə nəzarətçün bircə xəlfə Cin Cavad bəs elər.

— Şairdən, ziyalılardan kimləri dəvət edəcəksən?

— «Babi» damğası vurulan adamdan ehtiyat eləməyən, Şamaxıda bu saat ziyalılardan kim varsa hamısını.

— Elədi. Axı bu toydan çox ədəb, şeir, musuqi, şənlik məclis idi.

— Məsləhətsə əvvəlcə Mirzə Abbasqulu Səhhəti.

— Afərin! O da Eyvaz bəy təki xaricdə oxuyub, həmsöhbətdilər.

— Səhhətdən ötəndə, eşitdiyimə görə Mirzə Əşrəfnən Orucov cənabları da Şamaxıdadı.

— Hə, elədi.

— Onları. Sonra Cəmo bəy Cəbrayılbəylini, Zivər bəy burdadısa onu...

— Burdadı, burdadı. Dünən Sarıtorpağ məscidinin qabağından ötəndə özüm gördüm. Nənəsi rəhmətə gedib, İlinə gəlibmiş.

— Allah rəhmət eləsin. Sonra Mircəfər ağanı, Mir Zeynal ağanı, Salamov qardaşları, Əhməd bəyi, Böyük bəyi, Zuini, Nasehi, Tərrahı, Məhəmməd Hadi cənabları burdadısa onu.

— Son siyahi elə ha! Heç kim yaddan çıxmasın.

— Eləyirəm.

— Toyda deyilsə Mirzə Bilalı münsif qonaq kimi.

— Əla!

— Balabançı Əli.

— Çox gözəl!

— Həbib bəyi, Qafur Rəşadı. Əfəndiyevi — hələ dərslər başlamayıb. Ziyalıların çoxu burdadı, Bakıya getməyib.

— Şeyxzadəni.

Beləcə qonaqların siyahisi həll olundu. Məsləhətə gələnlər gün də müəyyənləşdirdilər. Bir qədər də Xəlil bəyin Berlindən təzəcə gəmiş oğlu Eyvaz bəyi söhbətə, sorğu-suala tutdular. Özləri demişkən «feyziyab olub» dağılışdılar.

Səhəri gün Xəlil bəy bazar başındakı məşhur tut ağacının altındakı Cavad daşının üstündə əyləşmiş xəlfəylə görüşdü, çağırılacaq qonaqların, xanəndə və nəvazəndələrin siyahısını ona verdi.

Bazarda hərə öz işindəydi. Alan alır, satan satır, qiybət qıranlar təzəcə mərhum olmuş böyük Sabirin «Həpənd»ləri kimi qiybətdəydilər.

— Xəbərin var?

— Nədən?

— Nədən olacaq? O şair Səməd Sahir var ha...

— Neyniyib o? Fağırın biridi ki! Babi olub?

— Başına dəysin...

— Onu fağır ilan vursun, aaaadə. Vurulub Güllərə— elçi gedib.

— O haneı Güllardiyaaadə? Məsmə qarının nəbəsi?

— Yox ey! Xanəndə Güllər. Mirzə Güllər!

— Aaaadə, o ərəmiyin biridi ki! Onnan kişiyə arvad olar?

— Ərəmiydi, hər nədi. Görükür elçi gedən də öz tayıdı. Amma adamın Allahı var — təmizdi. Heç bir oxuyana oxşamır.

— Başına dəysin təmizliyi. Toyxanada yüz-yüz naməhrəmin qabağında canay-nanay vurur.

— Məşədi, keçi ətinin vaxtıdı. Əsil vaxtıdı. Yaxşı dıbır gətirmişəm. Bəlkə alasan?

— Keç, get, aaadə! Səhərdən bir köpük manatlıq alver eləməmişəm. Bircə elə dıbırım əskikdi.

— Məşədi, neynək, gələn bazar verərsən pulunu. Sən qaçmırsan, mən ölmürəm. Gələn bazar gələcəm.

— Nədən bilirsən ki ölmürsən? Növzənbillah Həzrət Cəbrayıl xəbər gətirib sənə? Birdən getdin — tünbətün oldun, mən də qaldım şuğluzümmə.

— Halal eləyirəm, Məşədi, axşama az qalıb, kəndə qayıdacam, oruc ağızla bir də yük eləməyim özümə.

— Əl çək, bala, əl çək! Dedim ki, istəmirəm.

— Dəvəni çatduq, dedilər: dəyirman suvatdı.

— Səfəri adamsan, sənə oruc düşməz. Get bir mollaya Quran ağzı açdır.

— Gədə, Mammədhəsən, Məmmədhəsən, ay sənin adın batsın, harda itib-batmısan? Qonağım gəlib, Muxtar daaaşdan bir pürrəng çaydan.

— Baş üstə, ağa!

— Başun daş üstə, biri də üstən. İtəndə tapılmırsan ha...

— Ağa, vallah Xəlil bəyin nökərlərinə kömək eləyirdim. Səni oğlunun toyuna çağırıb deyir xəlfə.

— A balam, bir oğula neçə kərəm toy elələr? Yəqin oxuyub gəlməyinə qonaqlıq verir...

Evə yaxın adamlar gün-günortadan irəli yığılmağa başladılar. Kəsiləcək qurbanların, toğluların, öyəclərin içalatı kənar qonaq arasında yeyilməsə də indi cızbızın iyi həyəti başına götürmüşdü. İçalatın bir qismi fağır-füqəraya paylanmışdı. Seçmə ürək, böyrək, qara ciyər, ağ ət həyətdəki iri teştdə ocağın üstündə cızhacızla qovrulur, ətri yeddi qonşudan ötürdü. Zahirdə bu da həyət adamıyçun qovrulurdu. Amma ara-sıra öz məsələsinə arif olan darğa Abbas kişi gümüş kimi par-par yanan qalaylı siniyə kəfikrlə cızbızın quyruqlu, yumşaq yerlərindən doldurub içəri otağa, aparırdı:

— Yaman iyi çıxır, adam şişib dama dönər.

Bəylər girdə mizin üstündəki «qaraqılçıq» unundan bişirilmiş kəhrəba kimi təndir çörəyindən bir parça kəsib siniyə basır, çörək yağı-quyruğu canına çəkəndən sonra tikələyib qovurmadan yeyirdilər. Ara-bir yüngülvari «vuranlar» da vardı. Amma o qədər yüngülvar ki, nə gələcək qonaqlar, nə də nəslin ağsaqqalları duyuq düşməsin.

İndi də Şirvanda Xəlil bəyin «toy-qonaqlığı» adlanan məclis çox gözəl keçdi. Şənliyin sonu yoxdu sanki. İki dəstə çalğıçı növbəylə çalırdı. Bu xanəndə mahnını muğamı bitirəndə o birisi başlayırdı. Bu rəqqas-«mütrüf» dayananda, cəngi qollarını qaldırırdı. Əlbəttə ikinci dəstədəydi bu fısqırıq. Mirzə Güllərin dəstəsində nə «mütrüf», nə cəngi vardı. Oxuyurdu. Füzulidən Seyyidə, oradan yenə Füzuliyə qayıdır, ara-sıra yeni, ədəb, dairəsində olan təsniflər də oxuyurdu. Bu təsniflərin

içərisində xanəndənin Şirvanda ilk dəfə ifa olunan biri xüsusilə bəyənildi, qonaqların sürəkli alqışlarına səbəb oldu:

**Yeri, dam üstə yeri — bala, ay**
**Qızıl cam üstə yeri.**
**Ayaqların incisə—bala, ay**
**Çıx sinəm üstə yeri.**

**Getdim gördüm yar otaqda,**
**Qoşa xallar var yanaqda,**
**Tər cığalar al duvaqda**
**Al duvaqda, yar ölürəm.**

— Ölməyəsən, Mirzə!
— Allah səsinə qüvvət versin.
— Ay sağ ol, Mirzə, afərin!
— Yaşa, yaşa, Mirzə, min yaşa!

Mirzə Güllər alqış altında başını aşağı salıb oturmuşdu. Bilirdi ki, özünü yaxşı tanıyan sənətkar, camaatın tərifindən lovğalanmamalıdır.

Amma bu tariflər, alqışlar qarşı tərəfdə Xarrat Qulunun yetirmələri içərisindəki xanəndə Mürşüdün ciyərinə od basırdı. Qanı bərk qaralmışdı. Qaş-qabağı yer süpürsə də, özünü o yerə qoymamağa çalışırdı. Məclisi qızışdırmaqçın oxuduğu: «Ay qız anası əli qoynundadı, oğlan anası dəvə boynundadı» kimi şux mahnılar belə Füzuli həvəskarları məclisində yad səslənir, xanəndəyə afərinlər qazandırmırdı. Mirzə Güllərin dəfinin içinə atılan pulların hər biri bir sillə kimi dəyirdi Mürşüdün üzünə. Tarzən onun böyrünü basır: «Özünü unutma! Sən toya çağırılmış xanəndəsən. Borcun oxumaqdı. Sənin haqqını da

danışıb çağırıblar — haqqını da alacaqsan. Başqa matahlarda gözün olmasın. Ağalardı, bəylərdi, özləri bilər. Mənə qulaq as. Sən belə gur məclislərdə olmamısan, bilmirsən!» deyə özləriiin fasiləsi zamanı Cümşüdə qırıq-qırıq cümlələrlə pıçıldayırdı.

Məclis gecə yarıdan ötənəcən davam etdi. Mirzə Güllərin havacatına məftun olmuş qonaqların çoxu nə yeyib içdiklərini, ikinci dəstənin nə zaman haqqını alıb get, diyini heç bilmədi.

Məclisin sonuna doğru qalanların çoxu ən yaxın qohumlardı. Eyvaz bəy müvəqqəti sükutdan istifadə edib üzünü atasına tutdu:

— Bəy ata! Belə gözəl səsin bir zaman dəyişmək ehtimalı var. Mirzə qocalacaq, hayıfdır. Məsləhət bilsəniz mən Varşavada səsi vala yazan firmaya məktub yazıb belə bir xanəndənin varlığından onları xəbərdar edərəm. Dəvət alan kimi Mirzəni dəstəsiynən göndərrik ora. Bir neçə mahnısını vala yazarlar. Qalar gələcək nəsillərçün yadigar.

Elə bir alqış qopdu ki, az qala bina titrədi:

— Afərin bu təklifə!

— Mərhaba!

— Vallah, baş var səndə, Eyvaz!

— Başdan çox ürək var bəlkə.

— Kişi oğlu əbəs yerə illərnən yad ellərdə, mədəni cəmiyyətlərdə can çürütməyib ki!...

Eyvazın dayısı yerindən qalxdı. Cibindən çıxardığı bir yüzlüyü girdə mizin üstündəki gümüş siniyə qoydu:

— Bu mənim tərəfimdən, bacoğlu!

— Kim nə qədər məsləhət bilir, buyursun.

Eyvaz səsləndi:

— Dayanın, axı mən hələ firmaya kağız yazıb xəbər verməmişəm.

Yenə dayı coşğun səsilə bütün səsləri batırdı:

— Nə eybi var?! Bu günkü kimi bir də yığışanacan, elə indi vəsayiti toplayaq. Tapşıraq Xəlil bəyə. Sən cavab alan kimi pulları hazır — özləri nazır. Nə deyirsən, Mirzə, razısan? Qorxma Xəlil bəy etibarlı adamdı. Yeyib-içən oğlanlardan deyil, puluna zərər gəlməz. Artar ki, əksilməz.

Bəylər gülüşdülər.

Mirzədən əvvəl Cabbar kişi hörmətlə cavab verdi:

— Nə cavabı olacaq, bəy? Bundan böyük xoşbaxtlıq? Allah razı olsun sizdən. Eyvaz bəyin ömrü uzun olsun.

Mirzə Güllər qıp-qırmızı qızarmışdı. Üzünü Xəlil bəylə onun xeyirxah qaynına tərəf tutub yavaşca dedi:

— Siz məsləhət biləndən sonra... Nəkarayam?! Dünyada ən böyük arzuma çatdırırsız məni. Eyvaz bəyin şərəfinə...

Deyib tarı tarzən Cabbar kişinin dizi üstündən qaldırdı və yavaş-yavaş telləri dilə gətirərək oxumağa başladı:

**Ey qan olan könül, niyə düşdün bu halə sən?**
**Bais nədir bu dərdü bəlayə həvaləsən?**
**Peyvəstə ol hilali-məhəbbətdə sən, könül!**
**Bir gün olur ki, qorxma, yetərsən kəmalə sən.**

— Afərin!

— Maşaallah!

— Yetmisən kəmalə, qorxma, Mirzə! «Yetmisən kəmala sən».

Səhəri gün bütün Şamaxının məhəllələrində, bazar və dükanlarında, təkyə və məscidlərində bir «təzə söz» danışılırdı:

— Mirzə Güllərin səsi vala yazılacaq.

— Xəlilbəylilər göndərəcək.

— Vəsayit də yığıblar gecəynən.

— Deyirlər Eyvaz bəyin Varşoda öz adamı var, onun üstünə göndərəcəklər.

— Adamsız olmaz ki! Adamım olsa, üstəlik pulum ola, Kufəyə qazı qoyallar məni.

— Balam, səsi da ola gərək daaaa... Səsi olmayanın nəyin yazacaqlar vala? Asqırağın, öskürəyin?

— Əşi Vərşoda muğamatdan kimin başı çıxır. Bir iki dalay-dalay ölləm-öllən elədi bəsdi...

— Allah adamısan, Allah üçün deynən! Mirzə Güllərin səsi, nəfəsi boğazı kimdə var indi Şirvanda?

— Vallah, mən onu rəhmətlik Mirzə Məhəmmədhəsənin səsindən, nəfəsindən seçmirəm. O kişinin həm səsi vardı, həm də arxasında Mahmud ağa kimi, Hacı Seyid Əzim Şirvanı kimi şəxsiyyətlər dururdu.

— Nigaran olma! Bunun arxasında dayananlar da var. Biri elə ona «Mirzə» ləğəbi verib, hamıya deditdirən Mahmud ağanın oğlu Cavad bəydi.

— Balam, o haçanın bəyi oldu? Atası kimi kişiyə «bəy» demirdilər, özü də qoymurdu.

— İndi zəmanə dəyişib, hər qara tanıyana, hər qoçuluq məşqinə düşənə «bəy» deyirlər.

— Bayaq sənə dedim ki, pulum olsa Kufadə qazi ollam.

— Əşşi, bəsdürün siz Allah! Qoyun görək Allah bəndəsi nə danışır.

— Soora, ağamın qulluğuna ərz eləyim ki, dünənki yarışma-toy qonaqlığında əlbəttə ki, Mirzə Güllər ümumun məhəbbətini qazanıb. Özü də «mütrüfsüz», «cəngisiz» zadsız. Öz Allah verən səsiynən. hə... Baaax elə onda Eyvaz bəy də, Xəlil bəy

də, qayınları, başqa ağrabaları da Mirzə Güllərə qahmar çıxıb, vəsayit toplayıb veriblər Xəlil bəyə. Vərşova yazacaq gözünə döndüyüm Vərşova yazacaq. Vərşodan dəvət gələn kimi, ağamı Allah saxlasın. Mirzə dəstəsiynən gedib səsini vala yazdıracaq. Kim istədi alacaq. Qramofonu olan da keyfi gələndə oxudacaq özüyçün.

Camaat danışa-danışa yığılan vəsayitin həcminə keçdi. On verəni — yüz, yüz verəni minə çıxardılar. Axşamacan Güllər az qala milyonçu oldu. Xəlil bəy dedi:

— Lap o padşahın vəzirinin əhvalatıdı.

Eyvaz bəy soruşdu:

— O necə əhvalatdı, bəy ata?

Həmişə Xəlil bəydən maraqlı nəysə eşitməyə adət etmiş ev əhli toplanıb, sakitcə gözlərini Xəlil bəyə dikdilər. Boş çay stəkəni qulluqçunun, dəsmal o biri kənizin, süfrə gəlinin, kasa xanımın əlində qaldı. Eyvaz, bəy lap uşaqlıqda olduğu kimi ağzını yarım açmış halda atasına yaxınlaşıb gözlərini onun dodaqlarına zillədi.

Çoxdandı ki, bu dodaqlardan nağıl eşitməmişdi. Bütün bunları müşahidə edən Xəlil bəy güldü:

— Necə deyərlər günlərin bir günündə Şah oğlu şah Abbas vəziri Allahverdi xanla söhbət edirmiş. Vəzir deyir: «Şahim, camaat hər eşitdiyini şişirtməyə mayildir. Odu ki, deyərlər el ağzı — çuval ağzı». Şah inanmır. Vəzir ürəyində deyir ki, «mən səni inandıraram. ey şahim!». Vəzir, həmin gecə cibindən bir yumurta çıxardıb arvadına pıçıldayır: «Arvad, bax heç kəsə demə, budu bir yumurta yumurtlamışam». Səhər olcaq arvad, bacısına deyir: «bizim kişi bu gecə iki yumurta yumurtlayıb». Bacı öz ərinə vəzirin üç yumurta yumurtladığını xəbər verir. Ər öz dostuna deyəndə birini də o artırıb dörd deyir. Beləliklə gün

ərzidə yumurtaların sayı 38-ə çatır. Bu xəbəri eşidən ikinci vəzir cəld padşaha yetirir ki, «Şahim, sənin istəkli vəzirin bu gecə 39 yumurta yumurtlayıb. Özü də səndən gizlədib». Şah vəzir Allahverdi xanı yanına çağırır, özü də birini əlavə edib soruşur: «Vəzir, deyirlər qırx yumurta yumurtlamısan? Bu nə xəbərdi?». Vəzir gülüb şahla səhbətini onun yadına salır və deyir: «Şahim! O qırx yumurtanı birini mən «yumurtlamışam». Otuz doqquzunu camaat da üstünə artırıb». İndi, əzizlərim, bir neçə gündən sonra fağır Mirzə Güllər milyonçu Hacıya bərabər tutulacaq. Fikir verməyin, işinizdə olun!

Eyvaz bəy məsələni Varşavaya teleqrafla bildirdiyindən dəvət də çox tez gəldi və Mirzə Güllər başının dəstəsi, Xəlil bəyin verdiyi pul və musiqi sevərlərin xeyir-duasilə Varşavaya yollandı.[1]

Nə yaxşı ki, məsələ tez baş tutdu, yoxsa Mirzə Güllərin başı üzərində toplaşan qara buludlar sıxlaşırdı. Mirzə Güllərçün pul yığılması, səsinin vala yazılmasıyçün Varşavaya göndərilməyi, ondan gələn dəvət, Xəlil bəyin toy-qonaqlığında Mirzə Güllərə birincilik verilməsi xanəndə Mürşüdün qardaşı Əlsəftərin qulağına bir bər-bəzəkdə, qondarmalarla çatdırıldı. Guya həmin gecə Xəlil bəygildə Mürşüdü pərt eləyiblər, o da lazımınca oxuya bilməyib. Guya Xəlil bəyin qayınlarından biri bəyə deyib ki: «Bəy dadaş, bu bayquşu hardan tapmısan?
Bunun səsi yoxdu ki! Ulartıdı». Bir başqası da əlavə edib: «Ulartı dedin qoydun? Adamın ruhuna qaşov çəkir. Mirzənin meydanında nəyşi var bunun?».

---

[1] Әслиндә Мирзә Күлләрин сәси 1913-чү илдә Кијевдә Мачарыстанын «Монарх-рекорд» фирмасы тәрәфиндән вала јазылыб. О, Азәрбајчанда сәси вала јазылан илк гадын иди.

Belə-belə sözlərlə Əlsəftərn qızışdırdılar. Bunların bəzisinin doğrudan da Mürşüdün məğlubiyyətinə ürəyi yanırdısa, bir qismi guya «zarafatla» Əlsəftərə sataşırdı. Hamı bilirdi ki, Mürşüddən çox Əlsəftər bu işdə pərt olub. Bir dəstə də vardı ki, bunların Mürşüd ailəsiylə arası yox idi. Düşmənçiliklə quraşdırır, Əlsəftəri daha da qızışdırırdılar. El içində «Cırtqoz Əlsəftər» kimi tanınan oğlan, qardaşının «təhqir olunmasına dözmür, bunu ailəvi təhqir hesab edir, bazarda ondan-bundan eşitdiklərindən coşur, evə gəlib bar-bar bağırırdı:

— Mən bu biqeyrətliyi yerdə qoymayacam. Mən onları...

— Kimə aaadə? — deyirdi atası. — Sən indi deyirsən Xəlil bəylə, Şamaxının, külli Şirvanın ağız sahibi adamlarıynan vuruşacaqsan? Bilmirsən ki, Şamaxının bütün savadlıları, babiləri onlarnan əlbirdi, dallarında da hökumət durub? Dil bilirlər, yol bilirlər.

— Mənim qardaşımı bir arvadlığı-kişiliyi məlum olmayana tay qoysunlar, özü də ona tərəf dursunlar, mən də durum baxım?

— İş arvad-kişilikdə deyil, ərəmiklikdə deyil, səsdədi, bala!

— Mənim qardaşımın səsi Allah vergisidi. Özün də deyirdin. Onun tarçalanı yaxşıdı. Harda səsi azalır, güc verir tara.

— Qardaşının səsi Allah vergisiydi gedib mərsiyə oxuyaydı. Babi məclislərinə ayaq açmayaydı. Allah özü elədi...

Ata nə qədər nəsihət elədisə də fayda vermədi. Əlsəftər hədələrində davam edir, el arasında özünü hünərli, beş eşşəkli xoca kimi çəkib gəzinirdi.

Əlsəftərin hərbə-hədələri evdən məhəlləyə, oradan da bazara çıxanda xeyrxahlar tapıldı, tarzən Cabbar kişiyə xəbər

elədilər ki, «Mirzə Güllərdən muğayat olun. Əlsəftər onun qanına susayır». Əlbəttə qoca tarzən və ya onun zəif təbiətli oğlu Səttar burada bir iş görə bilməzdi. Ağırlıq sadiq şair Səməd Sahirin üzərinə düşürdü. Səməd Sahir toylarda, seyrlərdə məhəbbətini — Mirzə
Gülləri dörd gözlə qoruyur, çoxluq, tünlük olan yerlərdə yanını kəsdirirdi ki, qəfil, bilinmədən kimsə bıçaqlayıb eləməsin Mirzəni. Gecələri də sübhəcən evin ətrafında dolanır, gecə basqınlarından qoruyurdu onu. Səməd Sahirin gözləri yuxusuzluqdan qan piyaləsinə dönmüşdü. Bəzən şeir, musiqi həvəskarları da Səməd Sahirə yardım edir, daima gözdə-qulaqda olur, Əlsəftərin hərləndiyi yerlərdən göz çəkmirdilər. Xanəndəni demək olar ki, bütün şəhər, təsadüfdən, təsadüfün afətlərindən qoruyurdu. Hətta bir gün uryadnik Kərim bəy bazarda, Əlsəftər gözünə ilişəndə hədələmişdi onu:

— Baaax, qulağıma bəzi-bəzi sözlər çatır. Özünü əməlli apar, ha!.. Yoxsa səni elə itirrəm ki...

— Ağa, başuva dönüm, mən neynəmişəm axı?

Kərim bəy məsələni açıb-ağartmaq, Mirzəni bir az da dilə-dişə salmaq istəmədi, başörtülü gözünü Əlsəftərə ağartdı:

— Hər harda, nə qələt qarışdırırsan, qoçuluq eşqinə düşürsən, cəhənnəm ol, özün bilərsən. Amma onun başından — bilirsən kimi deyirəm — onun başından tük əskik olsa, cavabını mənə verəcəksən. Qulağında sırğa elə! Elə eləmə ki, qabaqcadan tutub səni dəlixanaya göndərim.

Bu hədə-hərbələrdən sonra dar düşüncəli Əlsəftərin kini bir qədər də artdı. Amma haradasa daha ehtiyatlı olmağa çalışdı. Mirzə Güllərdən danışıb, onu tərif edənlərin yanından qaş-qabağını töküb uzaqlaşdı.

Bütün bunlardan Mirzə Güllərin əsla xəbəri yox idi. Öz dünyasındaydı Mirzə Güllər. Varşavadan təzəcə qayıtmışdı. İlk valını əlbəttə Xəlil bəyə aparmışdı. Val bir-iki gündə satılıb qurtardı. Qramofonu olan da alırdı, olmayan da. «Allah kərim padşahdı, Mıxı mismar eləyən Allahdı. Bir də gördün bizə də qramofon qismət elədi. Nalın aldıq, atını, yəhərini də allah yetirər, allıq inşaallah» — deyən hər təzə gördüyü şeyə mütləq malik olmaq istəyən şamaxılılar, Şamaxıda val satılıb qurtaranda onu Bakıdan, Tiflisdən gəzəntə tacirlər vasitəsilə əldə edirdilər.

Kərim bəyin, ya Xəlil bəyin evindən «Yeri dam üstə yeri» sədası eşidiləndə həvəskarlar orda-burda qulaqlarını şəkləyib, nə işi vardısa əlindən qoyur, dinləyirdi.

Mirzə Güllər gücədən gecəndə öz səsini hansı evdən eşitsə, o dəqiqəni, o günü həyatının ən xoşbəxt dəqiqəsi, günü hesab edirdi. Dayanmır, tez ötürdü. Adamların diqqətini cəlb etməyi, başına toplanıb təriflməmələrini istəmir, utanırdı.

Mirzə Güllər Varşavada özü üçün yeni aləm kəşf etmişdi. O aləmdə qadın Mirzəyə görə azad idi, istədiyi sənəti seçə bilirdi, bəyəndiyi gənci sevib evlənə bilirdi.

Qadın kişilər məclisində öz gözəlliyini qat-qat artıran paltarlar geyinir, bəzənir, rəqs edir, yeyib içir, gülüb danışırdı. Daha Güllər kimi «Mirzə» ləğəbi taxıb, kişi libasında bütün varlığını dəfn eləmirdi. Belə bir dünya, belə bir aləm arzusu və səsi yazılan vallarla az da olsa qanadlanan Mirzə Güllər, başı üzərində çaxnaşan buludlardan, qopa biləcək tufandan xəbərsizdi.

Aylar, illər ötür, Mirzə Güllər yaşa dolduqca bədəni də artıq əlbisəsinə sığmır, səsi də ona elə gəlirdi

ki, dəyişilməyə başlayır. Daha toylara, seyrlərə çox getmirdi. Bir neçə qız şagirdi vardı, onlarla məşğul olurdu. Cabbar kişinin, xüsusilə Sahibə xanımın xəbərdarlıqlarına baxmayaraq, bu qızlar Mirzədən əl çəkmir, muğamın sirrlərini ondan öyrənməkçün min bir fənd tapıb, gizlicə onun yanına gəlirdilər. Mirzə Güllər birinin yaxşı, birinin babət səsi olmasına baxmayaraq, onlarla çox ciddi danışır, bildiklərnni öyrətməyə çalışır, ürəyinin harasındasa fikirləşirdi ki, dünyanın işini bilmək olmaz, bilkə bir zaman gəldi, bizdə də qızlar oxuya bildi.

Mirzə Güllərin toy və seyrlərdən çəkinməyə başladığını görsələr də, düşmənləri azalmırdı, artırdı. Mirzənin başı üzərində çaxnaşan buludların sayı, qəzəbi azalmırdı. İndi onun düşmənləri Mirzə Gülləri yox etməkçün tamamilə başqa bir cəhətdən hücuma keçmişdilər. Səbir elə, oxucum, səbir elə! İndicə biləcəksən. Bu faciənin hardan, necə gəldiyini görəcəksən.

...İçəridə dörd nəfərdilər. Mirzə Güllər və onun üç şagirdi: ikisi ata evindən gələn qız: Gülyaz və Bənövşə, biri ər evindən gizlincə buraya yol tapan gəlin: Sərvinaz idi. Üçünün də gözəl səsi vardı. Üçü də muğam aşiqiydi.

Üçü də Bakıda opera teatrında oynanan «Leyli və Məcnun»-sayağı səhnəcik hazırlamışdı. Müəllimləri Güllərin cavabını gözləyəcəkdilər. Gülyaz — Leyli, Bənövşə — Məcnun, Sərvnaz isə İbn-Salam idi. Hərəsi səsinə və zövqünə uyğun muğam seçmiş, Füzuli dühasını öz bacarığı dairəsində canlandırmağa səy edirdi. Əlbəttə burada Üzeyir bəy əsarinin yalnız adı vardı ki, o da elə Füzulidən gəlirdi. Maraqlıdır ki, qızlar üçü də qəhrəmanların ölüm anında söylədikləri qəzəlləri seçmişdilər. Sərvinaz İbn-Salamın diliylə deyirdi:

**Aşiq oldur ki, qılır canın fəda cananına,**
**Meyli-canan etməsin hər kim ki, qıymaz canına.**

Güllər üzündə yarı kədər, yarı sevinclə parlayan bir təbəssümlə dinləyir, düşünürdü: «Afərnn! Maşaallah! Səsi kimi zövqü də əladır. Bayatı-şirazın sol pərdəsində bu qəzəl nə qədər də yanıqlı çıxır!».

Az sonra Gülyaz — Leylinin son nəfəsində anasına vəsiyyət etdiyi qəzəli segahın ən qəmli, ən həzin pərdələrnndə oxumağa başladı:

**Bu aləm kim, könül, qeydin çəkərsən möhnətü qəmdir.**
**Fəna sərmənzilin seyr eylə kim, bir xoşca aləmdir.**

Leylinin — Gülyazın ürək oyan səsini Məcnunun Bənövşənin nalələri əvəz etdi. Güllər öz aləmindəydi: «Aha — deyirdi, — mahur-hindinin bəzmiylə başladı».

**Yandı canım hicr ilə vəsli-ruxi-yar istərəm,**
**Dərdiməndi-firqətəm dərmani-didar istərəm.**

«Görək indi hara gecəcək? Neylə davam etdirəcəksən qəzəli, qız? Afərin sənə! Aha... Üşşaqa endi. Daha sənə sözüm yoxdur.»

**Bülbülü-zarəm deyil bihudə əfqan etdiyim,**
**Qalmışam nalan qəfəs qeydində gülzar istərəm.**

Qapılar taybatay, şaqqıltıyla elə açıldı ki, divarlara elə çırpıldı ki, elə bil gürzlə vurulub, zəlzələ olub çərçivəsindən çıxdı. Otağa üç-dörd kişi soxuldu. Bir neçə nəfər də həyətdəydi Mirzə Güllərdən başqa otaqdakı qızlar cəld örpəklərini örtüb yaşmaqlandılar. Əyinlərindəki çuxaları çıxartmağa çalışdılarsa da müvəffəq olmadılar. Bu qızların «sahibləri» — Sərvnazın əri Musa, Gülyaz və Bapövşənin qardaşları Misir və Güləhməd əllərindəki qamçı vo tatarıyla başladılar qızları qamçılamağa. Onlarla bərabər Güllərin çoxdankı düşməni Əlisəftər də buradaydı. O üzünü gizlətməyən Mirzə Güllərlə qarşı-qarşıya durmuşdu. Hərəsi bir qan çanağı kimi qızarmış gözlərində nifrət, kin və qəzəb bir-birinə qarışmışdı. Təəssüfdən yanırdı ki, elin qorxusundan Mirzə Güllərə açıq-açığına əl qaldıra bilmirdi. O biri qızlar kimi o da başını gözünü qamçı zərbələrindən qoruya-qoruya ağlamır, yalvarmır. Ax, Əlsəftər necə istəyirdi ki, indi bu Mirzə Gülləri çəkmələrin altına salıb təpikləsin. Nəfəsini birdəfəlik kəskin, öldürsün. Bu bir neçə ilin bədənində topladığı qəzəbi söndürə bilsin.

— Hə! Mirzə xanım — deyə istehzayla sözə başladı. Özü də elə sözə ki, döyənlərin qəzəbini, döyülənlərin əzabını daha da artıra bilsin. — İndi daha özün köpəlmisən. İşə yaramırsan. Elin namusu qız-gəlinini aşnalarının...

— İt qızı it, qurban olasan o evdə ağlar qoyub... xanaya gəldiyin körpələrə! Səni cəhənnəmə vasil elərdim. Dur, sürün, köpəyin qızı! Axşam dədən tünbətün oğlunu çağırıb talağını verərəm.

Sərvinaz qamçı zərəbləri altında otaqdan çıxdı. Əri də söyə-söyə, döyə-döyə dalınca darvazadan uzaqlaşdı.

— Kişilər! Gül kimi, imam-övliya balası kimi arvadın evini bu üzü üzlər görmüş haşarı ərəmik köpək qızı...

— Bəlkə köpəyoğludu?

— Köpəyoğlu olsun. Gül kimi arvadın pir kimi evini çevirib eləyib ...xana!

— Bu Cabbar kişi qurmusaq qonşuluqda nöş onun ipini çəkmir? Biqeyrətliyə dözür?

— Əyşi, nə danışdığındı? Zurnaçı...

— Tarzəndi.

— Tula itdən mındardı. Siz nə qəyub, nə axtarırsız? Onda nə qeyrət axtarırsan, bilmirəm.

— Həzarat, ağzunuzu boşda qoymusuz, bir fikirləşmirsiz ki, bu dilaramçəngi onun nəyidi? Qızıdı? Arvadıdı? Gəlinidi? — İpini çəkə?

— Özünün də ki, Allaha şükür, bir şeyə yarıyan qızgəlini yoxdur.

— Elin qız-gəlini...

— El özü çəksin dərdini.

— El dərdi çəkmək Cabbara qalmayıb.

— Hardadı o əbləh qurumsaq?

— Allah bilir.

Qız-gəlin sahibləri öz adamlarını aparandan sonra evdə təkcə Mirzə Güllər, həyətdə də beş-altı «qeyrət sahibi» qaldı. Onlar Əlsəftəri əhatə edib söyləşirdilər. Birisi:

— Aaaadə, bəs sən deyirdin...

Bir başqası:

— Demək ayrı, iş ayrı.

Deyə Əlsəftəri qızışdıranların yanında son zamanlarda Bakı dəbi qoçuluq eləyən Əlsəftər bərkdən bağırdı, elə bağırdı ki, içəridə, açıq qapıdan Mirzə Güllər onu eşitsin:

— Çox qalmayıb hesab çəkməyimə. Dayan, qoy bir... Vallah ona bir toy qurasıyam ki, elədiyi toylardan aldıqları,

anasından əmdiyi süd kimi gilə-gilə zəhərə dönüb burnundan gəlsin. Qalsın onun qırmızı qulluğunda. Siz də tanrı şahidi.

* * *

— Sənə dedim, ay bala, işin olmasın o qızlarla. Allah səsdi verib — özü bilər.

— Sahibə xala, əl çəkdilər ki?! Cabbar əmidən çəkinirdilər.

— Sən də ki, adı bəddam.

— Hər nədi, xala, mən daha bu yerlərdə qala bilmərəm. Əməyini halal elə, çörəyimi-xörəyimi bişirmisən, əmi mənə dərs deyib. Muğamın bilmədiyim sirrlərini öyrədib. Halal eləyin məni. Səttar qardaşım odun-oçağıma baxıb, ağır işlərimi görüb.

Danışan Mirzə Güllərlə Sahibə xalaydı. Otağın baş tərəfində döşəkçələr üstündə əyləşib çubuq çəkən tarzən Cabbar kişiylə, kamançaçı Səttar söhbətə qarışmadan dinləyirdilər.

— Halal xoşun olsun, bala, — deyə artıq xeyli qocalmış Sahibə xanım başı və əlləri əsə-əsə Mirzə Güllərin çiyinin sığalladı.

— Ananın südü kimi halalın olsun. Sən də bizə səsin bahasına verdiyin çörəyi halal elə.

Arvadın dediyi son sözlərn otaqdakılardan demək olar ki, heç kim eşitmədi. Bayırdan nəsə bir bağırtı-çığırtı, sonra da güllə səsi eşidildi. Hamı qalxıb həyətə çıxmaq istidi. Cabbar kişi Mirzə Gülləri çiynindən tutub gerilətdi.

— Sən çıxma, Mirzə! Nə bilək kimdi, nəçidi, nə səsdi? Qoy biz çıxaq.

Sahibə xanımla Mirzə Güllər nigarançılıq içində evdə qaldılar. Cabbarla Səttar həyətə, oradan da darvazaya tərəf yeridilər. Ayın aydınlığıydı. Səs-küy yatmışdısa da Cabbar kişi rahatlıq tapmadı. Darvazanı açıb çölə çıxdı. Şərəfnisə Məşədi Cəfər qızının darvazası önündə kimsə yıxılmışdı. Yavaş-yavaş zarıyırdı. Ataoğul yaralıya tərəf cumdular.

— Dədə, Səməddi ki?

— Hə, bədbəxt balası, Mirzənin evini güdməyə-qorumağa gəlibmiş.

— Yəqin Mirzə biliblər onu.

Cabbar kişi yaralının başını qaldırıb dizi üstünə qoydu.

— Səttar, qaç evdən mələfə gətir. Yassar olma, bala!— deyə yaralıya müraciət etdi.

— Bilmədin kim iydi?

— Deyəsən Əlsəftər məni Mirzə bildi, əmi! Əmi ona de... de ki, yolunda qurban getmə... yimi qəm e... eləmə.. sin. Bu elə... Belə də ol.. malıy... dı. Onu qoru... yun, əmi! Yaxşı ki, elə onun... sənin tarın... onun səsi ...va..la ya.. zıldı... Yooox.. qoru... yun... Mməən qoru...ya bil.. məəə... dim. hayıf ki, qapısında can... verirəm. Ooonun.. adını... adını çəkəcək... ləəər... müm...kün ..sə məni... ayrı ye.. rə... çəkəsən.

Bunlar şair Səməd Sahirin son sözləri, vəsiyyətiydi. Onu başqa yerə çəkmək mümkün olmadı. Qoca tarzən, dünya və dürlü insanlar görmüş Cabbar kişinin gözləri doldu.

— Dünyada hər şəyi geri qaytarmaq olar, ağızdan çıxan sözlə, bədəndən çıxan candan başqa. Hayıf səndən, oğul, hayıf səndən canını verib bir sənətkarı el üçün saxladın.

Cabbar kişn bilmirdi ki, bu faciəli ölüm də Mirzə Güllərn xilas edə bilmədi. Səhər bazara səs yayıldı:

— Gecə Əlsəftər Səməd Sahiri Mirzə Güllərin darvazası qabağında vurub, şair ağır yaralanıb.

— Ölməmişdən əvvəl özü iqrar eləyib ki, onu vuran Əlsəftər olub.

— Kor da bilir balıq şordu. Aləm aşkar özü Mirzəni hədələmişdi.

— Tarzən Cabbarı aparıblar uryadiikliyə, dindiriblər. O da tasdıq eləyib. Deyib: «Əlsəftər vurub, amma Mirzə bilib vurub».

— Tutdular Əlsəftəri?

— Ay tutdular ha... Deyirlər illm-ilim itib.

— O boyda kişi bir tnkə yağlı əppəy idi ki, it yeyə?

— Kişi, elə lənətliyi heç it də yeməz.

— Deyirlər Mirzə Güllər də yox olub. Əvvəl əldə Şaxandanda nənəsinin qəbri üstündə görən olub. Sonra da yoxa çıxıb.

— Heç Cabbargillər də bilmir hardadı.

— Bilsələr də deməzlər.

— Çörək ağaclarıydı.

— Qurudu o çörək ağacı.

Doğrudan da qurudu, o səs ki, illər uzunu musiqi-muğam sevərlərin ruhunu oxşamışdı, ürəyinə fərəh vermişdi.

Günlərin birində Qaradonluda bir qarı peyda oldu. Murad ağanın qapısına gəlib Qonçabəyimlə Murad ağanı soruşdu. Hər ikisinin bir neçə il əvvəl dünyasını dəyişib, haqqa qovuşduğunu bilincə, darvazanın önündəcə diz çöküb hönkür-hönkür ağladı. Murad ağanın indi burada yaşayan qardaşının nökərləri onu içəri dincəlməyə, çaya dəvət etdilər. Qəbul etmədi. Payyığan hesab eləyib pay verdilər — almadı. Durdu, yaylığının ucuyla gözlərinin yaşını silib qəbristana tərəf yollandı. İndi heç kəsin

tanımadığı bu qadın Azərbaycan dolusu şöhrət sahibi Güllər idi. Axır ömrü, axır istəyi onu Murad ağayla Qopçabəyim deyə gətirmişdi buraya. Bəs axı hara üz tutacağını bilmirdi. Bu kasaya daman axırıncı damlaydı, onun səbrini tükətmiş, dərdini aşıb-daşdırmışdı. Ağlar qoyub getdiyi Qonçabəyim ana sağ idimi? Sağ idisə də sözünü eşitmədiyi, qızğın gənc başını götürüb, heç bir öyüd-nəsihət dinləmədən getdiyi o əziz, o mehriban arvadın gözümə nə üzlə görünəcəkdi? Ya ona əsil mənada atalıq etmiş Murad ağa sağ idimi? Sağ idisə sevdiyi, bala deyib bağrına basdığı, at belində oğul əvəzi gəzdirdiyi, təlim verdiyi qızın fəraqına dözə bilmişdimi? Bütün bunları bilmirdi Güllər. Şübhəsiz. Qaradonluya dönə bilməyəcəkdi. Amma döndü.

Bəs onda daha hara üz tutacaqdı? Cavad vilayətinəmi? Kimə qalmışdı orada? Yəqin ki, Anaqız arvad, o xeyirxah qadın çoxdan vəfat etmişdi. Nənəsi Gülsənəmdən də qocaydı eşitdiyinə görə. Bəs anası? Doğma anası, adını eşidib bircə kərə belə üzünü görmədiyi Reyhan necə? Haradaydı? Nənəsinin dərdli xatirələrindən bilirdi ki, özündən xeyli qoca, bir neçə uşağı yetim qalmış İsrafil adlı birisinə ərə verilmişdi — Qıztamam adıynan. Danışmışdı Gülsənəm ona o bədbəxt, o faciəli Reyhanın həyatını. Hardaydı? Sağ idimi? Üzünü görmədiyi qız qapını açıb içəri girsəydi, sağdısa əri, yetimləri onu necə qarşılardı? Varlığından bixəbər adamlar onu necə nə deyib qəbul edərdi? Reyhanın gününü bir az da qara etməzdimi? Axı Güllər nə biləydi ki, Reyhan çoxdan köçüb bu dünyadan. Dərdlərə, zəhmətlərə, kimsəsizliyə, qürbətə dözə bilməyib, pərvazlandırdığı İsrafil evladlarını baş-göz eləyib köçüb, öz bircəsindən xəbərsiz, yaralı köçüb bu dünyadan. Hara getməliydi Güllər? Bu gen dünyada onun heç kəsi yox idi, heç

kəsi olmadığı kimi, bu gen dünyada bir qarış yeri, bir hayanı, pərəstarı yox idi.

Bəli, əziz oxucum, bütün bunları dərk edən Mirzə Güllər irəlidə dediyimiz kimi qəbristana tərəf yollandı.

Qonçabəyimlə Murad ağanın qoşa qəbrini çox asan tapdı. Görünür bu yerlərə bələd idi. Aralıdan onu müşahidə edənlər gördülər ki, hər iki qəbri qucaqladı, sonra qalxıb qəbirlərin başına dolandı. Daha sonra iki qəbrin arasında oturub, başını gah bu, gah da o biri qəbrin daşına söykəyirdi. Maraqlı bir şey görməyənlər çəkilib öz işlərinə getdilər.

Səhər kimsə axşamkı «payyığanı» xatırlayıb, qəbristana tərəf baxanda arvadın hələ də iki qəbrin arasında bügülü qaldıqını görüb hay saldı. Xeyli camaat axışıb qəbristana gəldi. Arvad çoxdan keçinmişdi. El yığılıb suyun verdi, kəfənləyib, Qonçabəyimlə Murad ağanın qəbirlərinin ayağı altındakı bəyaz yeri qazıdılar. Qadını orada dəfn etdilər. Yasin, fatihə oxudular. Baş daşına ad yaza bilmədilər. Heç kəsin tanımadığı qadının adını da bilən yox idi. Molla dedi:

— Noolsun. Ad neynirsiz? Onsuz da müsəlman qəbri itməlidi.

Yuyucu arvad deyir ki, «alnında qap-qara bir göyərti vardı. Elə bil kimsə vurmuşdu yazığı alnından. Ya özü başını qəbir daşlarına döymüşdü. Kim bilir, Allahdan başqa».

Amma qədim şamaxılılar indi də əmindilər ki, Mirzə Güllərin axırına Əlsəftər çıxdı, namərd. Allahın baxşayışı olan o gözəl səsdən, o əvəzsiz nəfəsdən məhrum elədi insanları. Bunu o Allah bilir.

Ə Z İ Z Ə   C Ə F Ə R Z A D Ə

# BİR SƏSİN FACİƏSİ

**(Roman)**